**X.Ə. BABAYEVA**

# AZƏRBAYCAN FOLKLORUNDA XIZIR NƏBİ (İLYAS) OBRAZI

***türk folkloru kontekstində***

**MONOQRAFİYA**

**BAKI-2013**

**Elmi redaktor:** filologiya elmləri doktoru,
**professor Q.M.Namazov**

**X. Ə. Babayeva. Azərbaycan folklorunda Xızır Nəbi (İlyas) obrazı (türk folkloru kontekstində):** monoqrafiya, Bakı, 2013, 174 səh.

Qam– şaman və ondan əvvəlki dünyagörüşləri ilə bağlı olan Xızır türk mifoloji təfəkkürünün məhsuludur. Bizə gəlib çatan qədim dövr xalq yaradıcılığı məhsullarından olan altay–türk dastanı "Manas", azərbaycanlıların "Dədə Qorqud", özbəklərin "Alpamiş" və digər xalqların şifahi dilində Xızır peyğəmbər özünəməxsus funksiyalari ilə çıxış etməkdə və yaşamaqdadır. Burada onu da nəzərdən qaçırmaq olmaz ki, Xızırın təkcə folklor deyil, həm də dini və tasavvuf mənbələri ilə birgə incələnməsi bu kultun fünksiyalarını dərindən öyrənməyə yardım edir. Öz folklorunda Xızıra yer verən xalqların şifahi dilində. onun müxtəlif variantlarının işlənilməsi regionun dialektindən və tarixi dövrlərdən asılı olaraq dəyişikliklərə məruz qalmışdır. Tədqiqatın məqsədi də folklorşunaslığın müxtəlif janrlarında əks olunmuş Xızırın mənşəyini araşdırmaq, onun tarixi, və regional özünəməxsusluğunu şərh etmək, funksiyalarını sistemləşdirmək, onun Azərbaycan folkloru və türk xalqları folklorundakı yerini və mövqeyini göstərmək, müxtəlif, bir–birinə yaxın adlarla əks olunan Xızırı təsnifləşdirmək və onu ümumtürk konteksində, türk dünyasının folklor qəhrəmanı kimi tədqiqatçıların ixtiyarına verməkdir.

## Xızır haqqında dəyərli araşdırma

Azərbaycan folklorunda Xızır və onunla bağlı inanclar, daha dəqiq desək Xızır İlyas kultu tədqiqatçıların diqqətini hər zaman cəlb etmişdir. Yalnız Azərbaycanda deyil, digər türk xalqlarında da Xızırla bağlı inanclar dərin kök salmış, həm folklorşünasların, həm də dini tədqiqatçıların əsas tədqiqat obyektinə çevrilmişdir.

Folklorşünaslığın müxtəlif janrlarında əks olunmuş Xızırın mənşəyinin araşdırılması, onun tarixi və regional özünəməxsusluğunun göstərilməsi, funksiyalarının sistemləşdirilməsi, Azərbaycan və türk xalqları foklorundakı yerinin, mövqeyinin müəyyənləşdirilməsi kimi çoxşaxəli işin yüksək səviyyədə yerinə yetirilməsi üçün hər bir tədqiqatçıdan bilik, bacarıq, məsuliyyət, intellektuallıq tələb olunur. Əminliklə deyə bilərəm ki, araşdırma müəllifin bütün bu keyfiyyətləri özündə daşıdığını ortaya çıxarmışdır. Tədqiqatçı müxtəlif janrlarda bir-birinə yaxın bir çox adlarla əks olunmuş Xızırı türk mifoloji təfəkkürünün məhsulu kimi səciyyələndirmək, obrazı təhlil və təsnif etmək, onun funksiyalarını xalq inanclarına görə şərh etmək, folklorda deyilənlərə söykənərək kimliyini aşkarlamaq, həyat və mənşəyini araşdırmaq, müqəddəs kitablara və digər qaynaqlara əsaslanaraq onun zahiri cizgilərini ortaya çıxarmaq, Xızırla bağlı el mərasimlərini tədqiqata cəlb etməklə ortaya tutarlı iş qoymuşdur.

Monoqrafiyada Azərbaycan folklorşünaslığında ilk dəfə Xızır obrazı ayrıca bir problem kimi qoyulmuşdur. Bu mifoloji obrazın həm tarixi semantikası, mənşəyi, həm də ayrı-ayrı mərhələlərdə və regionlarda dəyişiklikləri izlənmişdir. Xızırla bağlı örnəklərin oxşar, fərqli cəhətləri üzə çıxarılmış, onun tarixi şəxsiyyət olma ehtimalına diqqət yetirilmişdir.

Xızır kimdir? Necə insandır? Neçənci əsrdə yaşayıb? Vəzifəsi nədir? Nə üçün folklorda bu qədər çoxşaxəli əks olunub? Ona «verilən» hansı elmdir? Tədqiqat ərəfəsində əsasən bu suallara cavab tapmağa çalışılmış və uğurlu cavablar tapılmışdır.

Tədqiqatçı qam-şaman və bəlkə də ondan əvvəlki dünyagörüşləri ilə bağlı olan Xızırı türkdilli xalqların digər ölməzlik axtaran qəhrəmanları qorqudlar, gilqamışlar, dəli domrullar, ural batırlar, İsgəndər obrazları ilə birgə işləmişdir. Tədqiqat işində bu müqayisələrə bir daha diqqət yetirilərək həmin obrazların oxşar cəhətləri müəyyənləşdirilsə də məlum olmuşdur ki, bu qəhrəmanların içərisində yeganə Xızır peyğəmbərdir ki, o dirilik suyunu, bir qədər də dəqiq desək ölümsüzlüyü qazana bilmişdir.

Həmçinin onun bir peyğəmbər kimi dini qaynaqlarda araşdırılması tədqiqat işinin keyfiyyətini artırır. Həqiqətən də peyğəmbərlər içərisində yeganə peyğəmbər Xızırdır ki, onun adına folklorun bütün janrlarında rast gəlirik. Bu isə peyğəmbərə olan inamın bu gün də xalq arasında yaşamasından irəli gəlir. Hələ də azərbaycanlılar çətinə düşəndə Xızırın ona kömək edəcəyinə inanır. Siyəzən rayonunda Xızır Zində pirini ziyarət edərək ondan dilək diləyir, Novruzda Xızırdan bol ruzi istəyir. Onun daim yaşadığını güman edən xalq Xızırı öz şifahi dilində yaşadaraq çoxşaxəli funksiyalarla zənginləşdirib.

Tədqiqatçı mənbələrə əsaslanaraq göstərir ki, bu funksiyalar peyğəmbərə Səmavi kitablardan qalmadır. Quranda da ona qeybə aid biliklərin verilməsi, Musa ilə yoldaşlığından bəhs olunarkən onun dirilik suyundan içməsi, ölməzliyi, itənlərə yol göstərməsi, batini elmlərə malik olması bildirilir. Qurandan əvvəlki müqəddəs kitablarda - İncildə, Bibiliyada, hətta Tövratda belə onun adlarından birinə, İlyasa rast

gəlinməsi və orada eyni funksiyalarla zəngin olması göstərir ki, bu obraz hələ çox qədimlərdən insanların and, inam yerinə çevrilmişdir. Amma tədqiqat prosesində gəlinən nəticə budur ki, bu qəhrəmanların hamısı eyni şəxsdir. Tədqiqat prosesində alim bu nəticəyə yavaş-yavaş, bizi alışdıraraq gəlir. Göstərir ki, Xızırı və İlyası ayrı-ayrı obrazlar kimi təqdim etməyə ehtiyac yoxdur. Bu monoqrafiyanın adında da özünü göstərir. Və aydın olur ki, tədqiqatçı hələ mövzunu işləməyə başlayarkən ona nəyin lazım olduğunu, araşdırmanı hansı istiqamətdə aparacağını bilirmiş. Tədqiqat işində bu məsələ dərinliklərinə, incəliklərinə qədər verilmişdir.

Ümumiləşdirərək onu demək olar ki, kitabda Xızırın ayrı-ayrı janrlar üzrə araşdırılması, Azərbaycan folklorunda ümumiləşmiş bir obraz kimi və onun şifahi xalq ədəbiyyatında yayılan funksiyaları tədqiq edilmişdir. Bütün bunları müəllif həm elmi dildə, həm də rəvan, anlaşıqlı formada diqqətə çatdırmışdır. Aydın olur ki, tədqiqatçı iş üzərində böyük əmək sərf etmiş, Xızır İlyası bizə bir daha tanıtmışdır.

Filologiya elmləri doktoru,
Professor **Qara Namazov**

# GİRİŞ

Azərbaycan xalqı çox qədim dövrlərdən başlayaraq müxtəlif məzmunlu əsatirlər yaratmışdır. Mifoloji süjetlər azərbaycanlıların çox qədim etiqadları, dünya görüşləri ilə bağlı olmuşdur. Əsrlər boyu mifoloji obraz və süjetlər xalqın yaddaşına həkk olunmuş və nəsildən-nəslə ötürülmüşdür. Əsasən qədim tarixi fakt və hadisələrdən ilham alınaraq yaradılan mif və əfsanələrdə həmçinin bir çox həqiqətlər gizlənmişdir. Azərbaycan mifologiyasında özünəməxsus yer tutan obrazlardan biri də Xızır obrazıdır. Xızırla bağlı folklor nümunələri şifahi xalq ədəbiyyatının bütün janrlarına nüfuz etmişdir. Araşdırmalardan aydın olur ki, onunla bağlı örnəklər milli bədii yaradıcılıq tariximizi daha dərindən araşdırmağa imkan verir.

Folklorşünaslıqda müstəqil tədqiqat obyektinə çevrilməsə də ayrı-ayrı elmi tədqiqat işləri, monoqrafiya və məqalələrdə Xızırla bağlı fikirlər söylənmiş, araşdırmalar aparılmışdır. Azərbaycan mifoloji təfəkkürünün öyrənilməsi sahəsində sanballı tədqiqat işləri ortaya qoyan Mirəli Seyidov Xızırın, xüsusilə Azərbaycanın özünəməxsus Xızırının istər mifoloji, istərsə də sözün özünün etimoloji baxımdan araşdırılması sahəsində böyuk işlər görmüşdür. Bundan başqa, ayrı-ayrı folklorşünas, ədəbiyyatşünas alimlər Xızırla bağlı tədqiqatlar aparmışlar. Azərbaycan xalq əfsanələrini araşdırarkən professor S.Paşayev, Novruz və digər mövsümi bayramları öyrənərkən Ə.Cəfərzadə, eyni zamanda A.Nəbiyev, P.Əfəndiyev, Q.Namazov, V.Vəliyev və digər alim və tədqiqatçılar yeri gəldikcə öz tədqiqatlarında Xızır obrazına, onun təhlilinə, folklorda yerinə yetirdiyi funksiyalara xüsusi yer ayırmışlar. Lakin bununla belə Xızır tarixi təkamül və qarşılıqlı müqayisə kontekstində xüsusi

tədqiqat obyektinə çevrilməmişdir. Bu araşdırmalara yekun vurmaq, onları ümumiləşdirib bir araya gətirmək folklorşünaslığın qarşısında duran vacib məsələlərdəndir. Xüsusən Xızırı ümumtürk xalqlarının folkloru ilə müqayisəli təhlil etmək, Xızırın genetik-tipoloji aspektdə öyrənilməsi, onun regional, tarixi özünəməxsusluğunu tarixi müqayisəli prinsip əsasında təhlil etməklə dəyərli elmi nəticələr əldə etmək olar. Həmçinin elmi səfərlər nəticəsində istər arxaik, istərsə də ənənəvi janrlar baxımından sanballı materiallar toplanmışdır ki, həmin örnəklər Xızır haqqında tədqiqat aparmağa imkan verir.

Monoqrafiyanın tədqiqat obyekti Azərbaycan folklorunda Xızırla bağlı örnəklərdir. Tədqiqat prosesində müəyyən elmi qənaət və nəticələrə gəlmək üçün başqa xalqların, xüsusilə türk xalqlarının folklorunda Xızırla bağlı örnəklərə, müqəddəs kitablara müraciət olunmuşdur. Çünki, bir çox mülahizələrə görə Xızırla bağlı nümunələrin demək olar ki, hamısı peyğəmbər, onun funksiya və məziyyətləri əsasında formalaşıb. Eyni zamanda, onun vəli, ovliya olduğunu göstərən mənbələr də var.

Tədqiqatın əsas məqsədi folklorşünaslığın müxtəlif janrlarında əks olunmuş Xızırın mənşəyini araşdırmaq, onun tarixi və regional özünəməxsusluğunu şərh etmək, funksiyalarını sistemləşdirmək, onun Azərbaycan folkloru və türk xalqları folkorundakı yerini və mövqeyini göstərmək, müxtəlif, bir-birinə yaxın adlarla əks olunan Xızırı təsnifləşdirməkdən ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün başlıca vəzifələr aşağıdakılardır:

-Müxtəlif janrlarda əks olunmuş Xızır obrazını təhlil etmək,

-Xızırı türk mifoloji təfəkkürünün məhsulu kimi səciyyələndirmək,

- Xalq inanclarına görə onun funksiyalarını şərh etmək,

- Həyat və mənşəyini araşdırmaq,

-Müqəddəs kitablarda və folklorda deyilənlərə söykənərək onun kimliyini aşkar etmək,

- Qaynaqlara əsaslanaraq onun zahiri cizgilərini ortaya çıxarmaq,

- Xızırla bağlı el mərasimləri.

Tədqiqat prosesində M.Seyidov, M.H.Təhmasib, Ə.Axundov, H.Araslı, M.Həkimov, Q.Namazov, S.Paşayev, Ə.Cəfərzadə, A.Nəbiyev, P.Əfəndiyev, V.Vəliyev, N.Xəlilov, C.Bəydilli, Ahmed Yaşar Ocaq, Ömər Faruk Hilmi və bir sıra yerli və yabançı folklorşünas, ədəbiyyatşünas və digər sahələr üzrə tədqiqatlar aparan alimlərin tədqiqatlarından istifadə olunmuşdur.

Monoqrafiyada Azərbaycan folklorşünaslığında ilk dəfə Xızır obrazı ayrıca bir problem kimi qoyulur. Bu mifoloji obrazın həm tarixi semantikası verilir, həm də ayrı-ayrı mərhələlərdə və regionlarda dəyişiklikləri izlənilir. Xızırla bağlı örnəklərin həm oxşar, həm də fərqli cəhətləri üzə çıxarılır. Onun həm də tarixi şəxsiyyət olma ehtimalına diqqət yetirilir. Xızır və İlyas adının nə üçün birgə çəkilmə ehtimalına da tədqiqatda xüsusi yer ayrılmış və əslində bu obrazların eyni bir kulta aid olduğu üzə çıxarılmışdır. Səmavi kitablarda adı çəkilən İlya, Belyanın Xızırın ilk adlarından biri, daha doğrusu birincisi olma qənaətinə gəlinmişdir.

Bu tədqiqat işi Azərbaycan folklorunda mifik janrın semantik aspektdə işıqlandırılması və türk folkloru tipologiyası baxımından əhəmiyyətlidir. Əldə edilmiş elmi müddəa və nəticələr mifik janrın problematikasının öyrənilməsi baxımından faydalıdır. Ona görə də mifik janrın təhlili ilə bağlı ayrı-ayrı müddəalar Azərbaycan folklorunun nəzəri problemlərinə aid ümumiləşdirici əsərlərin yaradılmasında istifadə oluna

bilər. Tədqiqat materialları folklorun tədrisində ali məktəblər üçün əlavə vəsait kimi işlənə bilər.

Monoqrafiyada həmçinin Xızır haqqında toplanmış folklor nümunələri əks olunan əlavə bölmə də verilmişdir. "Əlavə" hissəsinə folklor örnəkləri toplanılmış şəxslərin və monoqrafiyada bəhs olunmuş məkanların fotoları da daxil edilmişdir.

## Xızırın türk mifoloji sistemindəki yeri

Azərbaycan folklorunda Xızır və onunla bağlı inanclar, daha dəqiq desək, Xızır İlyas kultu həmişə tədqiqatçıların diqqətini çəkmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, yalnız Azərbaycanda deyil, digər türk xalqlarında da Xızırla bağlı inanclar dərin kök salmış, təkcə folklorşünasların deyil, ilahiyyatçıların da diqqətindən kənarda qalmamışdır.

Bu da etiraf olunmalıdır ki, digər müsəlman türklərinin şifahi dilində Xızır daha çox qorunmuş, bu sahədə xeyli tədqiqatlar aparılmışdır. Hətta, demək olar ki, orta əsrlərdən başlayaraq istər türk, istərsə də Avropa və digər xalqların elmi tədqiqatçıları Xızırla bağlı araşdırmalar, incələmələr aparmışlar. Ümumiyyətlə, Xızırı öyrənərkən təkcə folklor qaynaqları ilə kifayətlənmək olmaz. Bunun üçün Xızır ilahiyyat, tarix, təsəvvüf (sufizm, mistitsizm), ədəbiyyat və folklor qaynaqları ilə birgə incələnməlidir. Bu baxımdan Ahmed Yaşar Ocağın "İslam Türk İnanclarında Hızır, Yahut Hızır İlyas kultu" monoqrafiyası (1985) diqqətçəkəndir. Qeyd edək ki, türk, eləcə də digər xalqların folklorunda bu cür müxtəlif və çoxşaxəli, eyni zamanda bir neçə sahənin eyni maraqla diqqətini çəkən bir kulta çox az rast gəlinir.

Bu sahədə ən ilkin araşdırmalardan biri Carl Dyroff tərəfindən aparılmış və "Wer ist Chadhir?" (134, s.319-327)

adıyla yayımlanmışdır. Bu yazıda Aşur araşdırmalarına təhsis edilmiş, məsələlərə elmi yonümdə yanaşılmışdır. Bundan 17 il sonra K.Wollersin "Chider" (142, s.234-284) adlı məqaləsi dərc edilmişdir. İstər adıçəkilən, istərsə də ondan sonrakı tədqiqatçılar Xızırı həm də dini baxımdan təhlil etmişlər.

Türkiyədə isə ilk olaraq P.N.Boratav tərəfindən Wensinskin İslam Ensiklopediyasındakı tərcümə məqaləsinə bənzər bir şəkildə "Türklərdə Hızır" başlığı altında tədqiqat işi ərsəyə gəlmişdir. Bu materialda türk xalq inanclarında və ədəbiyyatda Xızır o zamanki dövrə müvafiq şəkildə təhlil edilmiş və folklorda Xıdırelləz mərasimlərindən bəhs edilmişdir (126, s.9).

Xızır mövzusunda ən bol və diqqətçəkən məlumat verən təfsirlərdən biri ünlü bir tarixçi olan İbn Cerir ət-Təbərinindir (310/927-23). Təbəri hər ayəti açıqlayarkən əvvəlcə Xızır peyğəmbərin hədislərinə yer vermiş və təhlil etmişdir. Bu sırada Əhli Kitab rəvayətlərinə də yer ayırmışdır (126, s.25).

XII yüzilliyin mühüm qaynaqlarından olan "Zədül-Mesir"in müəllifi Əbdülrəhman əl-Çevzi (597/1200) Bağdadlı olmuşdur. Onun hədislər və onların araşdırılması sahəsində böyük xidmətləri vardır ki, təfsirlərindən birində də Xızırla bağlı xeyli zəngin məlumatlar toplanmışdır.

Xızırla bağlı rəvayətləri özündə cəm edən qaynaqlardan biri də XIII yüzillikdə Əndəlisdə yaşayıb yaradan alim Abdullah Məhəmməd Əhməd əl-Kurtubinin (671/1272) "Kurtubi təfsiri" adı ilə tanınan "əl-Cəmili-Əhkamil Quranı"dır. Burada müəllif Xızırla bağlı rəvayətlərin ən gözəl təfsirlərini vermişdir. Kurtubi öz dövrünə qədər Xızır və Xızır İlyas mövzusunda yayılan rəvayətlərə diqqət yetirərək bizə çox zəngin bir məlumat qoyub getmişdir.

Bu tip rəvayətləri özünəməxsus şəkildə incələyərək diqqəti çəkən bir əsər ortaya qoyan, Kadı Beyzavi adıyla tanınan,

Nazırud-Din Abdullah Ömər (691/1292) Şəfii məzhəbindən olan müəllif fikir, kəlam və tarix elmləri ilə məşğul olan alimlərdən olmuşdur. Onun "Ənvəri-Tənzil" əsəri yüzillərdən bəri bütün İslam dünyasında bəyənilən və tədris edilən təfsirlərdəndir (126, s.26-27).

Son zamanlarda daha çox oxunan və bütün islam ölkələrinə yayılan bir təfsir Misirli alim Seyid-Kütub tərəfindən qələmə alınmışdır. "Fi-Zilalil–Quran" adındakı bu əsər son təfsir qaynaqlarındandır. Məsələ burada çox qısa şəkildə qeyd olunmuş və Xızırın həyatından bəhs edilməmişdir. Bununla da yazar Xızırın kimliyi məsələsindəki bütün rəvayətləri rədd etdiyini, dolayısı ilə bunların sağlam əsaslara dayanmadığına inandığını diqqətə çatdırmaq istəmişdir.

Ümumiyyətlə, bu mövzu müxtəlif aspektlərdə və müxtəlif əsrlərdə tədqiqatçıların tədqiqat obyektinə çevrilmiş, yeni-yeni elmi nəticələr əmələ gəlmişdir. Ancaq ümumiləşmiş qaynaqlar göstərir ki, Xızırla bağlı məlumatlar, onun şəxsiyyəti və kimliyi ən maraqlı məsələ kimi həmişə gündəmdə qalıb. Xızır kimdir? Necə insandır? Neçənci əsrdə yaşayıb? Vəzifəsi nədir? Nə üçün folklorda bu qədər çoxşaxəli əks olunub? Ona "verilən" hansı elmdir?

Demək olar ki, onun haqqında araşdırıcılar həmişə düşünmüş və bu sahədə xeyli tədqiqat aparmışlar. Lakin diqqət edildikdə məlum olur ki, bu məlumatların böyük əksəriyyəti müqəddəs və dini kitablara söykənərək söylənilə bilər.

Xızır – əslən əl-Hadır (bütün qaynaqlarda bu ad deyil) ləqəb olaraq dəyərləndirilmişdir. Bəzi qaynaqlarda əl Hadr, əl Hidr şəklində görünsə də, doğrusunun əl-Hadır olduğu qəbul edilir. Bu kəlmə türklərdə Hızır, nadir hallarda Hidır (110; 114, s.120), Orta Asiyada (qırğız türkləri) Kıdır ("Xıdır ata" da

deyilir) (65,s.152), iranlılarda Khezz, Azərbaycanda Xızır şəklində istifadə edilir (126, s.59; 117, s.135; 124, s.20).

Onun kimliyinə, əsl-nəcabətinə gəldikdə isə dini kitablarda Xızırın anasının Rum, babasının fars olduğu, Musa peyğəmbərin qardaşı Harun Əleyhissalam nəslindən gəldiyi bir neçə rəvayətdə söylənilir (bu rəvayətlər toplu şəklində Makdisi, III, 77-78; Diyarbəkir, I, 120-121 də toplanır). İlk silsilədə Xızırın soyu Nuh peyğəmbərə, digərində İbrahim peyğəmbərə gedib çıxır. Bir başqasında isə Adəm peyğəmbərin nəvəsi kimi göstərilir (126, s.63). Bu çoxçeşidliliyə baxmayaraq qaynaqlardan ən çox etibar edilən birincidir. Böyük əksəriyyət Xızırın əsl adının Belya olduğunu güman edir (116; 124, s.135). İbn kəsr Belyanın əslində İlyadan dönmə olduğuna diqqət yetirmişdir. Belyanın Yelya, yəni İlyanın adlarından biri olduğu ehtimal edən mənbələr də var (126, s.98).

Onun yaşadığı dövr haqqında da müxtəlif fikirlər var. Xızırın İbrahim dövrundə yaşayıb, onunla birlikdə Babildən köç etdiyini (125, s.543; 116, s.135), yaxud Süleyman dövründə yaşadığını söyləyən rəvayətlər var (104, s.121). Lakin böyük çoxluq onun Musadan çox əvvəl İran hökmdarı Evlidin Evliyan dövründə həyatda olduğunu, Zülqərneynin öncü qüvvələrini yönəltdiyini, Musa dövründə də yaşadığını söyləyirlər (125, s.543-544; 126, s.66). Bu mənbələr içərisində Selebinin Kassasul Ənbiyasında (Bax: Selebi; s.145-147) diqqət çəkən bir məsələyə toxunulur. Həzrəti peyğəmbər Merac gecəsində Cəbrayılla gedərkən gözəl bir iy hiss edir. Cəbrayıldan bunun nə olduğunu soruşur. O da cavab verir ki, bir zamanlar adil bir hökmdar və onun da bir oğlu var imiş. Hökmdar bu oğlanı bir mürəbbiyəyə verir. Bir dəfə oğlan dərsə gedərkən bir zahidlə rastlaşır. Zahid onun diqqətini çəkdiyindən bir gün onun evinə gedib onunla söhbət edir. Bu minvalla bir neçə vaxt keçir. Bir

müddət sonra hökmdar oğlunu evləndirir. Şahzadə toy gecəsi gəlinə müsəlman olduğunu, atasının dininə inanmadığını, əgər bu sirri saxlayarsa, onu azad edəcəyini bildirir. Gəlin də onun dediyini edir. Həmin şəxs şahzadə Xızırdır. O gündən bəri bütün dünyəvi məşğələləri buraxıb ibadətlə məşğul olur. Bu tipli rəvayətlərə İbn Kəsir (110, s.330-331) və digərlərinin kitablarında da rast gəlinir.

Ömər Faruk Hilmi "Hızır Aleyhisselam" əsərində Xızırın peyğəmbərliyi ilə bağlı yazırdı: "Yusif Əleyhissalam ilə qardaşlarından sonra yenə yer üzünü qara buludlar almışdı. Göz-gözü görmürdü. İnsanın dəyəri qalmamışdı. Həzrəti Ibrahimin gətirdiyi Hənəfi dini insanlar arasında unudulmuşdu. Həzrəti İsmayıl, İshaq, Yaqub, Yusif və digər peyğəmbərlər bir-bir insanların zehnindən silinmişdi. Allaha inam qalmamışdı. İnsanlar bütlərə, heykəllərə tapınırdılar. Kimisi də Aya, Günəşə, Ulduzlara ibadət etməkdə idi. Belə bir vaxtda Yusif Əleyhissalam ilə qardaşlarından sonra Xızır peyğəmbərə nübüvvet (peyğəmbərlik) verildi" (Mirati Kainat; 1/225). Bütün bu sadalanan kitablarda, araşdırma, tədqiqat əsərlərində o, dini yöndən araşdırılır. Bir peyğəmbər kimi yer üzündə insanlara kömək etmək, dar gündə onların dadına çatmaq üçün göndərildiyi bildirilir.

Eyni zamanda, folklorşünaslıqda özünəməxsus kök salmış Xızırda da eyni xüsusiyyətlər cəm olub. Dastan, əfsanə, inanclar və digər nümunələrdə Xızır dar gündə dada çatan, imdada yetən, çətin gündə insanlara dayaqdır. Bu inanclar getdikcə o qədər geniş vüsət almağa başlayıb ki, xalqın ona inam və məhəbbəti Xızırı Azərbaycan folklorunun əgər belə demək olarsa, əsas obrazlarından birinə çevirmişdir. Yeri gəlmişkən qeyd edək ki, Xızırın bu qədər çoxşaxəliliyi göstərir ki, xalq peyğəmbərə böyük inam və məhəbbətlə yanaşmış,

hətta onu and yerinə çevirmişdir. "Xıdır İlyas haqqı", "Xıdıra and olsun", "Xıdır Zində babaya and olsun" kimi andlar bu səpkidəndir. Qeyd etmək yerinə düşər ki, kitabələrdə əsasən "mürşid" mənasında işlənən ərəbcə "şeyx", "həzrət", farsca "pir" (çox maraqlıdır ki, istilahı türk sözü "Bir"lə bağlayırlar. Bəzi kitabələrdə və orta əsr mənbələrində bu söz "Birə" formasında işlənib. "Pir" – "Bir" və yaxud "Birə" sözü güman ki, birinci, yəni öndə gedən, mürşid mənasını bildirir.) Azərbaycan dilində "Baba", "Ağa" mənasında işlədilir (71). Sonuncu qeyd olunan "Xıdır Zində Babaya and içirəm" andında peyğəmbərə baba kimi müraciət olunması da onun ilahi varlıq olmasına işarədir. Ümumiyyətlə, ayrı-ayrı yerlərdə və dövrlərdə Xızıra Xızır ağa, Xan Xızır, Xızır Soltan, Hacı Xızır, Qor baba, Diri baba, Nur Dədə də demişlər (37, s.5).

Xızırın genetik-tipoloji aspektdə öyrənilməsinə gəldikdə isə bu sahədə müxtəlif fikirlər var. Onu ancaq ərəb mifologiyasının məhsulu kimi qəbul edənlər belə zənn edirlər ki, bu sözün hərfi mənası hər şeyi aydınlaşdırır. Ərəb mənşəli Xıdır, yaxud Əlxıdır "yaşıl, yaşıllıq" mənasını verir. Məcazi mənada "dada yetişən, köməyə gələn"dir. Ərəb mifologiyasında yaşıl don geyinmiş peyğəmbər, fəlakətə uğrayanların dadına çatandır (85). Xıdır və Xızır çox vaxt bir-birindən fərqlənmir. Lakin Xızır türkdilli xalqların, o cümlədən azərbaycan mifologiyası ilə əlaqədardır. Professor Mirəli Seyidov da öz tədqiqatlarında bildirir ki, türk xalqları təfəkkürünün məhsulu olan Xızır hələ qam-şaman və bəlkə də ondan əvvəlki dünyagörüşləri və inamları ilə bağlıdır.

Qam-şamandan və onun yaydıqları görüşlərdən bəhs edərkən (miflə səsləşən) adəti-hekayəti yad edək. Şaman haqqında yaranmış və ən geniş yayılmış hekayət "Şamanın azarlaması" adəti-hekayətidir. "Şamanın azarlaması" adəti

hekayətinin bir sıra variantlarında deyilir ki, şaman-qami narahat hal keçirir və o çayın qırağına gedib üzü üstə yerə yıxılır, ağzından köpük gəlir. Müəyyən vaxt bu duruşda qalır. Ayılandan sonra şaman olur – şeir qoşur, qopuz çalır. Buradakı bir məsələyə diqqət yetirək. Gələcəyin şamanının çay (su) qırağında üzü üstə torpağa yıxılıb yatması adi bir təsadüf deyil. Əski mif təfəkkürü ilə bağlıdır. M.Seyidov bunu çox yaxşı açıqlamışdır ki, gələcək şamanın su qırağında azarlaması əski türk xalqlarının suya inamı ilə səsləşir. Türk xalqları suyu ilk başlanğıclardan biri saymışdır. Elə buna görə də şaman ilk başlanğıcın yanında azarlayır və bununla ondan yardım diləyir. Adəti-hekayətlərdəki digər bir duruşu göz qarşısına gətirək. Şaman torpağa yıxılır və bu duruşda müəyyən müddət qalır. Bu da yerin müqəddəsliyi ilə səslənir. Yer türk xalqlarında ana (qadın) kimi qəbul olunmuşdur. Gələcəyin şamanı suya, torpağa - yerə ulu, uduq (yəni müqəddəs) anaya tapınır və onların yardımı ilə şaman-qam istedadına yiyələnir. Deməli, gələcəyin söz, qopuz, saz ustası, azarı, bəlanı qovan qam-şamanı suya, yerə inam yaratmışdır (158). Türk xalqlarında qəhrəmanın torpaqla, yerlə bu və ya digər bağlılığı, sözsüz ki, torpağa inamla bağlıdır.

Türkmən variantında Koroğlu qəbirdə (yerin içində) doğulur. Bununla güman ki, türkmən Koroğlusunun anasının (ölmüş ananın onu doğması sonrakı əlavədir) Yer ilahəsi olduğuna işarə olunur. Daha bir misal çəkək. Yaqut Olonxo (xalq nağılları) igidlərinin batırlarının bir sırası doğulan vaxt çox zəif, eybəcər olurlar. Belə uşağı torpağa basdırırlar və o, torpaqdan qidalanır, güclü, yaraşıqlı batır olur. Azərbaycan nağılı “Simnar”da da uşaq doğularkən eybəcər olur: “…Onun başında, qaşında, kipriklərində tük yox idi, özü də ət kimiydi” (155; 21, s.30). Bu eybəcər, ölgün uşağı su dirçəldir, saç verir.

Azərbaycan "Koroğlu"sunda Qoşa bulağın suyu Koroğluya gur səs, güc verir, onu aşıq edir. Su "Koroğlu" dastanında aktiv, "Şamanın azarlaması"nda passiv iştirak edir. Dastanlarda su oxumaq, şeir qoşmaq istedadı verir. Bizdə şamanı-qamı suya, torpağa inam yaratmışdır (88, s.231).

Gətirilən nümunələrdən görünür ki, türk xalqlarında, o cümlədən Azərbaycan xalqında torpağa olan münasibət Yeri - torpağı müqəddəs etmişdir. Bu barədə "Qurani-Kərim"in 86-cı – "əl-Tariq" ("Gecə gələn") surəsinin 6-cı ayəsində belə deyilir: "O, axıb-tökülən bir sudan yaradılmışdır". 35-ci "Fatir" ("yaradan") surəsinin 11-ci ayəsində yazılır: "Allah sizi (atanız Adəm) torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra sizi cüt-cüt yaratmışdır". Deməli, bu ilkin tapınma obyektləri müqəddəs kitablarda da insanın yaranması ilə əlaqəlidir.

Qəribə burasıdır ki, folklorumuzda Xızır obrazı da məhz suyun və torpağın sahibi kimi tanınmışdır. Yaşamaqda olan əfsanələrə görə Xızır İlyas suyun, Xızır Nəbi isə qurunun sahibidir (79, s.127).

Bu kultu çox dərindən və hərtərəfli tədqiq edən Mirəli Seyidov Azərbaycanın özünəməxsus, orjinal Xızırını həmçinin Öləng, Qorqud, Ural Batır və digərləri ilə müqayisəli, oxşar və fərqli tərəflərini dərindən araşdıraraq çox sanballı bir elmi əsər ortaya qoymuşdur. O, Xızırın əbədi yaşayış fikrini türkdilli xalqların digər ölməzlik axtaran qəhrəmanları - qorqudlar, gilqamışlar, dəli domrullar, ural batırlar, İsgəndər obrazları ilə birgə işləmişdir (Başqırdların ən əski kosmoqonik, mifoloji təfəkkürü ilə sıx bağlı olan, əsasən mifik aləmin obrazlarının iştirak etdiyi yetkin Ural Batır eposu türkdilli xalqların mifoloji baxışlarını kökündən araşdırmaq üçün qiymətli qaynaqdır).

Mirəli Seyidov Xızırı yazın, istiliyin, hərarətin qüvvəsinin insaniləşmiş mifik obrazı kimi verir. Bundan əlavə, onun

sevənləri qovuşduran (buta), dada çatan və digər keyfiyyətlərinin əsl məğzini açır. Bütün bunları sırf mifik bir obrazın funksiyaları kimi təhlil edir. O, Xızırı ərəb Xıdırından tamamilə fərqləndirərək Azərbaycan xalqının Xızır haqqında yaratdıqları mərasim nəğmələrinə və Xızır sözünün etimologiyasına diqqət yetirir. Sözün fonetik təhlilini verərək Xıdırla Xızırın olsa-olsa tarixi bir qarşılaşmada olduğunu, yəni ərəb mifolojisinin ölkəmizə ayaq basdıqdan sonra Xıdır variantının işlədildiyini sübuta yetirməyə çalışır. Həqiqətən də xız sözünün Azərbaycan tarixi toponimiyasında varlığı sübut edir ki, bu söz vaxtilə türk dilində çox sıx şəkildə işlənmişdir Belə ki, xız - istilik, od, atəş, qüvvə mənasında, ır/ur isə feli zaman şəkilçisi olaraq yanır, qızır deməkdir. Digər mülahizələrə görə isə –ır-ın həm də –ər, -ar fonetik variantı da var ki, bu da kişi, ər, müqəddəs, ilahi mənalarını da verir. Azərbaycan mərasim nəğmələrində, Novruz bayramı ərəfəsində xalqın oxuduğu

Xızır, Xızır xız gətir
Var dərədən od gətir –

parçası bu fikrə bir daha sübutdur (87, s.27).

Xızırın türk mifoloji təfəkkürü ilə əlaqəsini göstərən bir məsəli də xatırlayaq. Xızır da bütün türkdilli xalqların, o cümlədən azərbaycanlıların müqəddəsləri, qəhrəmanları kimi boz at minir və çox vaxt gözə at üstündə görünür. Məsələn, Hacı Bektaş "Vilayətnamə"sində Xızırın Hacı Bektaşın cənazəsinə gəldiyi vaxt belə təsvir olunur: "Üzündə yaşıl niqab, altında boz bir at var idi. Əlində isə mizraq tutmuşdur" (Bax: Menakib–HBV, s.90-91). Buna çox bənzəyən Otman Baba Vilayətnaməsində də görürük: Zağarada bir çiftçi (əkinçi) çift (kotan) sürərkən birdən qarşısına boz atlı yaşıl cıdalı, üzü

niqablı bir sərvər görünür (127, s.48b-49a). Eyni zamanda Qaracaoğlanın

Deryalar üstünde Boz atlı Hızır
Benli Boza binmiş o da geliyor –

beytində yenə Xızır boz atlı bir şəxsiyyətdir. Xızır bəzən yaşıl, bəzən ağ rəng geyinən, boz-ağ, bəzən də qır at minən, üzü bəzən örtülü, bəzən açıq, əlində mizraq, yaxud qamcı daşıyan bir süvari şəklində təsvir olunmuş, eyni zamanda da istədiyi hər cildə, hər yaşa girə bilən biri kimi təsəvvür edilmişdir. Ən çox girdiyi cild isə ağ saçlı, ağ saqqallı bir ixtiyar, dərviş cildidir (126, s.113).

Boz, ağ-boz (altaylarda), ağ atlar ancaq azərbaycanlıların soy-kökündə iştirak edən qəbilə birləşmələrində deyil, özbəklərdə, qazaxlarda, türkmənlərdə, altaylarda, yakutlarda da düzümlü sayılmışdır. Belə atları əski inama görə soy-köklə əlaqədar ulu babalar, müqəddəslər, igidlər minərmişlər. Gültəkinin də iki atı ağ, bir atı boz olmuşdur. Əski abidələrdə deyilir ki, yol tanrısı boz at minirmiş. Adlı-sanlı Beyrək boz atda gəzərmiş. Azərbaycan nağıllarındakı, dastanlarındakı igidlərin də bəzilərinin boz, bəzilərinin ağ atları var imiş. Başqırd xalq yaradıcılığındakı yarıtanrıların, tanınmış igidlərin, altayların mifik təbiətli qəhrəmanları ağboz, boz, ağ at minirlərmiş (144, s.337). Başqırdların "Ural Batır" dastanında qəhrəmanın atının adı da Ağboz atdır. "Manas" dastanında Xızır məhz Ağboz atda gəlib Manasın oğluna Semitay adı verir (119, s. 533-534). Boz, ağ atın düzümlü sayılması həmin rəngə inamla bağlıdır.

Onu da qeyd edək ki, folklorda ağ rəngin qara rənglə simvollaşan qəm-kədər əlamətli matəmlə, yasla bağlılığı da

var. Türk mədəniyyəti institutundan bir çox yönləri mənimsəmiş çin əski məişətində də bu cizginin olmasını bir çox qaynaqlar xəbər verməkdədir. Belə ki, çinlilərdə də ölən şəxsin yaxınları, qohumları ağ rəngli paltar geyinər, qapısının ağzından ağ rəngli bayraq asarlarmış (159, s.42-46).

Bu məsələdən söz açan professor Mirəli Seyidovun yazdığına görə Azərbaycanın bir çox yerlərində yaşlı adamlar abı paltar geyinərmişlər. Məsələn, Naxçıvanda belə bir adət var imiş. Əri ölmüş qadın dörd ay on gün başına ağ tənzif bağlayardı. Bu müddətdən sonra yaxın qohum-əqrəbadakı qadınlar yığışıb onu yasdan çıxararmışlar. Bu yaslı qadının başına xına qoyar və bundan sonra o daha ağ tənzif örpəyi örtməz, ağ rəngli paltar geyinməzmiş. Ağ rəng matəm rəmzi olduğuna görə bir sıra rayonlarda yatmış uşağın üzünə ağ salmazlar.

Əskidən Qafqazda yaşayan bir sıra türkdilli xalqlarda - qumuqlarda, qaraçaylılarda indi də ağ matəm, yas rəngi sayılır. Bu xalqların yas adətlərindəki bir məsələ maraqlıdır: Qəbirlərin başdaşlarında kiçicik dərin oyuq oyulur və ora ağ bayraq sancılır (86, s.150-151). Xızırın ağ rənglə bağlılğı daha çox xeyirlə bağlı olsa da maraqlıdır ki, onun ağ rənglə matəm rəmzi, başqa sözlə ölülər dünyasının rəngi ilə bağlı olduğunu bildirən mənbələr də var. Həmin mənbələrlə hətta onun kor olduğu fikri də yazılır və bildirilir ki, o görməz olduğu qədər də gözəgörünməzdir. Dünya sirlərinin bilicisi olan bu varlığın kor təsəvvür edilməsi onun yeraltı dünya, ölülər səltənəti, əcdad ruhların olduğu o biri aləmlə bağlıdır. Bir əfsanəyə görə Xızır Quranı öz ustadının qəbrində öyrənir ki, bu əfsanə özlüyündə yenə onu ölülər səltənətinə, əcdadlar aləminə bağlayır (65, s.153).

Lakin əksər mənbələrdə ağ rəng xeyirlə əlaqədardır. Xalq arasında "Görüm səni ağ günə çıxasan", "Günün ağ olsun", "Üzün ağ olsun" və sairə alqışlar buna misaldır. Ağ, boz xeyir tanrısı Ülgenin rəngidir. Buna görə də belə rənglər düzümlü sayılmışdır. Bu səbəbdən də qədim qam-şamanlar ayini-oyun icra edərkən guya tanrının yanına gedərmişlər. Bu vaxt XIII əsr müəllifi Rəşidəddinin yazdığı kimi boz at minərmişlər. Türkdilli Sarı Arqa, Arqın Neyman ellərində od Tanrısının şərəfinə deyilən alqış sözü bu baxımdan maraqlıdır. V.V.Radlovun topladığı materiallara görə çayların və dənizlərin hakimi olan ruh ağ, boz at üzərində gəzir. Yakutlar, qazaxlar boz atı və onun dərisini düzümlü sayırmışlar. Onlarda belə bir inam varmış ki, doğmayan qadın çayın kənarında, tək uca ağacın altında boz atın üstündə gecələyərsə, guya hamilə olarmış. Burada su kənarı, boz atın müqəddəsliyi və ona inam ön plana çəkilir. Yeri gəlmişkən qeyd edək ki, buna bənzər Xızırla bağlı bir inam Azərbaycanda da mövcuddur. Belə ki, Şirvanda mamaçalar çətin doğan hamilə qadını su kənarına aparıb belə bir ovsun oxuyardılar:

Xızır Nəbi, Xızır İlyas
Bəndəni bənddən et xilas
Bolluq ucuzluq
Gəl qurtar balamı.

Deyilənə görə, belə qadın körpəsini yüngüllüklə dünyaya gətirərmiş. Yuxarıda da qeyd olunduğu kimi Xızırın su ilə bağlılığı və boz at minməsi Azərbaycan folklorunda daha cox rast gəlinən haldır. Xızıra həsr olunmuş mərasim mahnılarından birində də bu xüsusi qeyd olunur:

Mən Xızırın quluyam
Boz atının çuluyam.

Xızırın boz at minməsinə Dədə Qorqud boylarında da rast gəlinir. "Kitabi Dədə-Qorqud"da da ağboz atlar bilavasitə uğurla, şad xəbərlə bağlı məqamlarda, daha çox yağı ilə vuruşlarda minilir. Məsələn, Səgrək qardaşı Əgrəki kafirlərin əlindən qurtarmağa gedəndə anası ona ağboz at minməyi məsləhət görür. Yeynək də Düzmürd qalasında əsir saxlanılan atasının dalınca yollanmağa hazırlaşanda yuxusunda bu səfərə ağboz atlı alplarla getdiyini görür. Elə atasının yolunda vuruşa qalxan Uruzun da mindiyi Ağboz atdır (2, s.47; 56, s.23). Deməli, Xızır məhz əski türk xalqlarının inamı ilə bağlı olaraq qamlar-şamanlar, soyköklərin əfsanəvi ulu babaları kimi boz at minirmiş. Hətta rəvayətə görə, Məhəmməd peyğəmbər Merac gecəsi göyə qalxarkən onun yanında olan Xızır peyğəmbər də özünün əfsanəvi boz atı ilə gedibmiş.

Türk inanclarına görə boz və qır atlar ölümə layiq görülməmişdir. Həzrət Əlinin Düldülü, Şah Ismayılın Qəmər Tayı, Koroğlunun Qıratı, Baba İlyasın Boz atı həmişə ölümsüzdür.

Qır atların uğurlu olduğuna dair Anadoluda da bir sıra inanclar yaşamaqdadır. Onlardan birinə görə bir kəs günəş doğmadan qır ata minib bir dərədən yeddi dəfə keçərsə, ona heç vaxt cadu təsir etməz. Başqa birisinə görə at evin qarşısına başı evə doğru bağlanılarsa ora bərəkət gətirər. Atın nəfəsi xəstələri sağaldar. At olan yerdə evə şeytan girə bilməz. Bəlkə elə buna görədir ki, nəzərdən qorunmaq üçün bəzi evlərin çatısına at başı, Azərbaycanda daha çox at nalı asılır.

Xızırın Boz atlı bir şəxsiyyət kimi düşünülməsində yuxarıda danışdığımız inancların da rolu vardır. Xızırın Boz atı haqqındakı əfsanələr də buna haqq verir. Bir əfsanəyə görə

Xızır Abi-həyatı axtararkən yolu Qaf dağına düşür. Buradakı süd gölündə həm uçan, həm də üzən atlar var idi. Xızır bunlardan birini tutmaq istəsə də bacarmır. Ancaq gölə şərab tökərək atları sərxoş etməklə ikisini ələ keçirməyə müvəffəq olur. Onları cütləşdirir. Xızırın Boz atı bu cütləşmədən doğulmuşdur. Onun yel qanadlı olması bu üzdəndir.

Otman baba Vilayətnaməsində Xızırın atının dənizdən gəldiyi göstərilir. Burda deyilənlərə görə Otman baba vəfat edəcəyi vaxt göydən qanadlı bir qır at gəlir. Guya o, buna minib göyə çəkiləcəkmiş (126, s.116).

Boz atın müqəddəsliyi Azərbaycan folkloruna da təsir etmiş və burada bir çox əfsanəvi, tarixi, fövqəladə qüvvəyə malik şəxslər boz at üstündə təsvir edilmişdir. Eyni zamanda, Xızır peyğəmbərin boz at minməsinə Azərbaycan folklorunun müxtəlif janrlarında rast gəlinir. Lakin bəzi hallarda Xızır ağ at üzərində də təsvir olunur. Məsələn, "Aşıq Qərib" dastanında Qərib Şahsənəmin toy xəbərini eşidib vətənə dönəndə yolda onun mindiyi at çərləyib ölür. Hər yerdən əli üzülən aşiq belə məqamda Xızırı köməyə çağırır. Bu çağırışdan sonra ağ atlı Xızır gözə görünür və Qəribi vətənə çatdırır (25). Bu misallardan görünür ki, Xızır sehrli qüvvələr sırasına daxil olduğundan, o ağ və ya boz atda göstərilir.

Əski şumerlərin "Gilqamış" dastanına baxaq ("Bilqamıs", yaxud "Bilqamus" - hər şeyi bilən deməkdir. Şumerlərdə də, Azərbaycan dilində də eyni mənanı verir). Xalq Gilqamışın simasında ölümə qarşı çıxır. Gilqamış ölməzlik axtarır və insanları həmişə gənc saxlayan, ölməzləşdirən "sehrli bitki" tapır (Xızır isə dirilik suyu tapır). Lakin bu bitki nə Gilqamışa, nə də həyatı qədər sevdiyi xalqına qismət olmur. Qorqut da, Dəli Domrul da müxtəlif şəkildə ölümə qarşı dururlar. Onlardan birincisi ölməzlik axtarır, ölümdən qaçır,

lakin həmişə ölümlə qarşılaşır. Digəri isə ölümü təmsil edən, ölüm gətirən Əzrayılla vuruşur. Lakin onların heç biri ölümə, ölməzliyə qalib gələ bilmir. Ölməzlik axtaran qəhrəmanların içərisində isə yeganə ölümsüzlük qazanan Xızır-İlyasdır ki, sonrakı fəsillərdə Xızır və İlyasın eyni bir şəxs olduğunu biləcəyik.

Başqırdların ən əski kosmoqonik, mifoloji təfəkkürü ilə bağlı olan "Ural Batır" eposunda göstərilir ki, Ural Batır da dirilik suyu axtarışında olub. Lakin o, dirilik suyunu özü içmir, insanlara adi, təbiətə isə həm adi, həm də dirilik suyu verir. Əsərdə Uraldağdan Idel (Volqa), Yaiq (Uralçay), Nuquş, Xakmar çayları yaranır və insanlara, bitkilərə su verir (doğrudan da, adları çəkilən çaylar öz qaynaqlarını Ural dağından alırlar). Dastanın sonunda Ural Batır axan suların sahibi, himayəçisi kimi gözə çarpır. Deməli, o həm də su ilə əlaqədardır. Su ilə Ural Batırın əlaqəsi Xızırla İlyasın əlaqəsini xatırladır. Görünür burada da mifoloji yaxınlıq vardır. Əsərin son hissələrində Ural Batır insanlara içməli su vermək üçün mübarizə aparır. Xızırın həm də su ilə - İlyasla əlaqəsi mifoloji inamı Öləngla Ural Batırın su ilə əlaqəsi ilə səsləşir. Deməli, belə bir mifoloji inam türkdilli xalqlara doğmadır. Bunlar eyni mifoloji anlayışlardır.

Xızır yaşıllıqlarla da sıx bağlıdır. Onu həm də yaşıllığın himayəçisi adlandırırlar və bu inamı ərəb Xıdırı//Xızırı ilə də əlaqələndirirlər. Professor Mirəli Seyidov türk Xızırının bu mifik keyfiyyətini ərəb mifolojisində daha çox yaşıllıq ilahəsi Ölənglə, bir də dağları, yamacları yaşıllaşdıran Ural Batırla əlaqələndirir. Ural Batır "Dirilik bulağı"nın suyu vasitəsilə quru yerləri yaşıllaşdırır və onlara ölməzlik verir. Deməli, Ural Batır həm yaşıllığın himayəçisidir, həm də onları ölməzləşdirir.

Xızırın Ölənglə bağlılığına gəldikdə isə yenə Mirəli Seyidovun araşdırmalarına müraciət etmək lazımdır.

Lakin nəzərə alaq ki, digərlərindən fərqli olaraq Xızır həm də tarixi bir şəxsiyyətdir. Bunu dini və müqəddəs kitablar, ilahiyyatçıların ortaya qoyduğu əsərlər təsdiq edir. Elə Azərbaycan folklorunda bəhs olunan Xızır haqda nümunələr də ona daha çox bir peyğəmbər kimi müraciət olunmasını göstərir. Buna görə də onu mifik bir obraz kimi təhlil etməkdən başqa, həm də onun haqqında aparılan tarixi-dini tədqiqatlara nəzər salmaq yerinə düşər.

## Ərəb mifologiyasında Xızır

Folklorda Xızır bir neçə adla - Xıdır, Xızır, Xızır İlyas, Xıdır Zində, Xıdır Elləz, Xızır Nəbi və digər adlarla tanınır. Bunlardan Xızırı türk, Xıdırı isə ərəb mifologiyasının məhsulu kimi qəbul edənlər üstünlük təşkil edir. Xüsusilə Mirəli Seyidov türk Xızırı ilə ərəb Xıdırını qəti şəkildə bir-birindən fərqləndirir. Onun fikrincə Xıdır tarixi bir qarşılaşmada Azərbaycan folkloruna qədəm basmış bəzən Xızır, bəzən də Xıdır kimi işlənmişdir. O bildirir ki, öncə türklərin Xızırı elə Xızır//Xıdır şəklində də işlənmiş, üz-üzə gələndən sonra isə hər iki variant - ərəb Xıdırı, Azərbaycan Xıdırı və Azərbaycan Xızırı variantında üz-üzə durmuş, biri digərini sıxışdırmaq istəməmiş və nəticədə irəlidə deyildiyi kimi bir-birinə güzəştə getməmişlər.

M.Seyidov Xızır sözünün türkdilli söz olduğunu təsdiqləməyə çalışır və bildirir ki, "xız" ("xıd") və "ır" tərkibindən yaranmışdır. Xız//xuz bir çox türk dillərində çoxmənalıdır. Onun "qızmaq" (156, s.819), "hərarət" (yenə orada, cild II, hissə 2, səh.1724), "atəş", "qız (ğınlıq)", "coş

(ğunluq)" və eləcə də "qüvvət-qut" (azərbaycan dilində işlənən "ürəyində qut olsun" ifadəsində "qutla" müqayisə et) mənası vardır. Ş.Sami də "xız"ın "qut" mənasını verdiyini söyləyir (123, s.1317). Bundan əlavə, müasir azərbaycan dilində "xız"ın "xıs" fonetik variantı da var. Azərbaycan dilindəki "xız", "xıs" istilik anlayışı ilə bağlıdır. Misal üçün, "məni isti basdı" əvəzinə Şamaxı, Göyçay və başqa yerlərdə "məni xıs basdı" deyirlər (85, s.105-106). Eyni zamanda, bir sıra türk xalqları arasında sürətli, cəld sözünün əvəzində "hızlı" sözünün işlənməsi göstərir ki, Xızır sözünün mənalarından biri sürətli də ola bilər. Onun yel qanadlı atı ilə sürətlə hərəkət etməsi, bir göz qırpımında qəhrəmanları mənzil başına çatdırması və digər bu kimi misallar göstərir ki, Xızır adının bu cür mənalandırılması da inandırıcıdır.

Professor həm də ərəb Xıdırı ilə türkdilli Xızırın bütün yönlərinin eyni olmadığını bildirir. Nəticədə məlum olur ki, ərəb Xıdırı daha çox inamlarla, əfsanə və inanclarla bağlıdır. Firuzabadi Xızırdan bəhs edərkən yazır: "Xıdır" Əbül-Əbbas ən-Nəbi Əleyhissalam həzrətləridir. Deyirlər ki, adı Əhməd və yaxud Bilya idi. Gəzdiyi yerlər yaşıllıq olduğundan ona "Xıdır" ləqəbi veriblər. Tədqiqatçıların əksəriyyəti indi də onun diri olduğunu söyləyirlər (105, s.742). Başqa bir mənbəyə nəzər salaq. Hüseyn Ümid yazır: "Deyirlər ki, Xıdır Həzrəti Musanın müsahiblərindən birinin adıdır. Abi-həyat içərək həmişəlik ömürə malik olub. Bəzən də itənlərə yol göstərir, onlara kömək edir". Qeyd edək ki, H.Ümidin yazdıqları Qurani-Kərimin 18-ci – "Əl-Kəhf (Mağara)" surəsinin 65-ci ayəsində də göstərilir.

Əlbəttə, Xızıra mifik bir obraz kimi baxılarsa, həqiqətən də Azərbaycan və ərəb Xızırı arasında müəyyən fərqlər tapmaq olar. Lakin onların oxşar cəhətləri daha çoxdur. Azərbaycanda

da, digər türkdilli xalqlarda da, hətta ərəblərdə də Xızıra bir peyğəmbər kimi baxılarsa, şifahi dilimizdə onunla bağlı nümunələrin yaranmasında nə üçün xalqın ona inam və məhəbbəti olduğu aşkar olur. Indi də xalq arasında belə inamlar gəzməkdədir ki, çətin məqamda Xızır insanların köməyinə çatır. Xüsusilə, Quba-Xaçmız bölgəsində çətinə düşənlər onların gözünə Xızırın göründüyünü, onu dardan qurtardığını söyləyirlər. Eyni zamanda, bir əlin onları xilas etdiklərini deyirlər. Bu əlin Xızıra məxsus olduğunu ondan bilirlər ki, Xızır peyğəmbərin barmaqlarının arasında barmaqları bir-birinə bitişdirən pərdə var. Siyəzən rayonunda rəsmi mənbələrdə Beşbarmaq dağı kimi göstərilən dağ el arasında Xıdır Zində adı ilə tanınır. Günü bu gün də insanlar ora pir kimi baxır, ziyarətə gedirlər. Beş barmağı andıran dağın zirvəsi isə güya Xıdır Zində babanın əlidir. Bu dağ ilə bağlı yaranan əfsanələr də bu fikri bir daha təsdiqləyir.

Xızır peyğəmbərlə bağlı folklar örnəklərinin hər birində xalq bu qeybanə bilik sahibliyi verilmiş peyğəmbərdən kömək umur, ona inanır. Xızıra məhz peyğəmbər kimi müraciət olunması təkcə Azərbaycan folklorundakı Xızıra deyil, digər türkdilli xalqların folklorunda rast gəlinən Xızıra da aiddir.

Eyni zamanda, ərəb Xıdırı dedikdə onu dini obraz kimi digər xalqların folklorunda olan Xızırdan bütövlükdə ayırmaq olmaz. Ola bilər ki, ərəblərdə, ərəb folklorunda onun funksiyaları bir qədər məhduddur. M.Seyidovun yazdığına görə ərəblərdə Xıdır yaşıllıq, dirilik suyu, itmişlərə yardımcı kimi üç mifoloji səciyyəsi olan obrazdır. Ərəb dilində "Xıdır" və bu sözün iştirakı ilə yaranan sözlər yaşıllığı və onunla bağlı sözləri bildirir. Məsələn:

Əl xüzür – yaşıl rəng
Əl Xüzrət – yaşıllıq
Əlxəzir – təzə ot
Xuzarət – yaşıl
Xüzari – yaşıl rəngli quş (85, s.127).

Bəlkə elə bunun nəticəsidir ki, bəzən Xızır yaşıl don geyinmiş kimi təsvir edilir. Bəziləri dara düşəndə onun gözünə ağ, yaxud boz at üstündə yaşıl don geyinmiş bir şəxs göründüyünü söyləyir. Lakin bizim folklorda onun funksiyaları daha çoxdur. Xüsusən variantlarından biri olan İlyasın Xızırın yanına qoşulması onun funksiyalarının xüsusilə su ilə bağlılığını artırır. Bir məsələni də diqqətdən qaçırmayaq. Qurandan əvvəlki səmavi kitablarda biz Xızır adına rast gəlmirik. Ancaq onun keyfiyyətlərini özündə cəmləşdirən, qeybə çəkilən İlyas adına rast gəlirik. (Ad əslində "Tövrat"dan gəlmədir. "Tövrat"a görə İlyas peyğəmbər qeybə çəkilmiş və Məsih zühur etməzdən əvvəl təkrar gələcəkdir (68)). Xızır sözünün mənası araşdırılarkən mənbələrdə bildirilir ki, Xızırın bir adı da İlyasdır (tərcümədə "ilahi qüvvə" mənası verir). Lakin Şərq aləmində onun məcazi adı "dada çatan, xilas edən"dir. İslam hədislərində də göstərilir ki, İlyasın bir adı da Xızırdır.

## Xızır obrazı digər türkdilli xalqların folklorunda

Tədqiqatın əvvəlindən bəri dəfələrlə xatırlatdığımız kimi Xızır obrazı təkcə azərbaycanlıların folklor qəhrəmanı deyil. Əgər belə demək mümkündürsə, türk xalqları folklorunda az və ya çox dərəcədə Xızır obrazına rast gəlinir. Onların əksəriyyətində Xızır çətin anlarda qəhrəmanlara kömək edir. Bir növ sehrli qüvvə rolunu oynayır. Məsələn, bir çox türkdilli xalqlarda eyni adlı dastanlar mövcüddur. Daha doğrusu, elə dastanlar

var ki, onların müxtəlif türk dillərində variantları mövcuddur. Onların bəzilərində Xızırın adı birbaşa çəkilir, bəzilərində isə sadəcə dərviş, nurani kişi və digər adlarla eyni funksiyaları yerinə yetirir. Məsələn, Krım türklərinin “Tahir və Zöhrə” dastanı faciəli sonluqla bitir. Azərbaycan variantı isə xoşbəxt finalla tamamlanır. Həmin dastanın krım-tatar variantlarının birində ağ saqqallı qoca, ikincisində isə dərviş sonsuz padşahla vəzirin hər birinə bir alma verir. Onlar övlad sahibi olurlar. Krım türklərinin “Əsli və Kərəm” dastanında da nurani kişi padşahla vəzirin arvadlarının hərəsinə bir alma verir: “Derviş olarqğa bir alma berip: - Bunı dert bolin, akğailarıngıznen beraber kğoşılışın aşangız, inşalla, muralıngızqıa irişirsingiz, - dep dua əte. Balalar əkisi oqğlan, əkisi de kğız olsa, əki kğardaş kibi olsunlar, amma biri oqğlan biri kğız doqğsa, əkisini bir–birinə əvlendirirsiz, - den kozden qğayıp ola” (133). Buradan aydın görünür ki, nurani dərviş qadınlara alma verməklə kifayətlənmir, həm də onların qarşısına şərt qoyur. Bu dastanda da Azərbaycan məhəbbət dastanlarının bir qismində olduğu kimi sehrli alma motivi ilə sözvermə motivi birləşir.

Türk xalqları folklorunda Xızırın yol azanlara kömək etmək funksiyası da qabarıq şəkildə təsvir olunur. Türkmənlərin “Hurilqa və Həmra” dastanına baxaq. Dastanın Azərbaycan variantının qəhrəmanı, Rəna xanımın dediyi kimi hərəkət edir və çətinlik çəkmədən İrəm bağına girir. Oradan alma ilə qoyun gətirir. Türkmən dastanında isə o, Irəm bağına yetişəndə hər tərəfdən bir gün doğur. Onlardan biri həqiqi günəş, o biri ilğım olur. Hansı səmtə gedəcəyini bilməyən aşiq Xıdır İlyası və Həzrət Əlini köməyə çağırır:

Kadır Alla, müşqil saldın başıma,
Men şu qunun xaysısına qideyin?

Medetkerim Xıdır, yetiş qaşıma!
Men şu qunun xaysısına qideyin?
Aşıq Xemra ajdar: ömrumun salı,
Bir yarın ızında divana - deli,
Sıqınanım sensin, ya Xezret Alı!
Men şu qunun xaysısına qideyin? (129)

Sözün ecazkar gücü ilə ilğım yox olur, Həmra İrəm bağına girə bilir (130).

Xüsusilə məhəbbət dastanlarındakı Xızır/Xıdır Nəbi obrazı sehrli qüvvə kimi təqdim olunur. O aşiqi çıxılmaz vəziyyətdən qurtarır. "Aşıq Qərib" dastanının krım və türkmən variantlarını müqayisəli təhlilə cəlb etsək, görərik ki, variantların hamısında Qəribi vətənə yetirən Xıdırdır. Xıdırın atının ayağının altından götürülən palçıq /Krım-tatar variantında dal ayağının/ Qəribin anasının, türkmən variantında həm də bacısının kor olmuş gözlərini açır. Xıdırın Qəribə eşq badəsi içirtməsi və xüsusilə, buta yuxusu motivi dastanın yalnız Azərbaycan variantında var. Bütün bunlar sübut edir ki, eyni obraz - Xıdır Nəbi obrazı - Azərbaycan məhəbbət dastanlarında özünəməxsus formada işlənmişdir.

Bu sırada Xızırla bağlı mərasim nəğmələrini də diqqətdən kənarda saxlamaq olmaz. Xızır, yaxud Xızır İlyas mərasimləri demək olar ki, bir çox türk xalqları içərisində bu gün də qeyd olunmaqdadır. Bu bayram Xıdırelləz bayramı adı altında Anadolu və Balkan türkləri arasında da tanınır.

Türkiyə araşdırıcıları, xüsusilə, Anadolu və Orta Doğu əski inamları ilə bağlı tədqiqatlar aparan bəzi tədqiqatçılar, etnoqraf və folklorşünaslar Xızır və Xıdırelləzin mənşəyini Mesopotamiya və Anadolu kültür və dinlərilə bağlayırlar. Onu İslamdan əvvəlki Orta Asiya türk inancları kimi qəbul edənlər də var (126, s.137).

Cevahirül-Evrarın XVI əsrdə yaşamış türküstanlı müəllifi Hazini Anadoludan xeyli uzaqda olan Maveraünnehr bölgəsində hər il Xızırla İlyasın görüşməsi şərəfinə bayramlar keçirildiyini: "Ol sebebden Kubbetul – İslam Buhara ve Arisul İslam Semerkand şehrinde vesair viladı Maveraünnehrde şenlik idüb büyük bayram iderler. Milakati şehirleri için avamm ve havass muanakave muzafaha ederler" - deyə xəbər verir (Bax: Cevahirül - Ebrar, s.196). Hazininin yazdıqlarından aydın olur ki, İslam dövründə Orta Asiyada Xıdırelləz bayramı keçirilib. Lakin bu islamlaşmış bir variant idi. Yazar burada ancaq bayramın keçirildiyini deyir. Onun mahiyyətindən, keçirilmə səbəbindən isə bir şey söylənilmir. Ahmed Yaşar Ocağın yazdığına görə Xıdırelləz bayramını Anadoluda, Balkanlarda, qismən də İraq və Suriyadakı türklər keçirir. Xıdırelləz Krım türklərində Hıdırlez adıyla daha çox dini bir bayram kimi keçirilir. May ayının 6-sında, Xızır günü qurban kəsilir. Hər evdə məxsusi yeməklər hazırlanır, öylə namazından sonra yaşıllıq bir yerdə hamılıqla qeyd olunur. Bu yeməklərdən kasıblara, yoxsullara paylanılır. Daha sonra Allaha dua edilir. Çünki bu duaların həmin gün qəbul olduğuna inanılır. Xıdırelləzdən sonrakı cümə günü (Buna Xıdırellez Cüməsi deyilir.) qohum-əqrəbaya baş çəkirlər. Bu adət ərəbcə, teferrüc - gəzintiyə çıxma kimi təqdim olunur və Tepreş deyilir. Bu gün Xıdırelləzlə əlaqəli sayılır (128, s.41-42).

Makedoniyada yaşayan türklərin Edirlez bayramında da eyni işlər icra olunur. Yaşıllıq bir yerə toplaşıb, yeyib-içib əylənirlər. Mantıfar yaxud Martıfal deyilən qismət falına baxırlar. Qeyd edək ki, ayin Anadoluda da keçirilir (98, s.557-559).

Yuqoslaviyanın Kosova vilayətində də Hıdırellez bayramı qeyd olunur. Neymətulla Hafizin bu vilayətdə apardığı araşdırmaya görə Hidirlez, Hıdırlez və Hadirlez kimi müxtəlif

adlarla tanınan bu bayram həm şəhərlərdə, həm də kəndlərdə təmtəraqla keçirilir. Onlar səhər tezdən kəndin və ya şəhərin kənarındakı yaşıllıq çəmənlik yerlərə toplaşırlar. Bura xüsusi ilə göl kənarı, türbə yaxınlığı olmalıdır. Həmin türbədə qurbanlar kəsir, axşama qədər yeyib içirlər. Axşam tərəfi hərə evinə gedəndə bir yaşıl budaq qoparır, göldən güyümlə su götürüb evlərinə aparırlar. Həmin yaşıl budaqları suda qaynadaraq evdəki uşaqları onunla çimizdirirlər. Sonra yenə yeyib içirlər və Martıfal adı ilə məşhur olan fala baxma mərasimi keçirilir (117, s.237-242; 96, s.144). Qeyd edək ki, Kosovada Hıdırellez mərasimləri may ayının 5-dən başlayaraq keçirilir.

Xızır peyğəmbərlə bağlı istər dini şəxsiyyət, istərsə də bir folklor obrazı kimi geniş tədqiqat aparan Ahmed Yaşar Ocaq Türkiyədə Hıdırellez bayramının keçirilməsini 3 mərhələyə bölür:

***1. kutlama hazırlıqları:***

Bu ərəfədə bayrama hazırlıq keçirilir. Xüsusən kənd və qəsəbələrdə qalmaqda olan bu mərasimlərdə hər kəs evini, həyətini, bağçasını təmizləyir. Belə deyirlər ki, Hıdırellez günü Xızır peyğəmbər ancaq təmiz olan evləri ziyarət edir. (108, s.15). Bəzi yerlərdə ailə başçıları ailə üzvlərinə yeni paltarlar, ayaqqabılar alır. Və adətən bunlar ağ rəngdə olur. Bu rəngə üstünlük vermək Xızırın bəzən ağ paltar geyindiyinə işarədir (121, s.181). Bəzi yerlərdə isə oruc tutur, qurban kəsir, sədəqə paylayırlar.

***2. kutlama yerləri:***

Anadolunun hər tərəfində Hıdırellez mərasimləri yaşıllıq yerlərdə keçirilir. Adətən yaxınlıqda göl, dərə, su qaynaqları olur. Bu da təbii ki, Xızırın su və yaşıllıq məbudu olması ilə

əlaqələndirilir. Bəzən belə güman edilir ki, Hıdırellez günü Xızır peyğəmbər bu yerlərdə dolaşır.

### *3.kutlama adət və gələnəkləri və bunlara aid inanclar:*

Burada Xızırla bağlı adətlər, xalq inanclarında Xızırın funksiyalarına müvafiq ayinlər, adətlər həyata keçirilir (126, s.145-151).

Bundan başqa, bir çox xalqlarda Xızırla bağlı xeyli inanclar da yaşamaqdadır. Məsələn, Iranda belə bir inam var. Xızırı görmək istəyən qadın 40 gün səhər tezdən hamının yatdığı bir vaxtda evinin qarşısını sulayıb süpürür. 20 gün qapısının önündə iki rükət Hacət namazı qılır. 40-cı gün düz günəş doğarkən bayıra çıxsa, bir çoban və ya ixtiyar cildində Xızırı görər. Həmin şəxs ondan nə istədiyini soruşar. Qadının dediyi arzu az vaxtda yerinə yetər (137, s.363-364). Xızırı görmək üçün buna bənzər bir çox inanclar da yaşamaqdadır.

Henri Masse iranlıların adətlərindən danışarkən Təbrizdə qeyd olunan Xızır Nəbi bayramında həyata keçirilən Xızır Nəbi mərasimlərindən geniş söhbət açır. Onun yazdığına görə, Təbrizdə bu bayramda qohum-əqrəba bir yerə yığılar, böyük ziyafət verərlər. Süfrəyə cürbəcür ləziz yeməklər və şirniyyatlar düzülər. Ancaq həmin mərasimdə süfrəyə içki qoymaq haram sayılır. (Ümumiyyətlə, bütün hallarda Iranda, o cümlədən Cənubi Azərbaycanda süfrəyə içki qoymaq haram sayılır). Bundan əlavə, otaqlardan birinə içinə un dolu qab qoyular, yanına da bir şam. Otaqdan çıxarkən: "Xızır Nəbi, əgər bu adak xoşuna gəldisə, bir işarət ver" - demək lazımdır. Ertəsi gün bu işarətin qoyulub-qoyulmadığı yoxlanılar. Əgər qoyulubsa, bu böyük bir sevinclə qarşılanar (137, s.303).

Qeyd edək ki, Cənubi Azərbaycanda geniş qeyd olunan bu bayram bizdə də, yəni Şimali Azərbaycanda da bəzi

rayonlarda qalmaqdadır. Şəhər yerlərində artıq bu bayram geniş qeyd olunmasa da, xüsusilə Daşkəsən, Gədəbəy, Tovuz, Ağstafa və digər rayonların, şəhərlərin kəndlərində indi də Xızır gecəsi qeyd olunur. Ümumiyyətlə, yuxarıda deyilən inanclar, mərasimlər, Xızırla bağlı digər məsələlər Azərbaycan folklorunda da bu və ya digər şəkildə əks olunmaqdadır. Bu da göstərir ki, Xızıra inam, məhəbbət bütün türk dünyasına nüfuz etmiş və onların xalq yaradıcılığında özünəməxsus yer tutmuşdur. Türk xalqlarının folklorunda Xızırın ümumiləşmiş bir sıra funksiyaları mövçuddur ki, bunları aşağıdaki şəkildə qruplaşdırmaq olar.

- Dara düşənlərə kömək etmək;
- Sonsuzlara övlad vermək;
- Buta vermək;
- Su və yaşıllıq məbudu;
- Novruz mərasimləri ilə bağlılıq.

Eyni zamanda türk xalqlarının əski dünya görüşləri, inam və etiqadları ilə bağlı obrazları, o cümlədən Xızır obrazını nəzərdən keçirəndə bu xalqların dünya duyumundakı oxşarlıq aydın hiss olunur. Bunlar da təsdiq edir ki, türk xalqlarının şifahi söz yaradıcılığının təklikdə deyil, vahid türk dünyası kontekstində araşdırılması daha səmərəli nəticələr verə bilər.

## Azərbaycan şifahi xalq ədəbiyyatında Xızırın regional və tarixi özünəməxsusluğu. Xızırın Novruz mərasimləri ilə bağlılığı

Hər fəslin öz xüsusiyyəti, öz gözəlliyi olsa da xalq həmişə məhz yazın gəlişini gözləmiş, təbiətin oyanışına, həyatın yeniləşməsinə valeh olmuşdur. Professor Qara Namazov Azərbaycan şerində baharın vəsfi məsələlərindən bəhs edərkən təbiətin bu ecazkar möcüzəsinin milyon illər davam etdiyini və insanların da bu möcüzəni dərk etdikcə onu bayram kimi təntənə ilə qarşıladığını yazır. Beləcə dilindən, dinindən asılı olmayaraq əksər xalqlar birinci fəsil olan baharın gəlişini bəşəri və dünyəvi bayram kimi öz milli dəyərlərinə xas olan tərzdə keçirirlər. Onu da xatırladaq ki, eramızdan əvvəlki minilliklərdən başlayaraq bir sıra xalqlar yazın gəlişini özlərinin bir tarixi dönəmi və ya məşhur tarixi şəxsiyyətinin adı ilə bağlayırlar. İlk yazın gəlişi Avesta abidəsində, Hun imperatorlarının saraylarında, göytürk yazılarında (Ərkənəkon dastanında) xatırlanır. Cəmşidin taxta çıxıb tac qoyma mərasimində, Sasanilərin hakimiyyəti dövründə ilk yaz bayramı təntənəli keçirilmişdir (70, s.3).

Orijinal Azərbaycan Xızırı daha çox yazın gəlişi ilə əlaqədardır. Xızırın Novruzla bağlılığı həmişə folklorşünasların diqqət mərkəzində olmuş və tədqiqat obyektinə çevrilmişdir.

Dədə-babadan qaydadır ki, hər il qış yarı olanda Böyük Çilləylə Kiçik Çillə arasında Xıdır bayramı keçirilərdi. Bəzi yerlərdə Xızır Nəbi, bəzi yerlərdə isə Xıdır İlyas adı ilə tanınan bu el bayramı ötən əyyamlarda böyük təmtəraqla qeyd olunardı. Köhnə kişilərin hesabına görə Kiçik Çillənin əvvəlində, indiki vaxtla götürdükdə təqribən fevralın 1-ci ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar, cavanlar bir yerə

toplaşar, dəstələnib Xıdır nəğməsi oxuya-oxuya qapıları döyər, Xıdır adına pay yığardılar. Hər qapıda "Xıdır payı" qoyardılar. Kimi bir badyan süd, kimi bir torba un... Həmin payları gecə bir yerə yığıb saxlayardılar. Səhər onlardan böyük kömbələr düzəldərdilər və əlavə olaraq bir də qovut bişirərdilər. O gecənin adı "Xıdır gecəsi"dir. Deyilənə görə çox mübarək gecədir.

Başqa mənbələrdə isə həmin gecənin İkinci Çillənin qurtarmasına 2-5 gün qalmış keçirildiyi bildirilir. Və həmin bu mərasim "Xıdır Nəbi" bayramı adlandırılır.

Kiçik Çillənin çıxması münasibətilə keçirilən Xıdır Nəbi bayramı həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır. Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsuz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

Xıdır Nəbi, Xıdır İlyas
Bitdi çiçək, oldu yaz!

Bayramın üçüncü günü cütçü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidən, odla yanaşı günəş və su, adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şeirlər qoşulardı. Bayramın hər üç günündə cavanlar hava işıqlanmazdan əvvəl əllərində şam əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdi. Onlara "Xıdırçı" deyərmişlər.

Həmin mərasim dövründə gərək hər ev, hər ailə bu mərasimə hazırlaşsın, mərasim təntənə ilə keçsin. Mərasimi hamının icra edə bilməsi üçün əliaşağı olanlara, kasıblara kömək edərmişlər ki, bayram axşamı bir ev belə azuqənin yoxluğundan əziyyət çəkməsin və hər evdə süfrə açılsın. Əgər belə olmazsa Xızır bunu özünə sayğısızlıq sayar və küsüb gedər, baharın gəlişi uzanar:

Xızıra Xıdır deyərlər
Yoluna çıraq qoyarlar
Xıdırı saymayanın
Gözlərini oyarlar (3, s.101)

Xıdır Nəbi bayramı zamanı müxtəlif nəğmələr oxunardı. Indiyədək toplanmış Xıdır nəğmələrini belə ümumiləşdirmək olar:

**Xan Xıdır atdı gəldi**

Xan Xıdır atdı gəldi,
Palçığa batdı gəldi,
Xan Xıdırım addıdı,
Xan Xıdırım oddudu,
Sünbülü daddıdı.
Murada çatdı gəldi,
Xan Xıdır atdı gəldi.

Paylarımı paylıyın
Sürünü haylayın,
Saymayın, taylayın.
Palçığa batdı gəldi,
Xan Xıdır atdı gəldi.

Çiynində yel güldü,
Əlində sel güldü,
Başında tel güldü.
Dar günü atdı gəldi,
Ağ ata yatdı gəldi.

Xıdırım yoldadı,
Əlləri baldadı,
Ağ atı çuldadı.
Palçığa batdı gəldi,
Xan Xıdır atdı gəldi.

Day verin Xıdıra,
Pay verin Xıdıra,
Hay verin Xıdıra.
Süfrəsi daddı gəldi,
Xan Xıdır atdı gəldi.

**Xan Xıdır gələsidir.**

Xıdırım şuma düşüb,
Gümanım şama düşüb.
Şum yerin şumlayaq,
Şam yerin şamlayaq.
Xıdırım addıdı.
Xıdırım oddudu.
Ağ atı haylayaq,
Günləri saylayaq.

Xan Xıdır gələsidir,
Xan Xıdır gülərsidir.

Xan Xıdır hallıdı,
Ağ atı nallıdı,
Yaxası çulludu.

Yol üstə yolludu,
Xıdırım addıdı,
Xıdırım oddudu.
Ağ atı haylayaq,
Günləri saylayaq.
Xan Xıdır gələsidir,
Xan Xıdır güləsidir.

Xan Xıdır hallıdı,
Ağ atı nallıdı,
Yaxası çulludu.

Yol üstə yolludu,
Xıdırım addıdı,
Süfrəsi daddıdı,
Sünbulu daddıdı.
Ağ atı haylayaq,
Günləri saylayaq,
Xan Xıdır gələsidir,
Xan Xıdır güləsidir.

Ağ çuxa tikmişəm Xıdıra,
Quba tut əkmişəm Xıdıra.
Xıdıra ağ papaq almışam,
Xıdıra dağ papaq almışam.
Ağ ata ağ çalğı toxumuşam,
Ağ ata çox nəğmə oxumuşam.

Ağ ata ağ nəlçə verərəm,
Xızıra ağ alça verərəm.

Şamları ver şamlayaq,
Dağlarda axşamlayaq.
Xan Xıdır gələsidi,
Xan Xıdır güləsidi.

(53, s.17-19)

Xıdır, Xıdır xıd gətir,
Var dərədən od gətir,
Mən Xıdırın nəyiyəm,
Bircə belə dayıyam,
Ayağının nalıyam,
Başının torbasıyam.

Xıdıra Xıdır deyərlər,
Xıdıra çıraq qoyarlar.
Xıdıra pay yığmağa,
Biz gəlmişik hayıynan.
Xıdır batdı palçığa
Çıxartdılar hayıynan.

Xıdır getdi hayıynan,
Bir qulunça dayınan.
Dayı palçığa batdı,
Xıdır yanında yatdı.
Xıdır, Xıdır, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz.

Xanım ayağa dursana,
Yük dibinə varsana,
Boşqabı doldursana,
Xıdırı yola salsana.

Çatma, çatma, çatmaya,
Çatma yerə batmaya,
Xıdır payın kəsənin
Ayağı yerə çatmaya,
Gecə evində yatmaya.

Məlumat üçün deyək ki, "Xıdır Nəbi" mərasimi A.Nəbiyev tərəfindən 1983-ci ildə Dərbənddə S.Seyfəliyevdən yazıya alınmışdır. Mərasimin nəğmə mətnləri müəllifin "Novruz" və "Novruz bayramı" kitablarında çap edilmişdir (Toplayıcının şəxsi arxivi. Qovluq 5/2, əlyazma №21).

Bayram vaxtı gəlinlərə də Xıdır xonçası aparmaq adətdəndir. Həmçinin bu bayramda uşaqlar da yaddan çıxarılmır, onları sevindirmək üçün bayram payı ayrılır. Bayramda uşaqlar bir torba götürüb qapı-qapı gəzər, Xızır payı yığarlar. Naxçıvanda indi də bu adət qalmaqdadır. Belə ki, nişanlı qızlara Novruz bayramı qabağı oğlan evi nübarlıq mer-meyvə, şirniyyat aparar. Buna "Xıdır payı" deyərlər.

Xıdır gecəsi axşam qızlar çoxlu kökə yeyib su içməzlər. Gecə yuxuda hansı küçədən, hansı həyətdən su içsələr, demək qismətləri ordadır (126, s.142). Başqa bir deyimə görə duzlu kökə yeyəndən sonra gecə yuxuda onlara bir oğlan su verər. Deməli, o qızın qisməti həmin oğlandır.

Əvvəlki bölmədə də qeyd olunduğu kimi bu bayram demək olar ki, bütün türk xalqlarında keçirilir. Daha çox Xıdırelləz, Hıdırellez adı ilə tanınan bu bayram böyük çoxluqla Anadolu və Balkan türkləri arasında qeyd edilməkdədir.

Qədimdən Ruzi-Hızır (Xızır günü), yəni Xıdırelləz xalq arasındakı inama görə Xızırla İlyasın bir araya gəlməsi xatirinə keçirilir. Bu bayram yeni təqvimə görə hər il 6 mayda qeyd olunur. Julyen təqviminə görə isə 23 aprelə düşür. Türkiyədə qədim təqviminə görə il ikiyə bölünüb, 23 Nisandan (6 Mayıs) 28 Ekimə (8 Kazım) qədər davam edən 186-cı gün Hızır günləri adıyla yaz mövsümü, bu tarixdən təkrar 23 Nisana (6 Mayıs) qədər davam edən 179-cu gün də Kasım günləri adıyla qış mövsümü meydana gətirir (126, s.136). Başqa bir fikrə görə Xızır Nəbi bayramı iranlıların Novruzundan beş həftə əvvəl, yəni Şubat (fevral) ayının ortalarına təsadüf edir. Bunun qədim on iki heyvanlı Türk Təqvimindəki ilbaşı ilə eyni olduğu, dolayısı ilə bu bayramın əslində qədim türklərin yeni il bayramı olduğunu göstərən mənbələr var (95, s.433).

Bu bayram bəzi mənbələrdə, daha dəqiq desək, onun dini bayram olduğunu guman edən mənbələrdə həftənin Bazar ertəsi, Çərşənbə axşamı, Çərşənbə günlərində tutulan 3 günlük orucdan sonra Çərşənbədən Cümə axşamına keçən gecə başlayar və ertəsi günədək davam edərlər. Anadoluda isə qış aylarında üç gün çillə çıxarmaqla Nəbi bayramının gəldiyi xəbər verilir. Orucların məhz Bazar ertəsi, Çərşənbə axşamı, Çərşənbə günləri tutulmasının vacibliyi və bayramın Çərşənbədən Cümə axşamına keçdiyi gün keçirilməsi üzündən bu bayramın hər il eyni gündə qeyd olunması mümkün olmur. Hər il ayrı-ayrı günlərə düşür. Lakin fevral ayında keçirilir.

Xızır Nəbi bayramı böyük hazırlıqlarla başlayır. Xızır adına tutulan 3 günlük orucdan sonra hamı tərtəmiz yuyunub yeni paltarlar geyinməlidir. Xüsusilə həmin gün ağ paltara üstünlük verilməlidir. Bunun, Xızır Nəbi bayramının ya qış ayına təsadüf etdiyi üçün qarın rəmzi olaraq belə götürüldüyü və ya Xızırın ağ paltarda olmasına işarə edildiyini güman edən

mənbələr var (126, s.155). Lakin burada ikinci fikir, yəni onun ağ libasda olmasına görə ağ paltarlara üstünlük verilməsi fikri həqiqətə daha yaxındır. Çünki Xızırın qışla, qarla heç bir əlaqəsi yoxdur. Əksinə, həm türkcə sözün hərfi mənasına, həm də Xızırın öz xüsusiyyətlərinə əsaslanaraq onun istilik, od, yaşıllıq gətirməsi haqqında fikirlər daha realdır.

Türkiyə sərhədlərində Xıdırelləzlə bağlı inanc və adətlərin içərisində önəmli bir qismini Xıdırın insanları şəfa və sağlığa qovuşdurması tutur. Bir çox yerlərdə bununla bağlı tipik və diqqətçəkici inanclara, adətlərə rast gəlinir. Bunların təməli də Xızırın şəfa və sağlığa qovuşdurma vəsfinə dair görüşlərə dayanır.

Bu mövzuda ən çox yayılan adətlərdən biri də odur ki, Xıdırelləz bayramında quzu əti, yaxud quzu ətindən bişmiş yeməklər yeyərlər. Çünki Xıdırelləz günü bütün bitkilərin, ağacların yenidən həyata qovuşduğu gündür. Başqa sözlə, həmin gün Xızırın gəzdiyi, ayaq basdığı yerlərdə otlayan quzuların ətinin insanlara şəfa, sağlıq, canlılıq bəxş etdiyinə inanılır. Buna görə də Trabzon, Yozgat, Balıkəsir, Ərzurum, Diyarbəkri və bir çox başqa yerlərdə bayram günü mütləq bir quzu alaraq ailə üzvləri, qohumlar, dostlarla birgə bayram süfrəsi açılar. Bu adət qədim adətlərdən biri kimi hələ də adıçəkilən yerlərdə yerinə yetirilməkdədir. Kamal Güngör bu adəti Orta Asiya türkləri ilə bağlayır, bunu Göytürklərdə Göy Tanrıya oğlaq və ya quzu qurban kəsmə, yaxud Hiungnularda (Hun imperatorluğunda) bahar mərasimlərindəki quzu qurbanı adəti ilə əlaqələndirir (126, s.147).

Bundan başqa, digər bəzi adətlər də həyata keçirilir. Məsələn, Berqama, Balıkəsir, Təkirdağı kimi bölgələrdə Xıdırelləz günü çəmənlərdən toplanan çiçəkləri bir qabda qaynadaraq onların suyunu içmək bütün xəstəliklərə şəfa hesab

olunar. Bu sudan 40 gün günəş çıxmazdan əvvəl gözə sürtməyin gənclik, gözəllik və uzunömürlülük verəcəyinə inanılır (121, s.181). Yenə də çəməndən yığılan yeyilə bilən otlarla bişirilən xörəklərin hər dərdə şəfa olduğu, Xıdırelləz gecəsi bütün sulara nur yayıldığı üçün o gecə suya girənlərin hər cür xəstəliyə qarşı güc yarandığı qəbul olunur (118, s.52).

Balıkəsir, Bursa, Berqama tərəflərdə ilin bərəkət və bolluq içində keçib keçməyəcəyini öyrənmək üçün belə bir mərasim keçirilər. Xıdırelləz gününün sabahı otların üzərindəki şehləri bir qaba yığıb üzərinə heç bir başqa su əlavə edilmədən, nə də maya vurulmadan xəmir yoğrulur. Bu xəmir iki hissəyə bölünərək ayrı-ayrı qablara qoyulur. Sonra həmin qabları bir kənara qoyurlar və ya bir ağacın budağından asırlar. Bunlardan biri “Var xəmiri”, digəri isə “Yox xəmiri” adlandırılır. Uzun bir müddətdən sonra həmin qablar açılıb xəmirlərə baxılır. Əgər “Var xəmiri” mayalanıb qabarmışdırsa, deməli, həmin il bolluq, məhsuldar bir il olacaq. İstənilən hər bir arzu yerinə yetəcək. Lakin bunun müqabilində həmin evdən istənilən heç bir şeyə də “yox” cavabı verilməməlidir. Belə olarsa həmin evin mal-mülkü, pulu, dövləti artar. Əgər istənilən şeyə “yox” deyilərsə, səfalət və aclığa sürüklənərlər. Lakin “Yox xəmiri” qabarıbsa, onda əksinə, istənilən şeyə “yox” cavabı verilmə-lidir. Bu təqdirdə sıxıntı çəkməzlər (121, s.182).

İzmir tərəflərdə isə Xızırın bərəkət gətirəcəyinə əmin olmaq üçün Xıdırelləz gecəsi plov bişirərlər. Onu bir qaba qoyub heç istifadə olunmamış bir taxta qaşıq qoyarlar. Həmin qaşığı tərs çevirib plovun üstünə qoyar, sonra isə həmin qabı otaqlardan birinin bir küncünə yerləşdirərlər. Həmin gecə ota-ğın qapısını örtüb o otağa kimsəni buraxmazlar. Səhəri ev sahi-bi otağa girəndə qaşığı çevrilmiş, plovu isə azalmış görərsə,

deməli, həmin evə “Xızır uğramış” deyərlər. O gündən bir il boyunca həmin evdə yoxluq çəkilməz.

Bu mərasim Azərbaycanda Xızırın adına qovut və ya buğda qoyulması ilə eynilik təşkil edir. Xızıra buğda, yaxud qovut payı qoyulması ilə həmin ilin necə keçəcəyini öyrənmək Azərbaycanda da müxtəlif bölgələrdə yerinə yetirilir. Sadəcə bir fərq ondadır ki, Türkiyə türkləri ilə Azərbaycan türkləri arasında bu bayramın keçirilməsi vaxtında fərqlər var. Belə ki, Ərzurum, Balıkəsir, Berqama, Diyarbəkir və digər bölgələrdə keçirilən bayramlara və yuxarıda qeyd etdiklərimizə əsaslanaraq deyə bilərik ki, Türkiyədə bu bayram may ayında keçirilirsə, bizdə həmin bayramın qeyd olunmasına Kiçik Cillə ilə Böyük Çillənin arasında, daha dəqiq deyilsə, fevral ayının ilk ongünlüyünə təsadüf olunur.

Güman ki, bu bayramların keçirilməsində müxtəlif səbəblər nəzərdə tutulub. Belə ki, Türkiyə və digər yerlərdə may ayında keçirilən Xıdırelləz bayramı Xızır peyğəmbərin doğum gününün qeyd olunmasıdır. Azərbaycanda indi də hər il may ayının 6-sında Siyəzən, Dəvəçi rayonlarında Xızır peyğəmbərin doğum günü qeyd olunur. Nuh peyğəmbərin beşinci nəslindən olduğu güman edilən Xızır peyğəmbərin 2013-cü ildə 5481 yaşı tamam olur (Məşədi Məhərrəm Məhərrəmov (1950), Siyəzən rayonu, Xıdır Zində ziyarətgahının mücörüsü).

Bu bayramın keçirilməsi ilə bağlı digər fikirlər də söylənilir. Ahmed Yaşar Ocağın qeyd etdiyinə görə Hıdırellez mərasimləri sünni və qeyri-sünni bütün türklər arasında geniş şəkildə yayılan bir xalq bayramıdır. Məsələn, Ədirnə Bektaşiləri, Şimali və Cənubi Anadolu Taxtaçıları, Çepnilər, Orta Anadolu Qızılbaşları və digər bütün Bektaş və Qızılbaş türk zümrələri Xıdırelləz bayramını xırda dəyişikliklər istisna olunmaqda təxminən eyni cür qeyd edirlər. Onlara görə

Xıdırelləz günü Xızırla İlyasın görüşdüyü gündür. Bu gün möminlər bir yerə toplaşıb bu bayramı böyük şan-şöhrətlə qeyd etməlidirlər. Həmin gün ölülər ziyarət edilir, ehsanlar verilir, rakı içilir (126, s.25). Müəllifin yazdığına görə Qızılbaş zümrələrinin Xıdırelləzdən başqa onun qədər tanınmamasına rəğmən əsil önəmli bir dini bayramları da vardır. Buna Nəbi bayramı və ya Xızır Nəbi bayramı deyilir. Onun fikrincə bu bayram Xıdırelləzlə qarışdırılır. Lakin bunların hər biri ayrıca bayramlardır (126, s.154).

Bu bayram Azərbaycanda Xızır Nəbi bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq (Hz. Ali) şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır (153, s.60-61).

Onların içərisində Xızır Nəbi bayramının dini bayram olması daha az ehtimal olunan variantdır. Ola bilər ki, xüsusi bir dönəmdə bu mərasim və adətlər dəyişikliklərə uğrayaraq dini məcraya salınmışdır. Lakin araşdırma apararkən məlum olur ki, bu bayram və Xızırla bağlı inanclar, adətlər mərasimlər hələ İslamdan əvvəl mövsud olmuşdur. O ki qaldı Xızır Nəbi bayramının keçirilməsi tarixinə, yuxarıda da qeyd etdiyimiz kimi, güman ki, onlardan biri peyğəmbərin doğum gününə, digəri isə Xızır peyğəmbərin adının yeni ilin gəlişi, baharı, yeni həyatı özü ilə gətirməsinə inancdan doğur.

Lap qədim vaxtlara göz gəzdirəndə Mesopotamiya, Anadolu, İran, Yunanıstan və hətta bütün Doğu Ağdəniz ətrafı məmləkətlərdə bəzi tanrıların şərəfinə bahar, yaxud yazın gəlişi ilə əlaqədar bir sıra ayin və mərasimlər müşahidə olunur. Bu ayinlərin miladdan öncə III minilliyin sonlarında Mesopotamiyanın Ur şəhərində yerinə yetirildiyini xəbər verən mənbələr hələ də mövcuddur. Qış mövsümünün sonunda yerinə yetirilən, Fərat və Dəcləni canlandırma gücünü təmsil edən Tammuz

ilahi adıyla tanınır. Adonis kultunun Anadoluya girişindən əvvəl də burada Mesopotamiyadakına bənzər bahar ayinləri keçirildiyi tarixi qaynaqlarda göstərilir. Bu, bitki və yaşıllıq tanrısı olan Telipinu üçün icra olunan Purulli bahar ayinidir. Yakutlarda da çox əski tarixlərdən bəri Göy Tanrının adına bahar ayinləri icra olunurdu. Bu mərasim zamanı yazın əvvəlində yaşıllıq hər tərəfi bürüyəndə hamı çəmənlik və ya yaşıllıq yerə gedər, at və ya öküz qurban kəsərdilər. Sonra da halay vurub kımız içər, ortada qalanmış odun üstündən atlayardılar. Yakutlar bu mərasimi hər ilin aprel ayında keçirərdilər (136, s.377). Əski Çin qaynaqlarında göstərildiyinə görə sonra moğollar, kalmıklar və buryatların da belə bayramları keçirilmişdir. Şübhəsiz ki, bunlar yüz illər boyunca sürən adətlərdəndir. Qaynaqlarda göstərildiyinə görə bu mərasimlərin lap qədimlərdən qeyd olunmasının səbəbidir ki, türklər Zərdüştlük və buna bənzər dinləri qəbul edərkən artıq xalq həmin ayin və mərasimlərdən xəbərdar idi.

Professor Qara Namazov hətta bahar fəslinin adının belə İlyas-İlyaz adıyla bağlı olduğunu yazır: "İnsanın anlayışı durulanda ili dörd fəslə böldü: - İlk yaz (İlyaz), yaz (yay), payız və qış" (69, s.10).

O eyni zamanda qeyd edir ki, Juvaini uyğurların mənşəyinin Orxan nəhri sahillərində olduğunu, onların "İlkyaz" adlı bayram keçirdiklərini yazır. Marko Polo da uyğur türklərinin miflərində onların ağac koğuşundan "İlkyaz"da doğulduqlarını, "nəsillərinin göy tanrı tərəfindən verildiyini söyləyir. Qaynaqlara görə bu bayram Midiya ölkəsində, İkiçayarası səltənətlərində miladdan öncəki minilliklərdə çeşid-li mərasimlərlə keçirilmişdir.

Babilistanlılar gecə ilə gündüzün bərabərləşdiyi məqamı xeyirxahlıq tanrısı İlyasın (Mardukun) görünüşü ilə əlaqə-

ləndirir və yeni ilin daha uğurlu olacağına və insanların daha xoşbəxt yaşayacağına inanırdılar (69, s.10).

Yuxarıda misal çəkdiyimiz bu mərasimlər indiki Novruz bayramı mərasimləri ilə demək olar ki, eynilik təşkil edir. Bu da təsdiq edir ki, yazın gəlişini bayram etmək, başqa sözlə, Novruz, digər adla olsa da, hələ lap qədimlərdən mövcud idi. Lakin sonradan bu ənənələr müxtəlif adlarla tanınmağa başlayıb. Əski türk xalqlarında isə bu bayramın bir çox atributları məhz Xızırın adı ilə bağlanıb.

Xızır Nəbi bayramının nə vaxtdan bəri keçirildiyi tam məlum olmasa da, onun türk xalqları arasında geniş yayıldığına şübhə yoxdur. Xızır Nəbi bayramı yuxarıda dediyimiz kimi Novruz bayramından əvvəl keçirilir. Əslində isə bütün Novruz bayramı ərəfəsi çərşənbələrlə birlikdə Xızır peyğəmbərin adı ilə bağlıdır.

Burda bir məsələləni də qeyd edək ki, bizim ənənəvi olaraq Novruz öncəsi qeyd etdiyimiz ilaxır çərşənbələr 4 deyil 7 çərşənbə olaraq keçirildiyini yazan mənbələr də var. Belə ki, Böyük Çillənin Kiçik Çilləylə əvəz olunduğu qış fəsli - "zimistanın" sərt çovğunlu günlərindən birindən (yeni təqvimlə 30 yanvar) başlayaraq "xəmsin" deyilən Novruza qədərki 50 gün ərzində hər çərşənbə axşamı asiman açılır və onun ən uca IX qatı – "ərşi-əla"dan ayrılan ılıq bir nəfəs, yaxud duman, tüstüyə bənzər xəfif bir efir, göy və yer üzünə süzülməyə başlayır. Bu "saf ilahi hərarət seli" yer üzünü bürüdükcə havalar get-gedə mülayimləşir və ətraf mühitdə bir ılıqlıq hiss olunur. Əski yazılarda adətən bu "hərarət seli" "çəmrə"(qızmar kömür parçaları, qor) adlandırılır. Xalq içərisində onun "xıs", "üskü", "buğ" anlamları da işlənməkdədir (37, s.5).

Beləliklə, ta əvvəllərdən Kicik Çillənin 3 çərşənbəsi Oğru çərşənbə, Boz ayın 4 çərşənbəsi isə Doğru çərşənbə

olaraq qeyd edilmişdir. Əzəl çərşənbə, Yalan çərşənbə, Xəbər çərşənbəsi adlanan Oğru çərşənbələrdə təbiətin hələ qış yuxusundan ayılmadığı, torpağı, təbiəti, insanları isitmək gücünə malik olmadığı üçün ata-babalar bu çərşənbələrə o qədər də güvənməmiş və buna görə də bu çərşənbələri oğru və ya yalan çərşənbə adlandırmışdır. Lakin havanın isinməsini, təbiətin oyanmasını böyük səbirsizliklə gözləyən xalq əzəl çərşənbədən başlayaraq müxtəlif mərasimlər və ayinlər icra etməyə başlamışlar. Əzəl çərşənbə vaxtı artıq qarşıdakı 7 çərşənbə və bayrama hazırlıqlar başlayır (Xıdırelləz günlərinin ilk başlandığı gün də məhz əzəl çərşənbəyə təsadüf edir). Həmin gün "Çillə hədiyi" bişirilər və süfrəyə yaydan məhz bu vaxt üçün saxlanılan qarpız da qoyarlar. "Çillə qarpızı" insanların soyuqdan qorxmadığına işarədir – artıq Xıdır onlara istini, hərarəti gətirəcək, onlar daha soyuqdan, qışdan qorxmurlar (37,s.9; 3, s.102).

Elə Xızırın "gəlişini gözləmək", Xızırı "çağırmaq" kimi mərasim və nəğmələr də həmin vaxtdan həyata keçirilmişdir. Xıdır Nəbi bayramı məhz ikinci, yalan çərşənbə dövrünə düşür ki, həmin mərasimlər haqqında biz əvvəldə məlumat vermişik.

Kişik Çillənin sona yetməsi və Boz ayın – 4 doğru çərşənbəsinin qarşılanması münasibətilə qeyd olunan sonuncu oğru çərşənbəsi - Xəbər çərşənbədə (buna bəzən Xəbərçi çərşənbə, Xeyirxəbər çərşənbə, Müştuluq çərşənbə, Müştuluqçü çərşənbə, Bəşir çərşənbə, Bişir çərşənbə, Nəbi çərşənbə deyilir.) insanlar artıq Kiçik Çillənin sona yetdiyini, zimistanın "sürgün" olduğunu bildirərək muştuluq alar, balqabaqplov bişirər, "Çilləqovan" deyilən tonqal yandırardılar. Və beləliklə, doğru çərşənbələri qarşılamağa hazırlıq işləri başlayardı (37, s.16).

Əsrlərdir ki, xalq arasında ilk çərşənbə su çərşənbəsi kimi qeyd olunur. Azərbaycan folklorunda suya tapınma ən əski türk inamları ilə bağlıdır. Məsələn, şamanı-qamın çayın qırağına gedib üzü üstə yerə yıxılması, ağzından köpük gəlməsi, ayılandan sonra şaman olub, şeir qoşub, qopuz çalması göstərir ki, şamana "şamanlıq" verən sudur. Bu da əski türk xalqlarının suya inamı ilə səsləşir. Eyni zamanda, Azərbaycan nağılı "Simnar"-da da ölgün uşağı suyun dirçəltməsi, qaradağın daşı qaş, kiprik, saç verməsi nümunəsindən aydın olur ki, suya və torpağa xalq arasında böyük inam bəslənmiş və onlar müqəddəs sayılmışdır (21, s.34). Dastanlarda, əfsanə və rəvayətlərdə suyun "dirilik" bəxş etməsi, aşıq, aşiq etməsi, gur səs, güc-qüvvə verməsi və sairə kimi üstünlükləri məhz suya olan inamla bağlıdır. Məsələn, noqayların ənənəvi demoloji təsəvvürlərini əks etdirən bəzi bilgilərə görə, su əyəsinin (suv anasının) adı İlyasdır. Bu da bolluq, bərəkət düşüncəsinin daşıyıcısı Xızır kultunun su ilə bağlılığını göstərir. Xızırın ölümsüz təsəvvür edilən motivlərdən biri də onun əbədiliyi və ölməzliyi rəmzləndirən su ilə bağlı olmasıdır (65, s.152).

Ümumiyyətlə, türk xalqları suyu ilk başlanğıclardan biri saymışlar. Bəlkə elə bunun nəticəsidir ki, Novruz bayramında ilk çərşənbə məhz su çərşənbəsi kimi keçirilir. Diqqət yetirdikdə isə görürük ki, su çərşənbəsində Xızır peyğəmbərlə (Xızır İlyas) bağlı bir sıra inamlar mövcuddur. El arasında belə bir deyim var ki, ilk çərşənbədə Xızır peyğəmbər su üstünə gəlir və ondan sonra sular şırıltı ilə axmağa başlayır (o vaxtadək çaylarda şırıltı olmur). Həmin gecə kim su üstünə gedib niyyət etsə, "Ya Xıdır İlyas, sən məni arzuma çatdır" - desə arzuları yerinə yetər. Həmin gün hamı çaydan su gətirər ki, evində bol ruzi-bərəkət olsun. Hamı hələ gün doğmamış su üstünə gedər, təzə suda əl-üzünü yuyar, su üstündən atlanar və

bir-birinin üstünə su çiləyər. İnama görə “təzə su”, “ilk çərşənbənin sübh tezdən köpüklənən ağ suyu” dərdlərin dərmanıdır. Çox ehtimal ki, Xızırın dirilik çeşməsindən su içdiyi gün də su çərşənbəsinə təsadüf etmişdir.

Türk xalqlarında oda tapınma ayrıca yer tutur. Onu Etil boyu türklər Yerex adlandırmış, ailə və təsərrüfatın himayəçisi saymışlar. İnama görə od-ocaq ruhunun “vit ami” - od anası və “vut asi” - od atası var imiş. Azərbaycanlılarda da bir sıra türk xalqlarında olduğu kimi oda su tökmək günah sayılarmış, odu evin yuxarı başında saxlayarmışlar. Şaman görüşünə görə Od tanrısı od ocağının yiyəsi sayılarmış.

Qədim inamlara görə od insanları, heyvanları, hətta cansız nəsnələri – şeyləri pis, yaman ruhdan təmizləyərmiş. Elə buna görə də bu və ya başqa canlını, nəsnəni pis ruhdan təmizləmək üçün onu oddan keçirərlərmiş. Hətta xaqanlarla görüşmək istəyən yabançı elçiləri, tacirləri və onların hədiyyələrini də iki od arasından keçirərmişlər. Azərbaycanda da iyirminci illərə qədər xəstə qaramalı sağaltmaq üçün onu tüstüyə verirmişlər. Odun yamanı, bəlanı, azar-bezarı qovması inamını xatırladan bir törəni də ötəri də olsa yada salaq. Axır çərşənbə günü tonqal qalayıb üstündən atlayarlar ki, ötən ilin dərd-bəlasından təmizlənsinlər. Odun üstündən atlananda deyərlər:

Ağrım-uğrum tökülsün,
Oda düşüb kül olsun.
Yansın alov saçılsın,
Mənim bəxtim açılsın (18, s.31).

Hətta deyilənə görə, keçmişdə mal-qaranı da bu tonqalın üstündən keçirərmişlər ki, heyvan ötən ilin dərd-bəlasından qurtarsın (88, s.180).

Türk xalqlarında müqəddəs sayılan odla bağlı olan ikinci çərşənbə - od çərşənbəsinin adı da el arasında Xızırın adı ilə eyni mənanı daşıyır. Burada haşiyədən çıxaraq qeyd etmək istərdik ki, atəş üzərindən atlamaqla bağlı adət və inanclar islamdan əvvəlki türk inanclarından qaldığı sübut olunan haldır. Bu adətin eynisi Göytürklərdə də görünməkdədir. Eyni zamanda bu kult şamanizmdə də önəmli bir yer tutur. Bu barədə hətta tarixi məlumatlar da mövcuddur. Lakin burada düşünüləsi məsələ bu inanc və adətlərin Xıdırelləzlə nə dərəcədə bağlı olduğu məsələsidir. Ahmed Yaşar Ocaq "İslam Türk İnanclarında Hızır, yahut Hızır-İlyas kultu" əsərində yazdığına görə o, Xıdırelləz mərasimlərində oddan tullanmağın doğrudan-doğruya Xızırın şəxsiyyəti ilə əlaqəli olmadığını zənn edir. Fikirləşir ki, Xızırla əlaqəsi olmayan tək adət budur: "Xızırın atəşlə ilgisi təsbit edilməmişdir" (126, s.149).

Lakin araşdırıcı bu qədim adın özünün mənasını yaddan çıxarır və ya nəzərdən qaçırır. Belə ki, Xızırı məhz türk mifologiyasınını məhsulu hesab edən Mirəli Seyidov sözün özünün mənasını araşdırarkən bu sözün məhz odla, atəşlə bağlı olduğunu sübuta yetirməyə çalışır. Və eyni zamanda Xızır bayramında xalq ona mahnı qoşarkən ondan isti, od və güc gətirməsini diləyir.

Xızır, Xızır xız gətir
Var dərədən od gətir
Mən Xızırın nəyiyəm
Bircə belə dayıyam
Ayağının nalıyam
Başının torbasıyam

Deməli, Xızır xalqın yaddaşına həyat gücü, həyat eşqi, od, istilik gətirən bir obraz kimi daxil olub. Eyni zamanda

Novruzun odla bağlanmasını da əski türk inancları, şamanlarla bağlamaq olar.

Burada Azərbaycanla və mərasimlərlə bağlı olmayan maraqlı bir fikri də diqqətə çatdırmaq yerinə düşər.

XX əsrin məşhur filosofu, psixoloqu, nəzəriyyəçisi və şərqşünası kimi tanınan Karl Qustav Yunq qədim arxetiplər və simvollar haqqında danışarkən ölməzlik qazanan qədim qəhrəmanlardan söhbət açır. Xüsusilə, mistik obrazlar kimi tədqiqata cəlb olunan bu qəhrəmanların doğumla, həyatın başlanğıcı ilə əlaqələrini, bağlılıqlarını diqqətə çatdırmaq istəyir. Millerin araşdırmalarına toxunan tədqiqatçı, Aqasver haqqında danışarkən göstərir ki, "Assurabama" ilə birlikdə onun ağlına həm də "Ahazuerus" adı da gəlib. Axirətə kimi rahatlıq bilmədən sonu olmayan yolda səyahət edən, başqa sözlə əbədi yolçu olan yəhudi – Aqasver adıyla tanınan qədim əfsanənin tarixi 13-cü əsrdən əvvələ gedə bilmir. Bu əfsanənin motivi şərq mifologiyası ilə bağlılıq və körpü yaradır. Əfsanə haqqında düşünərkən paralel olaraq həmişəcavan Xıdır və ya əl-Xıdır ilə rastlaşırıq.

Xıdırı tam islam mifologiyasının məhsulu hesab edən Yunq onun yalnız müqəddəs deyil, sufilər arasında hətta Allahlıq məqamına yüksəldilən obraz olduğunu diqqətə çatdırır. Əlavə edir ki, islamdakı təkallahlılığı nəzərə alaraq onun islamaqədərki inanclarda yer tutduğunu güman etmək olar. Bunu sübut edə biləcək heç bir mənbəyə rast gəlməsə də, onun haqqında ilk tədqiqatlara Quran şərhçisi Buxari, Təbərinin əsərlərində, xüsusilə, Quranın 18-ci surəsində rast gəlindiyini deyir. "Mağara" adlanan və "Yeddi Yatan"dan bəhs olunan sürənin öz gizli mənaları var. 309 il mağarada gizlənib və yeni erada ayılanlardan bəhs olunarkən maraqlı və əlaqəli müxtəlif fikirlər irəli sürən psixoloq bu əfsanədəki mistik anlayışın

günəşin qaçışı ilə səsləşdiyini qeyd edir: Günəş axşamlar batır, amma ölmür. Xıdır dənizdə və ya yeraltı mağarada gizlənir, səhərlər pak olaraq oyanır. Bu cür astronomik həqiqət aydın simvolika ilə səsləşir: Günəş anasının qoynunda geri qayıdır, bir müddət keçir və yenidən doğulur. Əfsanədəki motivləri mistika, simvolika ilə uzlaşdırmağa çalışan tədqiqatçı bu bənzətməni qan qohumluğu ilə də bağlayır. Bu bağlılıq mifologiyada daha aydın şəkildə qorunub saxlanılmışdır. Bu vəziyyətdə allahların ölümsüzlüyü və ya ölüb yenidən dirilməsində, adıçəkilən müqəddəs, ölümsüz qəhrəmanların doğulmasında ananın sadə insan, atanın isə allahlardan biri olduğu səbəbi diqqətə çatdırılır. Və yaxud da Xristos Allahın vücudu qismində öz-özünə Məryəmdən necə dünyaya gəlibsə, ölməzliyi olan qəhrəmanlar o variantda anadan doğulur. Eyni zamanda Mitra da belə dünyaya gəlib. Onlar tamamilə Günəş-Allah rəmzi daşıyırlar. Ona görə də Günəş də eyni cür hərəkət edir. Öz-özündən doğulur. Burada bir məsələni də yaddan çıxarmaq olmaz ki, ibtidai tilsimli, möcüzəli doğuluş səmada görünür. Bu baxımdan 18-ci surədə haqqında danışılan gənclər oxşar günəş-allahdan mağarada yeni həyata başlayıblar. Və ölümdən doğuma gəliblər. (161, s.195-196 )

Yunq “Libido, onun metamorfozaları və simvolları” adlı əsərində Musa ilə Yuşə İbn-Nunun Xızırı axtararkən balığı 2 dənizin qovuşağında itirdiklərinin səbəbini özünəməxsus şəkildə açır: onlar balığı itirirlər, hansı ki, dirilərək dənizə yol alıb. Bu elə dostların axtardığı yerdir. Balığın dirilib suya atıldığı yer. Başqa sözlə, Xıdırın yaşadığı yer.

Zodiaka görə günəş qış gündönümü vaxtı (Günəşin göy ekvatorunun ən uzaq ekliptika nöqtəsindən keçən vaxtı - bu hadisə ildə 2 dəfə olur (yayda iyunun 22-də, qışda dekabrın 22-də)) yenidən ilin dövriyyəsi - Qoç-Balıq başlayır. Günəş kimi

qoç da dağın zirvəsinə çıxır. Və oradan balıq kimi suya atılır. Beləliklə, suda ilin dövriyyəsi baş verir. Balıq uşaq simvoludur. Və ya deyə bilərik ki, körpə doğulana qədər balıq kimi suda yaşayır. Dənizdə batmaqla günəş eyni zamanda balıq və körpə hesab oluna bilər. Amma balıq həm də qadın simvolu kimi fallik simvola malikdir. Qısa desək, balıqda libido simvolu var. Buna görə də libido əksər hallarda doğum simvoludur (161, s.201).

Musa və onun köməkçisi Yuşə İbn-Nunla insan əsri tərtib edir (80 il). Onlar qocalır və həyat eşqini, libidonu itirir. Əfsanədə möcüzəli şəkildə dənizdə yox olan balıq var. Balığın yox olduğu yerdə isə günəş çıxır. Dostlar hər ikisi itkini (balığı) başa düşür və həmin yerə qayıdırlar. Yəni həyatın başlanğıcına... O yer ki, balıq dirilib və suya qayıtmışdır. O yer ki, həmin yerdə Xıdır oturur. Xıdır dənizin ortasındakı adanın və ya “yerin yaş hissəsində” yaşayır. Başqa mənada o ananın doğum üçün hazırlaşan sulu bətnində oturur. Harda ki, balıq yoxa çıxır, orda Xıdır doğulur. Xıdır yaşıllıq məbudu kimi, Kəbir kimi, Allah müdrikliyinin carçısı kimi, balıq kimi təsvir olunur və hər gün balıq kimi dənizdə olur ki, xalqa müdriklik öyrətsin (161, s.201).

Tədqiqatçı Xıdırı ərəb mifologiyasının məhsulu kimi qəbul etsə də, onu tamam başqa səmtdə araşdırsa da, onun su ilə, eyni zamanda günəşlə, ümumilikdə həyatın başlanğıcı ilə bağlılığını aydın şəkildə izah etməyə çalışır. Azərbaycanda isə xalq bunu hələ ibtidai dövrlərdən sanki dərk etmiş və onu su çərşənbəsi, od çərşənbəsi, ümumilikdə baharın gəlişini, həyatın başlanğıcını xatırladan ünsürlərlə bağlamışdır.

Torpaq da hər zaman müqəddəs sayılmışdır. Ərənlər hətta ot bitməyən, az sulu torpaqlar üçün belə canlarını qoymuş və bir qarış belə geri çəkilməmişlər. Bir örnəyi yad edək: Hun

xaqanı igid, qorxmaz Meteyə Çin xaqanının elçisi xəbər gətirir ki, Çin xaqanı onun ağ atını istəyir. Hun xaqanı böyük sərkərdələrinin və müdriklərinin fikirlərinin əksinə olaraq atı verməyə razılıq verir ki, xalqlar arasında bir ata görə vuruş olmasın (türk xalqlarında xaqanın, böyük sərkərdələrin atı düzümlü sayılırmış. Hətta türk xalqlarının mifologiyasında belə bir mifik əfsanə varmış ki, xaqanın atı göydən gələrmiş) (84, s.195-200). Mete xaqan öz məşhur atını Çin xaqanına göndərir. Bir azdan sonra həmin elçilər yenə gəlir və Çin xaqanının yenə bir tələbini bildirirlər: "Mete ona məşhur 3 gözəl cariyəsini versin". Xaqan qurultay çağırır. Sərkərdələr, xasabəylər Çin xaqanının alçaq təklifini hamı bir nəfər kimi rədd edir və Çin xaqanının müharibəyə çağırışını qəbul edir. Mete xaqan razı olmur ki, üç cariyəyə görə xalqın qanı tökülsün. Xaqanın təklifi ilə qızları Çin elçiləri öz xaqanlarına hədiyyə aparırlar. Ay keçir, gün keçir, deyəsən ağzı bala batmış Çin xaqanı yenə elçiləri yollayır ki, filan otbitməz şoranlıq yeri ona versin, yoxsa vuruşa çıxsın. Adətən, təmkinli, sakit, əmin-amanlığı sevən müdrik, bir az da mülayim xaqan birdən qəzəblənir və sərkərdələrə, xasabəylərə deyir:

- Bu torpağı bizə ulu ata-babalarımız onların nəvə-nəticələrinə miras kimi vermişlər. Mirasa xəyanət olmaz. Onlar torpağı pay vermək üçün bizə verməyiblər. Atımı istədi verdim, cariyələri istədi verdim. Xeyr! Çinli xaqan, mən babalarımızın nəvə-nəticələrinə miras qoyub getdikləri torpağı sənə verə bilmərəm! Savaşımız savaşdır! Atımı gətirin, mənimlə gedən gəlsin.

Xalq silahlandı, elçilər qaçdı. Qısa vaxtda Mete düşmənə qalib gəldi. Bu savaş uduq-müqəddəs savaş, yurd uğrunda savaş idi. Bu tarixi əfsanəni yaradan qam-şaman xalqda yurdu qorumaq kimi böyük hissi alovlandırmışdır (88, s.22).

Torpaq çərşənbəsi də Xızırın adı ilə bağlıdır. Bu həftədə torpaq cana gəlir, hər yer yaşıllığa qərq olur. Mirəli Seyidov "Azərbaycan mifik təfəkkürünün qaynaqları" (86) adlı monoqrafiyasında bildirir ki, Xızır türkdilli xalqların bəzi mifoloji inamlarına yiyələnmiş, həm yaşıllıq, həm də evlənmə ilahəsi olan Öləngin keyfiyyətlərinə sahib durmuşdur. Buna görə də o həm yaşıllığın, həm də gəncliyin hamisi olmuşdur.

Xızırın adlarından biri olan Əl-Hadir kəlməsinin yenə də ərəbcə əl-əhdar (yaşıl, yaşıl budaq və ya yaşıllığı çox olan yer, məsələn, çəmənlik) mənasına gəldiyi görülür. Bəzi əski hədis qaynaqlarında Xızıra nə üçün belə ləqəb verildiyini açıqlayan ibarələr var. Bunların ən diqqət çəkəni, "Ona əl-Hadir deyilmişdir. Çünki quru yer üzərinə oturanda altında otlar yaşıllanıb dalğalanardı" şəklindəki hədis bir çox mənbələrdə qeyd olunmuşdur. Bu və ya buna bənzər rəvayətlər vaxt keçdikcə zənginləşmişdir. Məsələn, Xızır harda namaz qılsa, o dəqiqə həmin yer yaşıllığa qərq olar. Bu cür rəvayətlər və xalq arasındakı bəzi inanc və etiqadlara diqqət yetirərək görürük ki, bir çox şərqşünas və folklor araşdırıcıları Xızırın timsalında insanilәşmiş qədim bir ilk "Çağ bitki" Tanrısını görmək istəmişlər. Məsələn, qədimlərdən F.V.Hasluk və yenilərdən Amerikalı folklor araşdırıcısı Vorren S. Wolker və bir çox türk tədqiqatçıları bu fikirdədirlər. Bunun qarşılığında ilahiyyat qaynaqlarını daha yaxşı tanıyan və məsələni daha geniş, canlı düşünən Henri Korbin kimi elm adamları isə bu görüşə qatılmırlar. Üstəlik İslam mifologiyası və xalq inanclarında Xızırın ən az yaşıllıq və bitki qavramında olduğu qədər, hətta daha çox sularla əlaqəsi olduğu görünür. Ahmed Yaşar Ocağa görə isə Xızırın qədim bir bitki Tanrısının islamiləşmiş şəkli formasında qəbul edilməsi, bahar və yaz bayramlarının daşıdığı

ləqəbdən dolayı zamanla Xızır kultu ilə birləşməsinin səbəb olduğu səhv dəyərləndirmədir.

Wensinsk isə Xızırın həyat qaynağına dalaraq yaşıl bir rəng aldığına dair qədim bir rəvayəti yuxarıda söylənilən hədis və buna bənzər nağıllarda birləşdirərək Haslukunku kimi bir fikrə meyl etsə də, Xızırın oturduğu yerin yaşıllaşması məsələsini müqəddəs kitablara bağlayır. “Kitabı Müqqədəs” kitabında göstərilən belə bir cümlə var: “Budur, adı Filiz olan adam; Və o durduğu yerdən filizlənəcək və Rəbbin məbədini ucaldacaqdır” (Kitabi Muqəaddes.- Zekarya. VI/12).

Hər halda Xızır kəlməsinin islam qaynaqlarında ad olaraq deyil, bir ləqəb olaraq qəbul edildiyi, amma əslində ad yerinə işləndiyi anlaşılır. Demək olar ki, indiyədək ona inananların bir çoxu tərəfindən Xızırın doğru adları olaraq irəli sürülən adlarının bilinmədiyi və ya çox az tanındığı gercəkdir.

“Yaşıl” mənasında işlənən bu ləqəb Xızıra üstün bir mövqe qazandırmışdır. Burada bir şeyi də nəzərdən qaçırmaq olmaz ki, yaşıl rəng həm də islamın rəmzidir. Bununla yanaşı həm Həzrəti Əli sülaləsinin, həm də şiəliyin müqəddəs rəngidir. Deyilənə görə 12-ci imam İmam Mehdi də hələ də inanıldığı kimi Ağ dənizin ortasındakı Yaşıl Adada yaşayır. Şərqşünaslardan bəziləri Xızırın şəxsiyyətinin mənşə və mahiyyəti məsələsinə aid görüşlərinin nəticəsi olaraq Əl-Hadir kəlməsinin də ərəbcə olmadığını düşünürlər. Wensinck kissanın “Bilqamıs” dastanı ilə əlaqəsi məsələsindəki görüşünü tamamlayan bir tərzdə Əl-Hadir, yaxud Əl-Hədr kəlməsinin Bilqamısın atasının adı Hasistra və ya Hasisatranın ərəbcə-ləşmiş variantı olduğu fikrindədir. Friedlaender isə bunu rədd edir, Xızırın adını, İsgəndər əfsanəsi və ona çox bənzəyən Gloukos məsəli ilə əlaqələndirir. Friedlaenderə görə Gloukos da yaşıl deməkdir. Əfsanə ərəbcəyə uyğunlaşdırılarkən bu ad

Əl-Hadir şəklində tərcümə edilmişdir. İslam mənbələrində isə bu məsələni araşdırarkən hər hansı bir ip ucuna rast gəlinmir. Onlar sadəcə yuxarıda söylənilən hədisləri və ya hədis biçimindəki rəvayətləri qeyd etməkdədirlər. Ancaq mənşəyi nə olursa-olsun Əl-Hadir və yaxud Xızır kəlməsinin ərəb dilində olması və mənasının "yaşıl" olduğu dəqiqdir (126, s.60-61).

Qocaların, ağsaqqalların dediyinə görə, Zaqatala yaxınlığında Qımız İlqundu deyilən bir çöl var. Əfsanədə deyilənə görə 2 nəfər barama üçün yarpaq toplamaqdan ötrü bu çölə gedir və orada dər (xar tut) ağacının yarpaqlarını dərib arabaya yığır ki, aparsın. Bir də görürlər ki, araba birdən-birə od tutub yanır. Əlləri hər yerdən üzülən kişilər başlayırlar Allaha yalvarmağa, Xızırı köməyə çağırmağa. Birdən gözlərinə bir kişi görünür. Həmin kişi barmağı ilə onları hədələyir. Və elə o dəqiqə də yanğın dayanır. Və yanan otlar yamyaşıl olur.

Bu nümunədə həm tut ağacının müqəddəsliyinə (Xar tut pir əvəzidir. Deyilənə görə, onu Xızır peyğəmbər ehsanlıq üçün əkib. Onu kəsmək, budamaq olmaz), həm Xızırın dada çatan olmasına işarə olunur. Bəzi mənbələrdə isə əncir ağacı ilə bağlılığı da irəli sürülür: "Təzə körpü salınanda birinci ordan Xızır keçər. Əncirin yarpağı rəngində paltarı olur. Ənciri kəsmək olmaz. Onun yanında Xızır Nəbi gəzir"(69, s.46).

Haqqında danışılan bu əfsanə həm də "Xızırın ayağı dəyən yerdə quru otlar yaşıllaşar, əli dəydiyi quru budaq göyərər" inamına yaxşı nümunədir (Zümrüd Səmədova Ibrahim qızı, 1980, Zaqatala, Qımır kəndi; Seyid Əşrəf Həsənov, 1944, Siyəzən)

Bəzi əfsanə və rəvayətlərdə, eləcə də digər folklor nümunələrində Xızırın yaşıl paltarda təsviri də onun bu xüsusiyyəti ilə əlaqədardır. Həmçinin Xızır Nəbinin torpağın, qurunun sahibi olması fikri də bununla izah olunur.

Bizdə Xızır istiliyin, yazın hərarətini gətirən bir obraz kimi qəbul olunduğundan, onun torpağı, suyu, yaz havasını, odunu gətirən bir qəhrəman olduğunu zənn edərlər. Belə güman edərlər ki, baharı, yazı məhz Xızır gətirəcək, təbiət yenidən oyanacaq. Ona görə də Novruz bayramından əvvəl Xızır Nəbi bayramını keçirməklə onun yenidən həyat eşqi, istilik, bolluq gətirdiyini bayram edirlər.

Yel çərşənbəsi də məhz Xızırın adı ilə bağlıdır. Bir çox mənbələrdə hazırda yel çərşənbəsində yerinə yetirilən ayinlərin əvvəllər Xıdır Nəbi bayramında qeyd olunduğu yazılır. Deyilənə görə Xıdır Nəbi bayramından üç gün əvvəl, üç gün də sonra yel əsir. Ona "Xıdır Nəbi yeli" deyirlər.

Ağsaqqalların, ağbirçəklərin söylədiklərinə görə həmin gecə bir qabda qovut, yanına da bir qab su və güzgü qoyub dua edirlər. Deyilənə görə Xızır peyğəmbər gəlib sudan atına içizdirir, qovutun üstünə də iz qoyub gedirsə, demək arzun yerinə yetər. Səhər durub qurban kəsər və camaata paylayarlar (95, s.142).

Xalq arasında deyilir ki, həmin vaxt Xızır yel qanadlı atı ilə obaya çıxır. Camaat isə meşədən ailə üzvlərinin sayı qədər qələm boyda palıd çubuğu dərib başına pambıq dolayırlar, gecə içərisində buğda olan sinini bir otağa qoyub çubuğu yandırırlar. Səhərə qədər o otağa heç kəs keçməməlidir. Səhər duranda görürlər ki, buğdanın üzərində nal izi var. Deyilənə görə həmin gecə Xıdır Elləs (variantlardan biri) bütün evləri gəzib öz payını götürür (İmamverdiyeva Həqiqət Muxtar qızı, 1942, Daşkəsən rayonu, Qabaqtəpə kəndi) (Şəkil 1). Xıdır gecəsi qovut bişirib onu iki yerə bölərlər. Bayramdan bir gün əvvəl evin kiçik övladını (oğlan uşağı) alma çubuğu dalınca göndərərlər. Gətirilən şövlər üç tərəfdən səliqə ilə pambığa sarınıb yağda qızardılar. Axşam evin böyüyü bir-bir şövləri

götürüb niyyətlərini sadalayar. Hər şöv bir niyyət üçündür. Yurdun salamatlığı, mal-qaranın məhsuldarlığı, bağ-bağçada bolluq, oğul-qız toyu və sairə niyyətlər edilir. Sonra həmin şövlər dəstələnib orta hissədən pambıqla bağlanar və qabdakı unun üstünə sancılar. Burada Xıdır Nəbinin onların üstündə göz olması üçün ayrıca çubuq qoyular.

Gecə düşəndə həmin dəstələnmiş çubuqlar şam kimi yandırılar. Özü yanıb keçənədək ona toxunulmaz. Həm də səhərədək qablardakı una əl vurulmaz. Çünki əvvəlcə Xıdır Nəbi gəlib öz payını götürməlidir (95, s.142).

Deyilənə görə onun yel qanadlı atı o qədər sürətlə gedir ki, əsən onun küləyidir. Həmçinin adətdir ki, yel çərşənbəsində qovut bişirilər (Xızırın nalının izi düşdüyü və öz payını apardığı buğdadan). Qeyd etmək yerinə düşər ki, bu ərəfədə xalq Yel baba ilə bağlı nəğmələr də oxuyarlar:

A Yel baba, Yel baba,
Qurban sənə, gəl baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.

A Yel baba, Yel baba
Qurban sənə, Yel baba (39).

Güman ki, bu nəğmədə Yel baba – deyə müraciət olunsa da, əslində Xızır peyğəmbərə istiqamətləndirilmişdir.

Bütün deyilənlər təsdiqləyir ki, ilaxır çərşənbələrdə torpağın və suyun oyanması, yeni nəfəs gəlməsi xalq arasında Xızırın gəlişi və onun qüvvəsi ilə əlaqədardır.

Axır çərşənbədə Xızırın adı ilə bağlı bir sıra ayinlər və fallar icra olunur. Gecə hündür bir yerə, evin damına bir

yumurta, qara və qırmızı rəngli qələmlər qoyulur. Səhərisi gün həmin yumurtanın üstündə ya qara, ya da qırmızı xətt olur. Deyilənə görə, gecə Xızır peyğəmbər gəlib ilin necə keçəcəyinə müvafiq olaraq yumurtanın üzərində işarə qoyur (Bu hər hansı bir arzunun yerinə yetib yetməyəcəyini bilmək məqsədilə də edilə bilər). (Fatma Nağı qızı Əliyeva, 1930, Gəncə) (Şəkil 2). Lənkəran, Masallı tərəflərdə isə yumurtanı damın başına deyil, təndirin gilfəsinə, yəni hava çıxan yerinə qoyurlar (Kinəfəs Məmmədova, 1927, Lerik).

Bu faldan aydın olur ki, Xızır xariqüladə qüvvə sahibi olmaqla yanaşı, həm də insanların gələcəyini bilmək qabiliyyətinə malikdir. Bir sıra digər folklor nümunələrində də onun ölməzliyi və qeybanə-batini elm sahibi olması fikri aydınlaşır.

Qeyd edək ki, müxtəlif türk xalqlarının keçirdiyi Xızır Nəbi bayramı və yazın gəlişi ilə əlaqədar mərasim və ayinlər nəinki bir-birinə oxşayır, demək olar ki, eynidir (xırda dəyişiklikləri nəzərə almasaq). Bu isə onu deməyə əsas verir ki, Xızırın yazın gəlişi – 4 ünsür: su, od, torpaq, hava ilə bağlılığına inanan xalq onu o qədər ilahiləşdirmişdir ki, həyatın başlanğıcı kimi götürülən ünsürləri məhz onun adı ilə bağlayır.

## Əfsanələrdə Xızırın təsviri

Qədim tarixi fakt və hadisələr üzərində nəşət tapan miflərdə, əfsanələrdə həmçinin bir çox həqiqətlər gizlənmişdir. Xalq şairi Səməd Vurğun bu barədə demişdir: “Hər hansı bir əfsanə olursa olsun, biz onda həqiqət şəfəqləri görməliyik” (94, s.670). Doğrudan da, Xızırla bağlı əfsanə və rəvayətlərdə xalqın inam və etiqadları, həqiqətdə görmək ümidində olduqları arzular əks olunub. Azərbaycan folklorunda Xızırla bağlı əfsanələr məxsusilik təşkil edir. Onların əksəriyyətində Xızırın

dirilik suyundan içməsindən bəhs olunur. Xızır peyğəmbərin ölümsüzlüyünün səbəbi və daim qeybdə olması "Xızır peyğəmbər və İlyas", "Xızır peyğəmbər və İsgəndər" əfsanələrində (42) daha aydın açılır.

Yeri gəlmişkən qeyd edək ki, xalq arasında Xızırla bağlı ən çox tanınan əfsanələrdən biri "Xızır peyğəmbər və İsgəndər"dir. Həmin əfsanədə İsgəndərin dünyalara sahib olmaq, ölməzlik qazanmaq istəməsi, zülmətə gedən yolda Xızırla görüşməsi, lakin sonda dirilik suyundan içməyin ona nəsib olmaması göstərilir. Ümumiyyətlə qeyd etməyə dəyər ki, adını çəkdiyimiz şəxs istər folklor, istərsə də dini qaynaqlarda daha çox Zülqərneyn və ya İsgəndər Zülqərneyn kimi tanınır.

Orta əsr İslam dünyasında İsgəndəri-Zülqərneyn hekayəsinin geniş yayıldığı məlum olur. Bu böyük əfsanənin əslində Islam mifologiyasına daha qədimdən daxil olduğu şübhəsizdir. Qərbə və Şərqə hərbi səfərlər etmiş, hər döyüşdən zəfərlə çıxaraq qələbələr qazanmış şöhrətli bir fateh olması, dolayısı ilə bu əfsanənin Böyük İsgəndərin adı ətrafında təşəkkül tapdığını deməyə əsas verir. Bəlkə də elə bu səbəbdəndir ki, adıçəkilən əfsanənin yayıldığı yerlərdə xalq onun qəhrəmanlığını bir qədər də mübaliğələşdirmiş, əfsanənin əsas mövzusunu saxlamaqla xeyli dəyişikliklər edilmişdir, daha dəqiq desək, zənginləşdirilmişdir. Bir çox qədim mənbələrə görə bu kompleks əfsanənin miladdan sonra III əsrdə yarandığı ehtimal olunur. Həmin əsərlərdə İsgəndərə "İkibuynuzlu" ləqəbi verildiyi də qeyd olunur. Ərəb dilindəki Zülqərneynin mənasının "ikibuynuzlu" olduğu da irəli sürülür. Burada İsgəndərlə bağlı, daha doğrusu, onun ikibuynuzlu olması ilə bağlı olan bir əfsanəni də yada salmaq yerinə düşər.

Əfsanəyə görə, elə anadan olandan İsgəndərin düz başının ortasında iki buynuzu var imiş. Elə buna görə də o,

həmişə buynuzunu gizlətmək üçün başından papağını çıxarmazmış. Saçını qırxdırmaq zamanı gələndə isə hər dəfə ayrı bir dəllək gətirməyi əmr edər, hər dəfə də yeni dəlləyin onun sirrini, yəni ikibuynuzlu olmasını heç kəsə xəbər verməməsi üçün öldürtdürərmiş. Vaxt keçir, bir zaman ayılırlar ki, daha məmləkətdə dəllək qalmayıb. Güc-bəla ilə bir naşı dəllək tapırlar ki, İsgəndərin saç-saqqalını düzətsin. Dəllək işini sona çatdırandan sonra Isgəndər onu da öldürtmək istəyir. Vəzir-vəkil yığışıb İsgəndərə deyir ki, bu dəlləyə rəhm etsin. Yoxsa daha dəllək tapa bilməyəcəklər. İsgəndər çox fikirləşir, götür-qoy edir, görür həqiqətən də bu dəllək də ölsə daha onun saç-saqqalını təraş edən olmayacaq. Dəlləyə bərk-bərk tapşırır ki, burada gördüyünü heç kəsə deməsin, yoxsa boynu vurulacaq. Dəllək də söz verir ki, bu sirri heç kəsə deməyəcək.

Günlər keçir, sirr dəlləyi rahat buraxmır, kiməsə demək istəyir. Amma həm də İsgəndərin zülmünə bələd olduğundan onun cəzasından qorxur. Axırda dözə bilməyib insan izi dəyməyən bir düzənliyə çıxır, orda quyu qazıb ağzını quyuya tutub var gücü ilə üç dəfə qışqırır: “İsgəndərin buynuzu var, ey, buynuzu!”

Bu sözləri deyəndən sonra bir qədər rahatlaşır və evinə qayıdır. Bir müddət keçir. Həmin yerdə qamışlıq əmələ gəlir. Bir dəfə təsadüfən öz sürülərini otaran bir çoban bu yerdən keçərkən bir qarğı qoparır və evinə gətirir. Qarğıdan tütək düzəldib çalmağa başlayanda bütün məmləkətə səs yayılır. “İsgəndərin buynuzu var, ey, buynuzu” - deyə tütəkdən səs çıxmağa başlayır. Bu sözləri eşidib İsgəndərin adamları çobanı tutub saraya aparırlar. Ondan soruşurlar ki, bunu haradan eşidib. O da and-aman edərək hadisəni danışır. Bütün məsələ üzə çıxır. Beləliklə də İsgəndərin sirri bütün aləmə bəyan olur (Babayev Əli İbrahim oğlu, 1939, Gəncə şəhəri) (Şəkil 3).

Bu əfsanədə həm də sirr saxlamağın nə qədər çətin olduğuna işarə olunur. Başqa sözlə isə bildirilir ki, sirr saxlamaq qeyri-mümkündür. Tez-gec bir yolla sirr aşkara çıxacaq. Elə buna görə el arasında belə məsəl də var: “Bir məsələni 2-ci adam bilirsə, o artıq sirr deyil”.

Karl Yunqun yazdığın görə Quran şərhçilərindən biri olan Təbəri də Xıdırı İsgəndər ilə əlaqələndirir: Xıdır İsgəndəri dirilik suyuna çatdırır və hər 2-si ölməzlik qazanır (161, s.198). Lakin bu bütün mənbələrdə belə deyil. İstər əfsanələrdə, rəvayətlərdə, istərsə də digər qaynaqlarda adətən İsgəndərin bu sudan içə bilmədiyi, dirilik suyundan dadmağın ancaq Xıdıra nəsib olduğu yazılır. Bundan əlavə qədim tədqiqatçılar onu İlya ilə də əlaqələndirirlər. Hansı ki, o da ölmür və yanan arabanı səmaya yüksəldir. İlyanı Qeliusun nəslindən hesab edirlər.

Psixoloq “İncil”də göstərilən İlya ilə Xristosun eyni səviyyədə qəbul olunduğu məsələsinə də toxunur və göstərir ki, ölməzlik qazanan bir neçə qəhrəmanlar bir-biri ilə bağlıdır. Məsələn, Xristosun İlya vasitəsilə həm Xıdır, həm də Aqasver ilə əlaqəsi var. (161, s.199).

O eyni zamanda Xıdırın İlyas ilə, İsgəndər ilə əlaqələrini xristianlıqdakı bir məqamla əlaqələndirir. İordaniyada İohan “Xristanı həyatın başlanğıcı” adlandırırdı. Bu ana qədər hələ Xristos adi insan səviyyəsində, Iohan isə insanlıq səviyyəsindən yüksək məqamda dayanırdı. O göstərir ki, bu Xıdırla İsgəndər, Xıdırla Musa, həmçinin İlyas ilə əlaqələrdə də özünü göstərir. O bu məqamda Wollerin Xıdırla İlyas, bir tərəfdən Gilqamış və onun ölən qardaşı Eyabani ilə, digər tərəfdən isə Dioskura ilə müqayisəsinə də diqqət yönəldir. Hansı ki, onlardan biri ölən, digəri isə ölümsüzdür. Bu münasibət özünü bir tərəfdən Xristos və İohan, digər tərəfdən isə Xristosla Petro arasında göstərir (161, s.199).

Xızırla bağlı əfsanələrin bir neçəsinə nəzər yetirsək görərik ki, onlarda bir neçə atribut üstünlük təşkil edir. Bunlar dirilik suyu, ölməzlik, Xızırın geyimi və onun mindiyi qanadlı boz atdır.

İlk öncə əski türk inam və etiqadlarında, maddi mədəni abidələrində adı çəkilən dirilik suyuna nəzər yetirək. "Dirilik suyu", "dirilik bulağı" anlayışı əski türk xalqlarının mifoloji təfəkkürü ilə bağlıdır. Bu məsələ "Ural Batır" dastanında içməli su problemi kimi qoyulmuşdur. O, insana, onun mal-qarasına, əkin-biçininə, Ural və ondan qaynağını alan çayların yaşaması, məhv olmaması üçün su verir. Dastanda göstərilir ki, Ural Batır dirilik bulağının suyundan özü içmir. Onun suyunu dağlara, yamaclara, düzlərə səpir, onlara əbədi həyat verir, yaşıllaşdırır.

Deyirlər, "Dirilik bulağı"na gəldi,
Deyirlər, ağzını su ilə doldurdu...
Divlərdən törəmiş dağa çatdı.
Deyirlər, orada suyu püflədi:
"Qoy, dağ və meşələr yaşıllaşsın,
Qoy, əbədi çiçəklənsin,
Qoy, (dünyada) quşlar ötsün".

Ural Batırın püfləyib səpələdiyi dirilik suyunun düşdüyü yerlərdən yolkalar, dürlü-dürlü ağaclar, çiçəklər, bitkilər bitir, hər tərəf yaşıllıq olur (85, s.125).

Yeri gəlmişkən dastanda Ural Batırla görüşüb ona məsləhətlər verən qocanın hikmətli sözü ilə Nizami Gəncəvinin "İsgəndər"inin fikrini qarşılaşdıranda aydın olur ki, insan ölümü labüddür.

Ural Batırda qoca deyir ki, ölüm labüddür. Dünyada yamanı məhv etmək lazımdır. Əbədilik, ölməzlik dünyanı gözəlləşdirmək və yaxşılaşdırmaqdan ibarətdir.

“İsgəndərnamə”də də İsgəndər deyir:

“Bir məsəl çəkdik: Ölər hər doğan,
Əcəl pəncəsindən kim qurtarmış can?”

Deməli, hər iki əsərdə əbədiliyin dünyanı gözəlləşdirmək, yaxşı əməllə ad qazanmaq olduğu vurğulanır. Ümumiyyətlə, su məsələsi bir problem olaraq həm həyatın, canlıların yaşaması ilə səsləşir, həm də bu suyun ilkin olması mifik inamı ilə bağlıdır. Deməli, dirilik bulağı anlayışı bir neçə ölkədə var imiş.

Eyni zamanda, Xızırın içdiyi, İsgəndərin tapa bilmədiyi zülmət dünyasında olan dirilik suyu, Anadolu əfsanələrinə görə Bingöl dağındakı abi həyat və digər nümunələrdə ölməzlik verən su əsas atributlardan birini təşkil edir. Lakin onu da diqqətdən qaçırmayaq ki, əfsanələrin əksəriyyətində dirilik suyundan içmək ancaq Xızır peyğəmbərə nəsib olduğu da maraqlı məqamlardandır. Belə ki, Ural Batır, Gilqamış, Dəli Domrul kimi el qəhrəmanları ölməzliyin sirrini öyrənmək üçün “dəridən, qabıqdan çıxsalar da”, onların heç biri ölümsüzlüyə qovuşa bilmir. Digər nümunələrdə dirilik suyu, abi-həyat, ölməzlik çiçəyi və digər əbədilik gətirən simvollar təbiətə, yaşıllığa və digər məsələlərə həsr olunub. Məsələn, Ural Batır təbiətə, çiçəklərə, ağaclara, Koroğlu Qırata həmin sudan verməklə onlara ölməzlik verir. Insanlar içərisində isə əvvəldə dediyimiz kimi “abi-həyat”dan içmək ancaq Xızıra aiddir. Bundan əlavə, bir sıra əfsanə və rəvayətlərdə ölümsüzlük

axtaran qəhrəmanların Xızırla qarşılaşdırılması da göstərir ki, dirilik bulağının yerini bilən Xızırdır.

Xızırın ölməzliyinin səbəbi də məhz onun dirilik suyunu içməsi ilə əlaqədardır. Təbii ki, nümunələrdə dirilik bulağının harada olması da nəzəri cəlb edir.

Ural Batır dirilik bulağını tapmağı qarşısına məqsəd qoyur. Atası onu və qardaşı Şülgeni insanlara əbədi həyat verən "yənşişmənin", yəni dirilik suyunun arxasınca göndərərkən deyir:

Ölüm adlı yamanlıq edən var.
O heç gözə görünmür.
Gəlişi heç bilinmir.
O, belə yaranmışdır,
Onunla bircə şey (bacarar)
Divlər padşahının ölkəsində
Deyirlər bir bulaq var.
İnsan ondan içsə
Heç ölməz, yaşayar.
Ölüm ona yaxlaşmaz (144, s.61-62).

Parçadan da göründüyü kimi Ural Batırın axtardığı dirilik suyu "Divlər ölkəsi"ndədir. Türk əfsanələrinin birində isə göstərilir ki, bir ovçu Bingöl dağında ovladığı kəkliyi oradakı göllərdən birində yuyandan sonra görür ki, kəklik dirilib. Bilir ki, bu, dirilik bulağıdır. Nizaminin "İsgəndərnamə" əsərinin qəhrəmanı İsgəndər isə dirilik bulağının qaranlıq dünyada olduğunu öyrənib ora yollanır. Deyirlər ki, Xızır peyğəmbər də həmin dirilik bulağından içərək ölməzlik qazanıb. Burda bir maraqlı məqama da diqqət yetirək. Səməd Vurğun "Bulaq

əfsanəsi”ndə (94) dirilik suyunu Azərbaycana gətirir. Əsərdə bu barədə belə yazılıb:

Deyirlər Şirvanda bir bulaq varmış
Suyu almaz kimi par-par yanarmış
.....................................................
Deyirlər bu sudan Xızır peyğəmbər
Gəlib təsadüfən içmiş doyunca
O gündən ölməmiş tarix boyunca.
İnsan donundakı o qanadlı quş
Əsrlərdən bəri uçub yox olmuş.
Fəqət deyirlər ki, o yenə sağdır
İslamın dar günü qayıdacaqdır.

Yuxarıda deyilənlərdən aydın olur ki, insanların daim arzusunda olduğu əbədi həyat onları həmişə düşündürmüş, onlar öz arzu və istəklərini əfsanələrə, rəvayətlərə çevirmişlər. Hər bir xalqın elinə, obasına olan məhəbbətdən və inamdan doğur ki, adətən onları qoşan xalqların hər biri bu həyat eşqinin, ölməzliyin “açarı” olan dirilik bulağını öz ölkəsində, öz vətənində görmək istəyir.

Xızırın geyimi, görünüşü barədə də müxtlif fikirlər var. Tədqiqat boyu göstərilən nümumələrə istinadən deyə bilərik ki, bəzən onu yaşıl donlu, nurani kişi, ixtiyar kimi təsvir edirlər. Görünür, bu onun yaşıllıq məbudu olması ilə əlaqədardır. Daha çox nümunələrdə isə Xızır ağ paltarda, ağ və ya boz at üstündə təsvir edilir. Türk mifologiyasında ağ və ya boz atlar barədə əvvəlki bölmələrdə söhbət açmışıq.

Anadolu türk əfsanələrində Xızırın kimliyi, özü haqda əfsanələrdən daha çox yenə də onun funksiyalarına yer verilir. Belə ki, Azərbaycan Xızırı ilə bağlı əfsanələrdə Xızırın necə

ölümsüzləşməsi, dirilik suyundan içməsi, onun öz həyatı və digər məsələlər ön plandadırsa, Anadolu türk əfsanələrində onun insanlara yardımından daha çox bəhs olunur.

"Kelam ağanın sərgüzəştləri" əfsanəsində deyilir ki, Sultan Süleyman dövründə yaşayan Kelam adlı bir şəxs Ayasofya məscidində vaaz dinləyərkən birdən halı xarablaşır. Camaatı yarıb keçə bilməyəcəyindən nə edəcəyini bilmir. Birdən qeybdən kimsə onu bir göz qırpımında bayıra çıxardıb bir az sonra yenidən əvvəlki yerinə qaytarır. Kelam başa düşür ki, bu Xızırdır. Sonra bir dəfə də onunla rastlaşır. Xızır onu bir yerə aparacağını deyir. Amma bir şərtlə ki, gördükləri ilə bağlı heç bir şey soruşmasın. Kelam ağa heç nə soruşmayacağını vəd etdikdən sonra Xızır onu Kırklar evi deyilən bir yerə aparır. Burada qəribə hadisələr baş verir. Əvvəlcə Xızır peyğəmbər gənc oğlan cildində bir günahsız adamın başını kəsir. Sonra tufana düşüb batmaq üzrə olan gəmini içi dolu adamlarla birgə batırır. Bunlara dözə bilməyən Kelam nə üçün belə etdiyini soruşur. Xızır isə verdiyi vədə əməl etmədiyi üçün ona səbəbini açıqlasa da bir daha, Kelamın gözünə görünmür.

Digər bir əfsanədə Xızır adlı ağıllı, cəsur bir çobanın kralın qızını əjdahanın əlindən qurtarmasından bəhs olunur. Daha sonra Musa peyğəmbərin onun izinə düşməsi, onunla görüşməsi təsvir olunur.

Bu və digər başqa bir çox əfsanələr Quranda Xızırla bağlı söylənilənlərin əsasında qoşulmuş əfsanələrdir. Belə ki, birinci əfsanənin Xızırın Musa ilə yoldaşlığı, ikinci əfsanənin isə Musa ilə görüşünün əsas motivləri üzərində qurulduğu aşkar olur.

Hələ islamdan əvvəlki Orta Asiya Buddist əfsanələrində də Xızırın eyni funksiyaları yerinə yetirdiyi söylənilir. Bunlara misal olaraq Çorum, Kirşəhər, Tokat və Sivas havalisində

yayılan deyişmə şəklində bir mənzum şeri nəzərdən keçirək (105, s.231-236) (Bu əfsanənin buddist prototipi Saadet Çağatayın "Qaraçı xalq ədəbiyyatında ovçu Bineger" əsərində var). Bu əfsanəyə görə bir ovçu yanında balası olan bir geyiğin (maralın) arxasınca düşür. Maral qaçarkən yolunun üstündə bir dərvişlə rastlaşır. O, dərvişə yalvarır ki, onun balasını qurtarsın. Həmin dərviş Xızırdır. Elə bu vaxt ovçu gəlib maralın balasını yaxalayır. Xızır balanı buraxması üçün ovçuya pul təklif edir. Ovçu isə pulu qəbul etmir. Həmin səhnə əfsanədə belə təsvir olunur:

Avçı bu sözü duydu,
Şeytan sözüne uydu.
Kuzuyu kesti orada,
Hemen kazana koydu.

Derviş gazaba geldi
Orda gözden sir oldu.
Okudu İsm-i Azam,
Kuzunu kazandan aldı.

Avçı:

Visaline ereydim,
Qonça gülün dereydim.
Derviş Hızır bileydim,
Tek parasız vereydim.

Derviş dada erildi,
Melekler hep derildi.
Derviş orda okudu,
Geyik kuzusu dirildi.

Bundan əlavə, Ayasofyanın ilk inşası və İstanbulun fəthindən sonra camiyə çevrilməsindən bəhs edən əfsanələrdə də Xızırın adı çəkilir. Onun məsləhətləri əsas motivlərdən biri kimi ortaya qoyulur (126, s.201).

Yuxarıda deyilənlərdən aydın olur ki, Xızırla bağlı əfsanələr bir-birinə çox oxşamasa da, onlarda Xızır həmişəki kimi xilaskarlıq, dada yetən funksiyaları daşıyır. Eyni zamanda bütün əfsanələrdə onun xalq arasında məşhur olan məziyyətləri öz əksini tapır.

## Dastan və nağıllarda Xızır

Şifahi xalq ədəbiyyatında Xızır daha çox baharın, yazın gəlişi ilə əlaqədar obraz kimi tanınsa da, folklorda onun digər funksiyaları da geniş şəkildə təsvir olunmuşdur. Bunlar dastanlarda daha qabarıq şəkildə özünü büruzə verir. Xızır burada daha çox dada çatan, imdada yetən, xilaskarlıq funksiyasını yerinə yetirir. Folklorun ən geniş qollarından olan dastanlarımızda ilahi qüvvə kimi çıxış edir.

Dastanlarımızda sehrli qüvvə kimi təqdim olunan Xızır, yaxud Xıdır Nəbi aşiqi çıxılmaz vəziyyətlərdən qurtarır. "Aşıq Qərib" dastanında Qərib Şahsənəmin toy xəbərini eşidib vətənə dönəndə yolda onun mindiyi at çərləyib ölür. Hər yerdən əli üzülən aşiq belə bir məqamda "Fələk məni daşa çaldı, ağlaram" rədifli qoşmasını söyləyərək, yanıqlı göz yaşı tökür, ancaq Xızır peyğəmbərə ümid edib onu köməyə çağırır:

Hər yanımı duman alıb, ay aman,
Qalmışam səhrada halım pərişan,
Yetiş imdadıma, Xıdır, əlaman,
Qəribəm, vətənə yetirin məni! (25, s.96)

Bu çağırışdan sonra ağ atlı Xızır gözə görünür. Öz qanadlı atı ilə 40 günlük yolu bir göz qırpımında qət edərək, Qəribi vədə verdiyi vaxtın axırıncı günü, sevgilisi Şahsənəmin toyunun sonuncu məqamında Hələbdən Tiflisə çatdırır. Dastanın krım-tatar, türkmən, Azərbaycan variantlarının hamısında Qəribi vətənə çatdıran Xızır peyğəmbərdir. Azərbaycan variantında əlavə olaraq Xıdırın Qəribə eşq badəsi içirtməsi də var. "Əsli Kərəm" dastanında da qəhrəmana kömək edən Xızırdır. Dastanda Kərəmlə Sofi dağda borana düşüb yolunu azır. Vəziyyəti belə görən Kərəm "Gedəmməzsən, Kərəm, qışdı, geri dön!", "Boranlı dağlarda yolum itirdim", "Aman fələk, budur səndən diləyim" misraları ilə başlayan üç qoşma söyləyir. Sözünü tamam edən kimi gözünün qarşısında bir nurani kişi peyda olub Kərəmə deyir:

"...- Qəm eləmə, Kərəm, darda qalmazsınız. Yumun gözünüzü!

Kərəmlə Sofi gözlərini yumdular. Nə qədər keçdi, bilmirəm, bir də nurani kişi dedi:

-Açın gözlərinizi!

Kərəmgil açıb gözlərini gördülər ki, səfalı bir yerdədirlər" (19, s.127-128). Həmin sehrli qüvvə "Abbas Gülgəz" dastanında Abbası quyudan çıxarır.

Xıdır Nəbi/İlyas bəzi nağıl və dastanlarda sonsuzlara övlad da verir.

Ümumiyyətlə, övladsızlıq motivi türk xalqlarının epik yaradıcılığında geniş yayılmışdır. "Azərbaycan məhəbbət dastanlarının bədii özünəməxsusluğu" mövzusunda namizədlik dissertasiyası müdafiə edən Ruziyə Quliyevanın yazdığına görə sonsuz qocalar aşağıda göstərilən şərtlərdən birinə və ya bir neçəsinə əməl etməklə övlad sahibi olurlar:

1. Nəzir-niyaz paylamaq

2. Dərviş verən sehrli almanı yemək

3. Söz vermək, əhd eləmək

4. Yuxu görmək (yuxuda gördüklərinə əməl etmək) (61, s.16).

Hələ Dədə Qorqud boylarında rast gəldiyimiz qurban kəsmək, nəzir-niyaz paylamaq, körpü saldırmaq motivlərinə "Qurbani", "Leyli Məcnun", "Alı xan-Pəri", "Lətif şah" dastanlarında da müraciət olunur. Yuxarıda göstərilən 4 şərtdən son üçü Xızır peyğəmbərlə bu və ya digər şəkildə bağlıdır. Birinci şərt kimi göstərilən nəzir-niyaz paylamaqla övlad sahibi olmaq motivində də dərviş iştirak edir. Buna əsaslanaraq demək olar ki, bu şərtlərin dördündə də Xızır birbaşa və ya dolayı yolla nüfuz edir. Məsələn, "Lətif şah" dastanının motivindən aydın olur ki, sonsuz şah vəzirin məsləhəti ilə "yeddi yol ayrıcında bir ocaq tikdirir, gələnə gedənə çörək, aş yedirdir". Yalnız bundan sonra dərdli şahın gözünə nurani dərviş görünür və ona bir alma verib deyir: "Al bu almanı, ortadan düz ikiyə böl, yarısını özün ye, yarısını xanımına ver. Xudanın izni ilə sizin oğlunuz olar. Amma mən gəlməmiş nəbadə ona ad qoyasan!" (10).

Elə bu şərtin özündən də görunur ki, nurani dərviş hadisələrin sonrakı axarında və süjetin inkişafında həlledici rol oynayacaq.

"Tahir Zöhrə" dastanı türk xalqları içərisində daha çox yayılmışdır. Bu dastanın istər özbək, istər krım-tatar, istərsə Azərbaycan variantlarında övladsız şaha nurani bir qocanın/-dərvişin sehrli alma verməsi də yuxarıda dediklərimizə bir daha sübutdur.

Dastanlarımızda buta vermə motivində əsas mahiyyət ondan ibarətdir ki, yuxuda aşiqlə məşuqəyə eşq camı verilir.

Bu bədii üsul dastan süjetinin dinamizmini təmin edir, hadisələrin gələcək inkişafı üçün zəmin hazırlayır. Buta yuxusu vasitəsilə dastançılar əhvalatın cərəyan etdiyi coğrafiyanı genişləndirməyə və təsvir olunan hadisələrin reallığına inamı artırmağa nail olmuşlar. Diqqət yetirsək görərik ki, məhəbbət dastanlarımızdakı buta verən dərviş elə sonsuz ata-analara sehrli alma verən nurani dərvişdir. "Lətif şah" dastanında həmin bu dərviş bayaq dediyimiz kimi iki vəzifəni yerinə yetirir: həm ata-anaya sehrli alma verir, həm də Lətif şaha buta verir. Zaman keçdikcə sehrli alma ünsürü və övladsızlıq arxa plana keçir, əvəzində çox rəngarəng formada buta yuxusu işlənilir. "Sam şahzadə" dastanında da bu keçidin izləri aydın görünür. Dastanda alma verən dərviş Tərkiman şahın yox, onun bağbanının yuxusuna girir.

Dastan yaradıcılığının nisbətən sonrakı mərhələlərində nurani dərviş öz yerini Xıdır İlyasa verir. Bu dəyişmənin izləri "Novruz və Qəndab" dastanında daha aydın müşahidə olunur. Dastanın ekspozisiyasında Novruza buta verən də nurani dərvişdir. Elə buna görə də Novruz dəryada qərq olmaq məqamında həmin dərvişi köməyə çağırır: "...Novruzun ağzından söz qurtarmamış Xıdır İlyas dərviş paltarında hazır olub Novruza dedi:

- Gözünü yum!

Novruz gözünü yumdu, bir zaman gözünü açıb özünü dəryadan kənarda gördü…" (10).

Göründüyü kimi, dərviş donunda gözə görünən Xıdır İlyas bundan əvvəlki dastanlarda rast gəldiyimiz dərvişin, nurani qocanın vəzifəsi ilə eynilik təşkil edir. "Aşıq Qərib" dastanında da Qəribə eşq badəsini dərviş verir və burada da aşiqi dardan qurtaran Xıdır İlyas olur.

Yeri gəlmişkən qeyd edək ki, sonrakı dastanlarımızda eyni funksiyaları daşıyan obraz, yəni qəhrəmanı dardan qurtaran xilaskar, Şahi-Mərdan Əli obrazı, nadir hallarda isə Məhəmməd peyğəmbərin adı çəkilir. "Qurbani", "Abbas və Gülgəz" kimi dastanlarda Xızır Nəbinin funksiyalarını Şahi-Mərdan Əli yerinə yetirir.

Burda bir məsələyə diqqət yetirək. Dastanlarımızda eyni funksiyaları yerinə yetirən sehrli qüvvə - obraz gah Xıdır Nəbi, gah nurani kişi, dərviş, Şahi–Mərdan və digər adlarla verilir. Hətta bəzən eyni adlı dastanların belə müxtəlif variantlarının birində Xızır Nəbi, digərində dərviş və ya nurani kişi qəhrəmanı dardan qurtarır, buta verir və sairə. Məsələn, "Aşıq Qərib" dastanının türkmən və krım variantlarının birində Xıdır Nəbi, digərində Şahi–Mərdan Qəribə kömək edir (130, s.129).

Azərbaycan məhəbbət dastanlarının bir qismində - "Məsum", "Qul Mahmud", "Şahzadə Əbülfəz" və digər dastanlarda ölüb-dirilmə motivləri də var ki, həmin dastanların bir çoxunda da bu funksiyanı dərviş yerinə yetirir. "Məsum" dastanında – "Dərviş dedi: Ey aşiqi-məşuq, ayağa qalxın! O saat oğlan da, qız da yerindən qalxdı" (23, s.298).

Süjetin ümumi inkişafına uyğun şəkildə bu motivdə bir sıra qədim ayinlər və dini görüşlərin izləri görünür.

"Qul Mahmud" dastanına nəzər salaq. Burada ölüləri "butası boşa çıxdığına görə sazını torpağa basdıran" Qaracaoğlan dirildir. Dastanda Qaracaoğlan belə təsvir olunur: "14 il idi ki, sazını torpağa basdırmışdı, özü də məbudluq eləyirdi. Amma gözə görünməyən təhər hər bemuraza yetişən idi" (19, s.320). Göründüyü kimi, Qaracaoğlan obrazı burada açıq-aydın şaman kimi təqdim olunur. Belə bir inam var ki, qam-şamanların ilahi gücü "qüdrətdən" verilmişdir. İnama görə, bu qüdrət qamın başı üzərinə bulud kimi gəlir və göy

qurşağı şəklində bədəninə girir. Görünür buna görədir ki, şamanların davuluna göy qurşağının şəkli çəkilir. Qam-şamanlar həm də təbii vasitələrlə, otlarla, öz alqış və duaları ilə xəstələri müalicə edirlər.

Orta Asiya türklərinin folklorunda Xızır peyğəmbərin adı tez-tez çəkilir. Altay–türk dastanlarından olan "Manas" dastanında Xızır, hələ Manas dünyaya gələn andan əsərdə görünür və yeni doğulmuş uşaq üçün dua edir (119, s.507; 105, s.104-106.).

Özbək xalqının yaratdığı "Alpamış" dastanında Xızır peyğəmbər belə təsvir olunur. Alpamış doğulduğu vaxt Xızır peyğəmbər Alpamışın babası Baybörünün yanına gələrək deyir: "Oğlunun adını Molla Hakim qoydum, ləqəbi Alpamış olsun; yenilməz pəhləvan olsun; qılınc kəsməsin; xəncər dəlib keçməsin; yüz doqquz il yaşasın". Baysarının qızı doğulanda da Xızır ixtiyar cildində gələrək körpənin adını Molla Barçın qoyur.

Dədə Qorqud dastanında da Xızır obrazı özünəməxsus çalarlarla təsvir olunur. Ölümcül halda olan Buğaçın yarasına sığal çəkərək onu həyata qaytaran Xızırın təsviri və məsləhətlərində qədim türk mifoloji inamları təcəssüm olunmuşdur. Boz rəngli at, peyda və qeyb olma, ana südü, dağ və onun bitirdiyi çiçəyin qüvvəsinə tapınma Xızırla bağlı təsvir olunub. Boydan məlum olur ki, Buğac anasının fəryad səsinə ayılır: "Böylə digəc oğlanın qulağına səs təpındı. Başını qaldırdı. Yılabıdaq gözin açdı. Anasının yüzinə baqdı" (57, s.39). Dastanda Xızırın peyda olduğu anda Buğacın onu görməsi qeyd olunmur. Lakin sonradan Buğac boz atlı Xızırın onun yarasını üç dəfə sığalladığını, hansı məlhəmi məsləhət gördüyünü və bu yaradan onun ölməyəcəyini söylədiyini anasına xəbər verir. Xızırın Buğacı ölümdən xilas etməsi onu xeyirxah

ruh kimi səciyyələndirir. Bu epizodda Xızır gəldiyində Buğacın yenicə yıxılıb huşunu itirdiyi təsvir olunur. Tədqiqatçı Samirə Babayeva (27) Xızırın bu funksiyalarını əski inamlarla bağlayır. O, Osiris haqda bəzi mifik məqamların və “Buğac xan boyunun” epizodlarının mahiyyət baxımından eynilik təşkil etdiyini bildirir. Belə ki, Dirsə xanın xatununun oğlunun cəsədini axtarması, İsidanın Osirisin cəsədini axtarması ilə, Buğacın yenidən möcüzəli şəkildə həyata qaytarılması, Osirisin Isidanın duası ilə dirilməsi ilə, Buğacın anası tərəfindən insanlardan gizlədilməsi ilə, Qorun Isida tərəfindən gizlədilməsi və s. ilə səsləşir. Hətta burda maraqlı cəhətlərdən biri də odur ki, hər iki əsərdə xatun və İsida öz övladlarına ana südü vasitəsilə sahib çıxırlar. Tədqiqatçının yazdığına görə, Osirisin də Xızır kimi ölməz, təbiətin canlanması ilə yenidən yaranan yaşıllıq atributu olması haqqında mifik təsəvvürlər var. “Kitabi-Dədə Qorqud”da Buğacın həyata qaytarılmasına əbədi həyat yaşayan Xızırın müdaxiləsində ana südünün müqəddəsliyi və dağ çiçəyinin sehri də diqqəti cəlb edən məsələlərdəndir. Mifik təfəkkürdə çiçəyin əbədi həyatvericilik xüsusiyyətinə inam dirilik bulağına inamla eynilik daşıyır. Samirə Babayeva Kitabi-Dədə Qorqudda Xızır obrazının spesifik cəhətlərini araşdırarkən bunun məşhur şumer-akkad ədəbiyyatının təxminən eramızdan əvvəl VI-II minilliklərdə yaradılmış ən sanballı, kamil nümunələrdən olan “Bilqamıs” dastanı ilə səsləşdiyini yazır. Dastandan aydın olduğuna görə Bilqamıs Mesopotamiyada güclü bir hökmdardır. İlahi mənşəli Enkidu ilə dost olur. Lakin onun ölümündən pərişan olur. Dərin bir intizar yaşayır. Bilqamıs dostunu təzədən həyata qaytarmaq üçün çarə axtarır. Sonda insanı əbədi həyata qaytaran bir ot olduğunu öyrənir. Bu otun yerini yalnız bir kişi bilir. O da

nehirlərin birləşdiyi yerdə yaşayan, əbədi həyat qazanan hakim Utpariştimdir (27, s.17).

Əsərdə Bilqamıs əbədi həyata qovuşmaq ümidilə dağlar arasından keçərək qaranlıq dünyada 12 mənzil getməli olur, əbədi həyata qovuşmaq üçün Utpariştimi tapmağa çalışır. Utpariştim insan olsa da, tanrıların mərhəmətini qazanmış və əbədi həyat əldə etmişdir. Utpariştim Bilqamısa əbədi həyat əldə etmək üçün dənizin dibində olan sehrli çiçəyi əldə etməyin yeganə yol olduğunu bildirir:

Utpariştim belə deyib bəyan edir Bilqamısa:

“Bilqamıs, çox yollar keçib,
od götürdün gözün ilə,
Axı sənə nə verim ki, aparasan özün ilə,
Bilqamıs, onda qulas as,
Sənə bir sirr açacağam
Çiçəyin gizli sirrini sənə danışacağam.
Bu çiçək dəniz dibində,
göyətmək bitib boy atır,
Qızılgül tək tikanlıdır,
tikanları ələ batır.
Çiçək sənə qismət olsa,
əgər gedib ona varsan.
Bax o gənclik çiçəyidir,
Gəncliyinə qayıdarsan” (30, s.96).

Lakin çiçəyi əldə etsə də, Bilqamıs ondan istifadə edə bilmir. Çiçəyin ətrinə gələn ilan onu oğurlayır, ildən-ilə dərisini dəyişərək hər zaman cavanlaşır. Burada fərq ondan ibarətdir ki, Bilqamıs olümsüzlüyün sirrini əldən qaçırır. Buğacı ölümdən qurtaran Xızır isə həmişə ölümsüzdür.

“Koroğlu” dastanının bir neçə variantını incələyən P.N.Boratavın dediklərinə əsasən Urfa rəvayətində Koroğlunun oğlu Hasan bəy eşkiyarlığa gedərkən Xoca Xızırla rastlaşır. Xızır onun kürəyinə əlini çəkir və ona güc verir. Başqa bir vaxtda atdan düşərkən onu ölümdən qurtarır; Çinə gedəndə yolunun üstünə çıxıb xeyir-dua verir. Digər bir variantda – özbək variantında Koroğlu 30 yaşında ikən Xoca Xızır tərəfindən ziyarət edilir. Xızır onu hər fəlakətdən qoruyacağını vəd edir. 40 yaşında yenidən Xızırla görüşən Koroğlu peyğəmbərdən uzun ömür və şöhrət diləyir. Onun arzusu yerinə yetir (88, s.97).

Qeyd edək ki, Koroğlu dastanında abi-həyat motivi də əsas yerlərdən birini tutur. Dastanın Elazıx rəvayətində deyilənlərə görə Koroğlu iki quş vurur və onu bulaqda təmizləmək istəyəndə quşlar dirilib uçur. Koroğlu bilir ki, bu Həyat Pınarıdır. Pınardan içmək Koroğlu əvəzinə Qırata nəsib olur. Buna görə də Koroğlu ölümsüzlüyə qovuşa bilmir.

P.N.Boratav bu rəvayətlərə əsaslanaraq “Koroğlu” dastanında “İsgəndər” və “Gilqamış” dastanlarının motivlərindən istifadə edildiyini bildirir. Əslində, Gilqamışla bu süjet xəttində o qədər oxşarlıq olmasa da, “İsgəndər əfsanəsi” ilə paralellik təşkil edir. Qeyd edək ki, burada Quranda göstərilən duzlu balığın dirilməsi ilə də oxşarlıq var.

Türk əslindən olmayan, Abbasilər dövlətinin qurulmasında rolu olan Əbu Müslüm Xorasani, Battal Qazi qəhrəmanlarından bəhs edən, XIII əsrdə türk dilinə tərcümə olunan “Battalnamə” və “Ebumüslümnamə” dastanlarında da Xızır obrazına rast gəlinir.

Anadoluda XI əsrdə Danişməndli Dövlətinin yaradıcısı olan Qazinin həyatından bəhs edən “Danişməndnamə” dastanı, XII əsrdə Anadoluda, daha sonra Balkanlarda yerləşən bir türkmən babası olan Sarı Saltukdan bəhs edən “Saltuknamə”

dastanında da Xızırın xilaskarlıq funksiyası diqqəti cəlb edir. Dastanların hər birində qəhrəman dara düşəndə, çətin məqamlarda Xızır ortaya çıxır və onu dardan qurtarır.

Xızır bir sıra nağıllarda da dərviş adı ilə anılmaqdadır. Qazax sehrli nağıllarında qardaşlarının xəyanəti üzündən quyunun dibinə düşən (əslində isə quyu vasitəsilə yeraltı dünyaya adlayan) nağıl qəhrəmanı burda ixtiyar bir qoca görür. Həmin qoca quş olub qəhrəmanı işıqlı dünya üzərinə çıxarır ki, bu qoca yenə Xızır İlyasdır (65, s153).

Yuxarıda misal gətirilən dastan və nağıllar vasitəsilə aparılan incələmələr nəticəsində demək olar ki, dastan yaradıcılığında ustadlarımız Xızır motivindən ustalıqla istifadə etmişlər. Bu dastanlarda Xızır peyğəmbərin demək olar ki, mövcud olan bütün funksiyaları əks olunmuşdur. Eyni adlı dastanların müxtəlif variantlarında da Xızırın xilaskarlıq, aşiqlərə kömək və digər funksiyalarından istifadə göstərir ki, Xızır obrazı bütün türk xalqlarının şifahi xalq ədəbiyyatına nüfuz etmişdir.

## Arxaik janrlarda xalqın Xızıra inamı

Folklorumuzda arxaik janrlardan bir qismi son dövrlərdə toplanılıb üzə çıxarılmışdır. Bunların içərisində andlar, inamlar, alqış və qarğışlar, ofsun, fal, dua, qurdağzı və sairə kimi nümunələr vardır. Bu janrların yazıya alınıb çap etdirilməsində və təhlilində A.Nəbiyevin, M.Həkimovun xüsusi zəhməti var. Ümumiyyətlə, qeyd edilməlidir ki, bu janra daxil olan nümunələr qədim azərbaycanlıların həyatı, yaşayışı, dünyaya baxışı, təbiət qüvvələrinə münasibətləri, inam və etiqadları ilə bağlı yaranmışdır. Bu mənada həmin janrların bundan sonra da daha

geniş miqyasda toplanması, qruplaşdırılıb çap edilməsi folklorumuzun qarşısında duran əsas vəzifələrdən biridir.

Andlarda qədim insanların gündəlik təmasda olduğu təbiətə, cəmiyyətə, insanlara münasibətlərinin əsk-sədasını eşidirik. Bəşər cəmiyyətinin inkişafı prosesində insanların dünya görüşü, əxlaq normaları, məişət tərzi də dəyişmiş, bununla bağlı olaraq ətraf mühitə münasibət də müxtəlif olmuşdur. Bütün bu cəhətləri andlar özlərində qoruyub saxlamışlar. Andlarda həm də qədim insanların animist, totemist, antropomorfist, mifoloji görüşləri əks olunmuşdur. Qədim dövrlərdə bir sıra hadisə və məfhumları müqəddəs və ülvi hesab etmiş və and içmişlər.

Qədim insanlar həm müxtəlif nemətləri, təamı və həm də onları tapmaq üçün gərək olan əmək alətlərini çox çətinliklə əldə etmişlər. İnsanların yaşaması, mövcudluğu üçün əsas olan bu amil həmin mənada müqəddəs, əziz sayılmış, göz bəbəyi kimi qorunmuş və beləliklə and üçün əsas vermişdir. “Çörək haqqı”, “Duz haqqı”, “Bərəkət haqqı”, “Qismət haqqı” və sairə. Sonralar oxa, kamana, qılınca, nizəyə və sairəyə and içilmişdir. Bunların izləri “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanlarında qalmışdır.

Xalqın Xızır peyğəmbərə olan inamı o həddə malikdir ki, bu ad insanların and yerinə çevrilmişdir. “Xızır İlyas haqqı”, “Xızıra and olsun”, “Xıdır Zində babaya and olsun” və bu səpkili digər andlar xalqın məhəbbət və inamından doğmuşdur. Qeyd edək ki, sonuncu and daha çox respublikamızın Siyəzən, Dəvəçi, Quba, Xaçmaz bölgələrində istifadə olunur. Azərbaycanın demək olar ki, bütün bölgələrində rast gəldiyimiz “O gözəgörünməzə and olsun” andı da əslində Xızır peyğəmbərə aiddir (37, s.5). Eyni zamanda el arasında Xızır peyğəmbərlə bağlı xeyli inamlar da mövcuddur. Ümumiyyətlə isə inancların

ilk nümunələri təbiət hadisələri, müxtəlif bitkilər, heyvanat aləmi ilə bağlı meydana gəlmişdir. Qədim insanların uzun sürən sınağından uğurla çıxan ifadələr zəmanəmizə qədər gəlib çatmışdır. "Əncir ağacını budamazlar", "Çinar ağacından uşaq beşiyi düzəltməzlər", "Gəlin köçənə yasəmən verməzlər", "Ağ gül ayrılıq, qırmızı məhəbbət, sarı gül nifrət rəmzidir". Heyvanat aləmi ilə bağlı inamlar: "Qurd üzü mübarək olar", "At muraddır", "İt ulayanda xeyir gətirməz", "İlandan danışanda ürəyində nə arzu tutsan ona qovuşarsan" və sairə (41, s.84).

Azərbaycan folklorunda Xızırla bağlı inamlar da sayca üstünlük təşkil edir. Eyni zamanda həmin inamları çoxşaxəli də adlandırmaq olar. Məsələn, "Tut ağacını qurumamış kəsmək günahdır". Deyilənə görə bu ağacı Xızır peyğəmbər ehsanlıq üçün əkib (36, s.176). Yaxud "Xızır gecəsi" peyğəmbər hansı qapıdan öz buğda payını apararsa, həmin il o evin ruzisi artar, bin-bərəkəti olar.

Berqama, Balıkəsir və Təkirdağ bölgələrində Xıdırelləz günü tarladan toplanan çiçəkləri qaynadaraq suyundan içmək xəstələrə şəfa sayılır. Bu sudan 40 gün boyunca günəş çıxmamışdan əvvəl gözə sürtmənin gənclik, gözəllik və uzunömürlülük verəcəyinə inanırlar (121, s.181; 115, s.8314). Bundan başqa çəmənlikdən toplanan yeyilə bilən otlarla çörək və bazlamaların bişirilməsinin də dərdə dəva olduğuna, Xıdırelləz gecəsində bütün sulara nur yayıldığı üçün bu gecə suya girənlərin xəstəliyinin aradan qalxacağına inanılır (118, s.52). Şəfa və sağlıq qazanmaq üçün bundan başqa əşyalarla bağlı inanclar da var. Məsələn, Xıdırelləz gecəsi sübh tezdən öz əşyalarından birini dua oxuyaraq bir gülün budağına bağlayırlar. Yaxud 7 cür ot toplayıb geyindiyi paltarın bir parçasına sarıyaraq yenə gül budağına bağlamaq lazımdır. Bu cür inamlar türk xalqları içərisində geniş yayılmışdır. Azərbaycan-

da isə daha çox Novruzqabağı çərşənbələrdə ocaq üstündən atlanmaqla ağırlıqlarının, xəstəliklərinin ötən ildə qaldığına inanırlar.

Xalq sevdiyi, ürəyinə yatdığı əzizinə, qohumuna, tanıdığı-tanımadığı insanlara xoş arzular diləyər, alqışlar deyər. Folklorun bu janrında da bəzi alqışları məhz Xızır peyğəmbərlə bağlayırlar. Məsələn, "Xıdırın diləyi üstündə olsun", "Xıdır Nəbi köməyin olsun", "Xıdır Nəbi hayına yetsin", "Xıdır Nəbi kömək əlini üstündən əskik eləməsin", "Xızır köməyinə yetsin", "Xızır səni dardan qurtarsın", "Xızır səni yolda qoymasın", "Xızıra rast gələsən", "Xızır payını versin", "Xıdırzində diləyini qəbul etsin", "Xıdırzində diləyini xeyirə yazsın", "Xıdırzindəyə apardığın qurban sənin arzunu versin" (8, s.160).

Folklorumuzun bir sıra janrlarında, xüsusilə, caduya, tilsimə mühüm yer verilir. Bunların vasitəsilə qədim insanlar təbiətə, təbii qüvvələrə, vəhşi heyvanlara təsir etmək, son nəticədə onlar üzərində qələbə çalmaq istəmişlər. Ovsun bunlardan fərqli olaraq məhz sözün gücü ilə, söz vasitəsilə sehr deməkdir. Bu mənada ovsunlarda gözəl, təsirli sözlər işlənilir, burada söz düzümünün və sözlərin seçilməsinin mühüm əhəmiyyəti vardır. Zaman keçdikcə elm, texnika inkişaf etdikdə ofsunlar da mif kimi öz təsirini, əhəmiyyətini itirməyə başlayır. Ancaq ovsunlarda işlənən söz bədii poetik sənət nümunələri kimi yaşamış və bundan sonra da yaşayacaqlar. Ovsunlar da əsas etibarilə son dövrlərdə toplanmağa başlanmışdır. Xalq arasında göz dəymə, qorxu sındırma, yağış yağdırma, yağış kəsmə kimi ovsunlar məşhurdur. Məsələn, göz dəyməyə qarşı:

Üzərriksən havasan,
Yaman gözə dəvasan,
Hər kəsin gözü dəyib
Onun gözünü ovasan.

(*Dünya Rəhimova, 1924, Gəncə, Bağbanlar qəsəbəsi*)

Məişət həyatı ilə bağlı ovsunlar da çoxdur. Yuxusuzluqdan qurtarmaq, iştah açmaq, hünü, birə, arı və sairədən xilas olmaq üçün oxunan ofsunlar buna misal ola bilər (Diş, qulaq, baş ağrıları, qızdırma, mədə ağrıları və s.). Belə ovsunlar həm də türkəçara dərmanlarının qəbulu ilə müşayiət olunmuşdur.

Belə ovsunlar içərisində Xızır peyğəmbərə ünvanlanıb ondan çətinliyə əlac gözləyənlərin də sayı xeylidir. Məsələn, Şirvan torpağında mamaçalar çətin doğan hamilə qadını su kənarına aparıb belə bir ovsun oxuyardılar:

Xızır Nəbi, Xızır İlyas
Bəndəni bənddən et xilas.

Belə qadın körpəsini yüngüllüklə dünyaya gətirərmiş. Su kənarı yaxın deyilsə, hamilə qadının qənşərinə mis qırx-açar çamında su gətirər və yuxarıdakı ayini icra edərlərmiş (79, s.128).

Xüsusilə, mövsüm və mərasim nəğmələrində Xızır peyğəmbər demək olar ki, ilkin yerlərdən birini tutur. Belə ki, istər inanclar, oxunan dualar, icra olunan ayinlər, istərsə də fallar baxımından Xızırla bağlı örnəklərin sayı xeylidir. Bunların içərisində Xızır gecəsində baxılan fallar məxsusilik təşkil edir. Təbiətin canlanması, istilərin düşməsi, yazın gəlişi ilə əlaqədar dörd ünsürün - ab, atəş, xak, badın (su, od, torpaq, yel) Xızırla bağlılığı Azərbaycan folklorunda daha dərin kök salmışdır. Belə ki, Xızır Nəbi bayramında səhər su kənarına gedib arzu

deyərlər, lal sudan evlərinə aparardar, həmin suda fala baxarlar. Fallar digər türk xalqlarının folklorunda da geniş yayılıb.

Anadoluda ən çox yayılan fal soğan falıdır. Bu falda göstərilir ki, yaşıl soğanın 2 yarpağı eyni boyda kəsilir, birinə ağ, digərinə isə qırmızı iplik bağlanılır. Səhəri gün durub həmin soğanlara baxanda hansı yarpaq daha çox uzanıbsa, həmin ilin uğurlu və uğursuz olduğu bununla ölçülür (121, s.182).

Azərbaycanda da axırıncı çərşənbə günü baxılan yumurta falı, haqqında danışdığımız soğan falına yaxındır. Türkiyədə Xızırın mal, mülk və sərvət gətirəcəyi, tale açmaq bacarığı kimi inamlar da yaşamaqdadır. Deyilənə görə, Xıdırelləz sabahı hərə evindən öz köynəyini götürərək bir evə toplayır. Öncə bir yerdə süd və ya südlü qəhvə içilir. Sonra kiçik qız uşağı köynəyin yanında oturdulur. Xızır Əleyhissalama dualar və əcdada fatihələr oxunur. Kiçik qız əlini köynəyə salaraq bir-bir içərisindəkiləri çıxarmağa başlayır. Çıxarıldıqca yerdə mahnılar oxunur. Hər əşyanı götürəndə söylənilən mahnı həmin əşya sahibinin bəxtinə yozulur (121, s.10).

Yeri gəlmişkən qeyd edək ki, bu fal, adət, inanclar və digərləri ayrı-ayrı bölgələrdə müxtəlif adlarla tanınmaqdadır. Məsələn, İstanbul və Bursada "bəxtaçma", Balıkəsir tərəflərdə "dağara üzük atma", Berqamada "martafal gömləyi", Əski şəhərdə "küpdən qədəh çəkmə" kimi adlarla tanınır. Bu fal Azərbaycanda kasayla falabaxmaya bənzəyir. Belə ki, yenə axır çərşənbə günü qızlar bir yerdə yığışıb bulaqdan lal su gətirərlər, suyu kasaya töküb hərə öz üzüyünü suyun içinə atar. Bayatılar oxumaqla üzüklər bir-bir sudan çıxarılar. Üzük çıxarılan zaman hansı bayatı deyilərsə, bu, üzük sahibinin qismətinə yozular.

Xızır peyğəmbərlə bağlı başqa inanclar da mövcüddür. Ahmed Yaşar Ocaq bunları aşağıdakı kimi qruplaşdırır:

1. Xıdırelləz günü və gecəsi havada bulud olmaz.
2. Xıdırelləz günü günəş çıxmazdan əvvəl yataqdan qalxmayanın işləri düz getməz, yaxud xəstələnər.
3. Xıdırelləz günü işə getməzlər – uğursuzluq gətirər.
4. Xıdırelləz günü yelləncəkdə yellənməyənin beli ağrıyar.
5. Xıdırelləz günü dəmir tutmaq uğursuzluq gətirər.
6. Xıdırelləz günü meyvə verməyən ağaclar kəsiləcəyi ilə qorxudularsa, meyvə verər.
7. Xıdırelləz günü ev işi görən hamilə qadının uşağı şikəst olar (126, s.153).

Yuxarıda göstərilən misallardan, nümunələrdən göründüyü kimi eyni formada örnəklər türk xalqları içərisində, o cümlədən Azərbaycanda yaşamaqdadır. Lakin onlar arasında xırda dəyişikliklər nəzərə çarpır. Bu da həmin xalqların müəyyən müddətə bir-birindən aralı düşməsi, yerli şərait və şifahi xalq ədəbiyyatının ağızdan-ağıza, dildən-dilə keçərək müəyyən dəyişikliklərə məruz qalması ilə bağlıdır. Onu da qeyd edək ki, Xızır peyğəmbərlə bağlı bəzi inamlar, fallar bir çox türk ellərində Xızır gecəsi yerinə yetirilir. Azərbaycanda isə bu, Novruz bayramı ərəfəsində icra olunan müxtəlif silsilə mərasimlər arasında bölünmüşdür. Vaxt keçdikcə Azərbaycanda Xızır Nəbi bayramı sıradan çıxmağa başlamış, ancaq bəzi kəndlərdə qalmışdır. Lakin həmin ayinlər dörd ilaxır çərşənbələr zamanı icra olunur. Bunların hər birində Xızırın həmin çərşənbəyə müvafiq mərasimləri, fal və ayinləri qeyd olunur. Görünür, bizdə Xızır bütün Novruz bayramı ərəfəsində gündəmdə qaldığı üçün və hər çərşənbə onun adı ilə əlaqədar olduğuna görə bu mərasimlər də həmin arada müvafiq olaraq paylanılmışdır.

## Folklorda Xızırın təsnifləşdirilməsinə dair

Xalq inanclarına, əfsanə və rəvayətlərə, digər folklor nümunələrinə əsaslanaraq Xızırın fiziki cizgilərini, portretini təsvir etmək olar. Əsasən dilənçi (bu, xüsusilə Türkiyə türklərində yayılıb), kasıb dərviş, ağ saqqallı, nur üzlü bir ixtiyar cildində dolaşan bu şəxsiyyətin bir sıra əlamətlərindən onun Xızır olduğunu zənn etmək mümkündür. Məsələn, şəhadət barmağı ilə orta barmağı eyni boydadır, barmaqlarından biri sümüksüzdür (105, s.53). P.N.Boratav da Xızırın əllərinin ağ, sümüksüz və yumşaq olduğuna aid bir inancdan söhbət açır. Qara Namazov da yazır ki, Xızırın əlinin biri dümağdır, bəzən qoynunda olur (69, s.46).

İnanclara görə o ikinci dəfə qarşılaşdığı adamlara "Dilə məndən nə dilərsən?" şəklində müraciət etdiyi halda onun Xızır olduğunu bilmək olar. Deyilənə görə, o eyni insanın gözünə hər dəfə başqa cilddə görünər.

Bəzi mənbələrdə isə deyilir ki, o dünyanın əvvəlindən axırınadək bütün qapıları ziyarət edər. Kim savab adamıdırsa, onu görüb tanıyır (69, s.46).

Professor S.Paşayev Xızırı üç formada – Xıdır Nəbi, Xıdır İlyas və Xıdır Zində (Xıdır Nəbi qurunun sahibidir, Xıdır İlyas su və yaşıllıq məbududur, Xıdır Zində buzda ocaq qalayır) (79, s.128), M.Seyidov isə Xıdır Nəbi, Xıdır İlyas və Xıdır Elləz kimi təsnifləşdirir. Xızırın bu cür müxtəlif variantlılığı həm də regional xarakter daşıyır. Məsələn, Xıdır Zində ilə bağlı örnəklərə daha çox Siyəzən, Dəvəçi, Quba, Xaçmaz bölgələrində, Xıdır Elləzlə bağlı nümunələrə isə Qazax, Ağstafa, Daşkəsən, Gədəbəy bölgələrində rast gəlinir. Xıdır İlyas və Xıdır Nəbi isə daha geniş yayılmışdır.

Əvvəlki fəsil və bölmələrdə deyilənlərə əsaslanaraq Xızır və Xıdır adının eyni bir ad olduğu aydınlaşır. Güman ki, ərəb dilində Xıdır deyilən peyğəmbərin adı Azərbaycan dilində Xızır fonetik variantında işlənmişdir. Belə ki, Azərbaycanca –z ərəbcədəki –dz hərfi ilə bir növ eyni səsləşmə təşkil edir. Bəllidir ki, türk dillərində də –z və –d hərflərinin səsləşməsi qanunauyğundur. Eyni zamanda folklor nümunələrində, eləcə də dilimizdə vaxt keçdikcə müxtəlif sözlərdəki hərflərin fonetik dəyişikliklərə uğraması rast gəlinən haldır.

Azərbaycanda da, digər türkdilli xalqların yaradıcılığında da gah Xızır, gah da Xıdır adına rast gəlirik. Eyni nümunələrdə gah Xızır Nəbi, gah Xıdır Nəbi, həm Xıdır İlyas, həm Xızır İlyas adının çəkilməsi də dediklərimizə sübutdur. Xıdır İlyas adı bu variantlar içərisində daha çox rast gələnəndir. Yaşamaqda olan əfsanələrə görə İlyas suyun, Xızır isə qurunun sahibidir. Nizami Gəncəvi də öz "İqbalnaməsi"ndə onların hər birinin ayrıca fərd olduğunu deyir:

Çöldə Xızr ollam, dənizdə İlyas (45).

Hətta Nizami Gəncəvinin yazdığına görə, Isgəndəri zülmətə həm Xızır, həm də İlyas aparmışdır.

Bəzi əfsanələrə görə Xızır İlyasın oğludur. Dünyanın üç payı su olduğu üçün ata bu işi öz öhdəsinə götürür, sulara sahiblik edir. Dünyanın yalnız bir payı quru olduğuna görə torpağa sahiblik etməyi Xızıra tapşırır. Görünür Xızır adına yalnız Qurani-Kərimdə, İlyas adına isə daha əvvəllərdə rast gəlindiyinə görə xalq belə ehtimal edir, onların eyni şəxs olduğunu zənn etmirlər. Bir sıra nümunələrdə çox vaxt onlar bir yerdə olur, məsləhətləşərək, bəzi işləri birgə icra edirlər. Ola bilər ki, buna görə də xalqın sonrakı təsəvvürlərində bu adlar birləşib bir ad olmuşdur –deyən mənbələrə də rast gəlmək mümkündür.

Azərbaycan folklorşünası M.H.Təhmasib Xıdır-İlyasdan danışarkən onları əski midiyalıların fravaşları ilə əlaqələndirir: “Xıdır, yaxud Xızır əslində yaşıllıq məbudu, İlyas isə su məbududur. Bəllidir ki, susuz yaşıllıq ola bilməz, yaz bunların birləşməsi ilə başlana bilər”.

Sədnik Paşayev isə Xızır İlyası Xızır Nəbidən və Xıdır Zindədən ayırır. Bunların hər birinin ayrı-ayrı obrazlar olduğunu söyləyir. Göstərir ki, Xəzər dənizinin adı əslində Xızır İlyas ilə bağlıdır. Xızır İlyas istədiyi vaxt dəniz üzərindən keçib-gedir, amma batmır. Və bu özəlliyindən irəli gəlir ki, o suda batanlara, dara düşənlərə kömək edə bilir (Sədnik Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı).

Bəzi folklor nümunələrində göstərilənlərə görə onlar 3 qardaşdırlar. Xıdır Zində, Xıdır İlyas, Xıdır Nəbi. Ona görə də el arasında “işin bərkə düşəndə Xıdır Zindəni, suda Xıdır İlyası, quruda Xıdır Nəbini çağır” deyərlər. Axısqa türklərində isə Xıdır iki – Xıdır İlyas və Xıdır Elləz olaraq düşünülür (65, s.154).

Səməd Vurğun dirilik suyunu öz “Bulaq əfsanəsi”ndə Azərbaycana gətirdiyi kimi, Sədnik Paşayev də Xızırın Azərbaycanla bağlılığını xüsusi diqqətə yetirir. Onun fikrincə Xızır İlyas Xəzər dənizindədir, Xıdır Zində Beşbarmaq dağında, Xızır Xızı dağlarında, Diri baba Şamaxıda, Xızır Nəbi isə Şirvandadır. Başqa sözlə onlar 5 qardaşdırlar. Hamısının da adı Azərbaycanla bağlıdır. (Sədnik Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı)

İlyasın adının mənası ilə bağlı digər bir ehtimal da maraqlıdır. Professor Qara Namazov yazın gəlişi, Novruz bayramı ilə bağlı yazdığı məqalələrindən birində bu mənaya diqqət yetirir. Novruz bayramının istər şifahi ədəbiyyatda, istərsə də yazılı ədəbiyyatda geniş tərənnüm olunduğunu yazan

professor İlyasın adının bəzi qaynaqlarda “ilin yazı” mənasını bildirdiyini qeyd edir. Və göstərir ki, Tövratda xatırlanan İlyas məhz eyni mənanı daşıyır. Ona görə də əfsanəvi olan və ilk peyğəmbərlərdən sayılan, yazı – yaşıl ayı təmsil edən yaşıl donlu Xızır (Xıdır) istilik rəmzi olaraq məhz mifdə Xıdır İlyas adını daşıyır (70, s.3).

İlyas haqqında bir çox türkdilli xalqlar arasında bəzi əfsanələr var. Bu əfsanələr onu müəyyən dərəcədə türkdilli xalqların əski əsatiri təfəkkürləri ilə bağlayır. Türk əfsanələrindən birində deyilir: “İlyas, qəbiləsinin yolunu təkrar azdığını görür və şəhərdən çıxır. Allaha dua edir. Allah “filan şəhərə get, filan gündə nə görürsən, qorxma, onun üstünə min” - deyə əmr edir. İlyas əmr olunan yerə gedir. Atəşdən bir at görür. Ona minir və gözdən qeyb olur. Allah onu mələklik məqamına yüksəldir. Qiyamətə qədər ona ömür verərək dənizlər üstündə ağa, hakim edir (112, s.1131). Göründüyü kimi, burada İlyas Xızırla eyni – əbədi ömür qazanmış şəxs kimi verilir.

Bir çox ovsunlarda xalqın İlyasa müraciətlə balasını azad etməsini istəməsi, onun məhz su kənarına aparılması İlyasın su ilə bağlı olmasına və İlyasın su məbudu olmasına işarədir. Burada həm Xıdıra, həm İlyasa müraciət olunması göstərir ki, xalq onların hər ikisinin – su və torpaq məbudlarının birgə köməyinə ehtiyac duyur. Mirəli Seyidov da bu barədə belə deyir: “...yaşıllıq, həyat, doğum, artım (toxumun göyərməsi, artması və i.a) rəmzidir. Elə buna görə də xalq onu həm də ailə, gənclik, məhəbbət məbudu kimi qəbul etmiş, doğulanın və doğanın sağlamlığı üçün hər iki məbudun yardımına sığınmışdır” (85, s.59).

Bəzən İlyasla Xızır hər ikisi eyni vaxtda meydana çıxır. XI əsrdə Danişməndli Dövlətinin qurucusu Battal Qazidən bəhs edən “Battalnamə”, türkmənbaşı olan Sarı Saltukdan bəhs

edən “Saltuknamə” (Bax: La Gerle de Metik Danişmend, I və II cilddə) (122, s.186) və digər əsərlərdə həm Xızır, həm də İlyas görünür. Dastanda Xızır, Battal Qazinin qılıncından qurtarmaq üçün qaçan kafirlərin önünə çıxıb müsəlmanlığı qəbul edərlərsə, ölümdən qurtaracaqlarını deyir. Onlar da Xızırın sayəsində islamı qəbul edib ölümdən qurtarırlar.

“Battalnamə”də eyni zamanda İlyasın da adı çəkilir. Battal Qazi kafirlərə islamı qəbul etməyi təklif edəndə onlar, ancaq Battal Qazi ölüləri dirildərsə, müsəlmanlığı qəbul edəcəklərini bildirirlər. Əlacsız qalan Battal Qazi onlardan möhlət istəyib dərdini dayısına danışır. Öyrənir ki, dərdinə ancaq İlyas kömək edə bilər. O, “Dəniz ortasında bir adada” yaşayan İlyasa pənah aparır. Nur üzlü, ağ saqqallı bir ixtiyar cildində İlyas onun qarşısına çıxıb bir dua öyrədir. Qazi bu dua sayəsində ölüləri dirildib, kafirlərə müsəlmanlığı qəbul etdirir (126, s.188).

Buna bənzər əhvalata “Saltuknamə”də də rast gəlinir. Saltuknamədə bir neçə dəfə Xızırın Sarı Saltuku xilas etməsinin şahidi oluruq. Döyüşlərin birində yaralanan Saltuk öləcəyini hiss edərək Allaha yalvarır. Birdən Xızır hazır olur. Kafirləri darmadağın edərək Saltuku qurtarır.

Dastanın digər yerində isə Saltuku yaralayan kafirlər onu yandırmaq istəyir. Tam onu atəşin üstünə atmağa hazırlaşdıqları an Xızır yetişir və Saltuku xilas edir. Onlar oturub söhbət etdikləri vaxt İlyas da gəlib ora çıxır (126, s.188). Düzdür, burada İlyasın heç bir funksiyası yoxdur. Ancaq yenə də dastanda Xızırla birgə o da görünməkdədir. Bu da göstərir ki, xalq ədəbiyyatında Xızırla İlyas gah eyni şəxs kimi, gah da ayrı-ayrı şəxslər kimi iştirak edir. Anadolu türklərinin inamına görə Xızırın İlyasla görüşdüyü gündə kainat yenidən təzələnir, yeni bir həyat və bərəkət qazanılır (65, s.152). İlyasla bağlı Azərbaycan əfsanələrində də bəzi məlumatlar var. Cüman ki,

Xızır və ya İlyas peyğəmbərə olan məhəbbətdəndir ki, xalq onun adına nəğmələr qoşub onunla bağlı folklor örnəkləri yaratmışdır. Tarixi inkişaf prosesində bu nümunələr bəzi dəyişikliyə uğramış, ayrı-ayrı variantları əmələ gəlmişdir.

Xızırın insanlara hər an dayaq olması, onun köməyinə yetişməsinə inamın səbəbidir ki, insanlar onu hər an gözləyir. Digər tərəfdən, onun hər dəfə başqa cildlərdə görünməsi müxtəlif deyimlərin və inamların yaranmasına səbəb olmuşdur. Məsələn, Türkiyə türklərində belə bir misal var. "Hər gecəni qədir, hər gördüyünü Xızır bil". O bəzən nur üzlü, ağ saqqallı, hündür boylu, mulayim bir simada gözə görünsə də bəzən kasib, çirkin, dilənci kimi görünər. Ona yardım edənlərə dua edərsə azar-bezardan uzaq olar, ruzi bərəkəti artar, bəd dua edərsə, pərişan olarlar (111, s.410).

Buna görə də qarşına çıxan insanın zahiri görünüşünə aldanıb sayğısızlıq etmək olmaz. Burada Xızıra hörmətlə yanaşı, həm də insanlara bir növ çağırış var. Yəni hər kəs gününü o qədər savab dolu, dualarla, alqışlarla bol keçirməlidir ki, sanki müqəddəs Qədir gecəsini yaşayır. Hər gördüyü insana o qədər ehtiram etməli, onu hörmət-izzətlə qarşılamalıdır ki, sanki Xızırdır. Xalqın Xızıra olan bu hörmətindən böyük hörmət, ehtiram ola bilməz.

Xızırın variantlarından biri olan Xıdır Zindənin adına isə demək olar ki, yeganə olaraq Azərbaycan folklorunda rast gəlinir. Bu ad daha çox Dəvəçi, Siyəzən, Quba, Xaçmaz və digər rayonlarda daha çox yayılıb. Hətta Siyəzən rayonunda Xıdır Zində dağı günü bu gün də ziyarət yerinə çevrilib. Rəsmi mənbələrdə Beşbarmaq adı ilə məşhur olan bu dağ el arasında Xıdır Zində dağı kimi tanınır (Şəkil 4-5). Indi də övladsızlar, ürəyində arzuları olanlar istəyinə çatmaq üçün Xıdır Zində babanı – Piri ziyarət edir, ondan arzularına çatmağı diləyirlər

(Şəkil 6-7-8). Guman ki, ona olan bu ümid də xalqın yaddaşına hopmuş, türk inanclarında məxsusi yer tutan Xızırın gənclərin hamisi, xilaskarlıq, övlad vermə funksiyaları ilə bağlıdır. Burada bir məsələ də diqqəti cəlb edir. Nə üçün bu dağ Xıdır Zində dağı adlanır? Bunu Qurani-Kərimin 18-ci Əl-Kəhf (Mağara) surəsinə yazılanlara əsaslanaraq belə adlandırdıqları güman edilə bilər. Belə ki, həmin surənin 60-61-ci ayələrində deyilir ki, Musa peyğəmbər gənc dostu Yuşə-Ibn Nuna deyir ki, Xızırla görüşmək üçün iki dənizin qovuşduğu yerə çatmayınca geri qayıtmayacaq. Deməli, Xızırla görüşmək üçün Musa iki dənizin qovuşduğu yerə getməlidir. Digər tərəfdən həmin ayədə daha bir məsələ də göstərilir: "Onlar iki dənizin qovuşduğu yerə çatdıqda yeməyə götürdükləri balığı unutmuşdular. Balıq isə dirilib suya atılmış, dənizdə bir yarğana tərəf üz tutmuşdu" (60, s.270).

Göstərilən misalda Xızırın məkanı təsvir olunur. Sonrakı ayədə isə onların görüşmələrinə işarə olunur. Musa balığın dirildiyini: "Elə istədiyimiz də (axtardığımız da) budur dedi və ləpirlərin izi ilə gəldikləri yolla geri (iki dənizin qovuşduğu yerə) qayıtdılar" (60, s.271). Bəzi inaclar və deyimlərdə həmin iki dərya arası, balığın dirildiyi və Musa ilə Xızırın görüşdüyü yerin məhz indi Xıdır Zində baba dağı adlandırılan dağ olduğu söylənilir.

"Xıdır Zində ziyarətgahına bizim azərbaycanlılar tez-tez gəlir. Onlar peyğəmbəri ziyarət edir, burada öz mətləblərinə çatmağı diləyirlər. Amma onu da deyim ki, bura yəhudilər də gəlir. Onlar isə Musa peyğəmbəri ziyarət üçün gəlirlər. Həmin dənizlər isə dağa daha yaxın olan Xəzər dənizi və Qara dənizdir" (Şəkil 12). (Məşədi Məhərrəm Məhərrəmov, 1950, Siyəzən, Xıdır Zində ziyarətgahının mücörüsü) (Şəkil 13).

Xalq arasında Xıdır Zində haqqında yayılan əfsanələr isə müxtəlifdir. Onlardan birində deyilir ki, onlar 5 qardaş olublar. Digərində isə deyilir ki, Xıdır Zində buzda ocaq qalayır. Daha başqasında isə göstərilir ki, Xızır düyünü yerə tökür. Bunun günah olduğunu başa düşür və anasının gəlib onu danlayacağından qorxaraq dağa çıxır və Allaha yalvarır ki, onü daşa döndərsin. Allah da onu daşa döndərir (Fatma Nağı qızı Əliyeva, 1930, Gəncə şəhəri) (Şəkil 2).

Qeyd edək ki, Xıdır Zində dağının Xızır peyğəmbərlə bağlılıqları çərçivəsində həm də İlyasın adı çəkilir. Dağın başından baxanda yaxınlıqdakı dənizin içərisində bir daş da görünür. El arasında bu daş İlyas daşı adlanır. Əfsanəyə görə bir gün Xızır qardaşlarından birini - İlyası su gətirməyə göndərir. İlyas isə xəlbirlə su dalınca gedir. Nə qədər su doldurmaq istəyirsə xəlbir dolmur. Xızır isə nə qədər gözləyirsə qardaşı gəlib çıxmır ki, çıxmır. Axırda Xızır əsəbləşib İlyasa qarğış edir, deyir – səni görüm daşa gönəsən. Elə o dəqiqə İlyas daşa dönür. İndiyədək də həmin daş dənizin ortasındadır (Seyid Əşrəf Həsənov, 1944, Siyəzən). Fikir versək görərik ki, burda verdiyimiz bu bir neçə əfsanə Xızırla bağlı ənənəvi əfsanələrə uyğun gəlmir. Belə ki, adətən əfsanələrdə üstünlük təşkil edən ideyalar Qurani-Kərimdə və digər səmavi kitablarda təsvir olunan Xızırın məziyyətləri, funksiyaları ilə üst-üstə düşür. Sonuncu əfsanələrdəki fikirlər isə daha bəsitdir.

Burada bir məsələyə də xüsusilə diqqət yetirmək yerinə düşər. Respublikamızın şimal rayonları, şəhər və kəndlərində Xızır peyğəmbərlə bağlılıq, xüsusilə onun adının sanki əbədiləşdirilməsi diqqəti çəkir. Belə ki, istər Səməd Vurğunun yuxarıda bəhs etdiyimiz əfsanəsində Dirilik bulağının Şirvanda təsvir edilməsi, istər Siyəzən rayonunun yaxınlığında yerləşən Beşbarmaq dağının Xıdır Zində ziyarətgahı adlandırılması

insanların bu ada xüsusi hörmətindən irəli gəlir. Hətta Xəzər dənizinin ziyarətgaha yaxın hissəsində suyun içərisində yerləşən daşa "İlyas daşı" adı verilməsi, əlavə olaraq Xızır peyğəmbərin şərəfinə belə adlandırıldığı güman edilən Həzrət Baba ziyarətgahı, Baba dağı, Diri baba ziyarətgahı və digər belə yerlər xalqın peyğəmbərə olan xüsusi məhəbbətindən xəbər verir. Eyni zamanda Xızı rayonu, Xızı dağlarının da Xızır peyğəmbərin şərəfinə belə adlandırıldığı güman oluna bilər. Burada 2 ehtimala diqqət yetirmək lazımdır. Birincisi, xalqın yaddaşındakı əfsanə və rəvayətlərə görə həmin ərazilər Xızırın oylağıdır. Xızır peyğəmbərin 2 dağın qovuşduğu yerdə yaşaması, dirilik bulağının bu ərazidə yerləşməsi, peyğəmbərin tez-tez buranın sakinlərinin gözünə görünməsi və digər irəli sürülən ehtimallar bu fikrə təkan verir. Bəzi deyimlərə görə, Xızır peyğəmbər daim bu yerlərdə gəzib-dolaşır. İkinci ehtimal isə sözün sırf mənası ilə bağlı ola bilər. Xızı rayonunun adının qədim Azərbaycan sözü olan və istilik, hərarət mənasını verən xız sözündən götürüldüyünü, həmin ərazilərin isti yerlər olduğu üçün belə adlandırıldığını da güman etmək olar.

Bu variantlardan biri də Xıdır Elləzdir. Yuxarıda qeyd etdiyimiz kimi bu variantlardan daha çox işlənəni Xıdır İlyas və Xıdır Nəbidir. Xıdır Zində isə yuxarıda dediyimiz kimi, daha çox Azərbaycanla bağlıdır. Xıdır Elləz də Azərbaycanda o qədər çox yayılmayıb və əsasən Daşkəsən, Ağstafa, Gədəbəy, Tovuz, Qazax rayonlarında işlədilir. Hətta Xıdır Nəbi bayramı orada Xıdır Elləz bayramı kimi tanınır. Bir çox türkdilli xalqlarda, o cümlədən Türkiyədə – krım, tatar, balkan, özbək, türkmən və digərlərində də daha çox bu ad (Hıdırelləz) məşhurdur. Xıdır Nəbi isə demək olar ki, ümumiləşmiş addır. Adın yanına heç bir əlavə qoşulmadan peyğəmbər kimi müraciət olunur (Nəbi peyğəmbər deməkdir).

Bütün bu variantlara daha dərindən yanaşılması və araşdırılması göstərir ki, bu adların hamısı bir şəxsə aiddir. Bu barədə daha ətraflı monoqrafiyanın nəticə hissəsində bəhs olunacaq.

## Xızırla bağlı folklor örnəklərinin yazılı ədəbiyyata təsiri

Azərbaycan yazılı ədəbiyyatında Xızır obrazı və onun folklordakı funksiyalarından demək olar ki, tez-tez istifadə olunur. Orta əsrdən başlayaraq müasir Azərbaycan yazıçı və şairlərinə qədər bir çoxları öz əsərlərində Xızırdan bəhs etmişlər. Azərbaycan poeziyasında da Xızır daha çox aşiqlərə kömək edən ilahi bir varlıq kimi göstərilir. Nizami, Nəsimi, Füzuli (Füzuliyə ilham və təxəllüs verən də bu övliyadır) (65, s.153), Xətai və başqaları Xızıra aşiqlərin hamisi, onların yardımına çatan bir sima kimi müraciət etmişlər. Dahi söz ustası Nizami Gəncəvinin, öz əsərlərində Xızıra böyük qiymət verdiyi, ona bir peyğəmbər, ilham mənbəyi kimi yanaşdığı qabarıq şəkildə hiss olunur. Yeri gəlmişkən qeyd edək ki, şair "Xosrov və Şirin" ilə "Yeddi gözəl"dəki kimi saray həyatı (çalğı) və (içki) məclislərinin incəliklərinə varıncaya qədər ən parlaq təsvirlərini belə bildiyi halda eyş və işrət məclislərinə getməmiş, ömründə bir dəfə də olsun ağzına "içki" almamış və ya öz ifadəsi ilə desək, o dodağı ilə ətəyini şəraba bulaşdırmamışdır. Bu dediklərimizi həm şair özü poemalarında qeyd etmişdir, həm də onun həyatı haqqında məlumat verən təzkirəçi və alimlər təsdiq etməkdədirlər.

"İsgəndərnamə"nin müqəddiməsində şair ilham qaynağı olan Xızır peyğəmbərə xitab edərək yuxarıda deyilənləri belə vurğulamışdır:

Ey mübarək Xızrın, sanma ki, mən,
Meyi qəsd etmədəyəm “mey” derkən.

Dediyim meylə özümdən keçərəm,
Bu keçişlə o gedər, aləm edərəm.

Tanrının vədi mənim saqimdir,
Qədəhim çəzbə, meyim sevgimdir.

Tutduğum həqq yolu and olsun kim,
Dəyməmişdir meyə ağzım, ətəyim.

Meyə verdiysə Nizami bir can,
Haqq halalı ona olsun da haram. (83, s.48).

Xızır peyğəmbərin ölümsüzlüyünün səbəbi və daim qeybdə olması “Xızır peyğəmbər və İlyas”, “Xızır peyğəmbər və İsgəndər” əfsanələrində daha aydın açılır. Sadalanan hər iki əfsanə N.Gəncəvinin “Isgəndərnamə”sində öz əksini tapmışdır. Bu əsərdə Xızır peyğəmbərin adı məhəbbətlə çəkilir və bildirilir ki, Xızır peyğəmbər Nizaminin yanına gələrək yeni bir vəzifəyə girişməsini məsləhət görmüşdür:

Cismani qulaqla duya bilməyən
Bir sirri mənə Xızır öyrətdi dünən -

beyti ilə başlanan bu hissədə şair:

Xızırın sözlərini eşidincə mən
Beynimdə bir xəyal doğdu yenidən.
Qəlbimdə yer tutdu qəbuldur deyə
Ürəkdən doğan söz yatar ürəyə –

deyərək “İsgəndərnamə”nin başlanmasına Xızırın “qonaq” gəlməsinin səbəb olduğunu açıqlayır.

Burada Nizami “Cismani qulaqla duya bilməyən” misrası ilə Xızır peyğəmbərin adının insanlar sayaq zahirdə deyil, batində, ruhda mövcudluğunu təsdiqləməyə çalışmışdır. Professor Bertelsin “İsgəndərnamə” (28) kitabında yazdığı müqəddimə də bu fikri isbatlayır. Baxmayaraq ki, professor burada Xızırı ilham ilahəsi, rəmz kimi qəbul edərək, onu Nizaminin daxili səsi adlandırmışdır. Lakin Bertels özü də etiraf etdiyi kimi Nizami əsərlərində heç vaxt boş fantaziyaya uymamışdır. O, Xızırı “Qurani Kərimdən” məlum olan peyğəmbər kimi qəbul etmiş və “Peyğəmbərin meracı”nda Xızırın Məhəmməd peyğəmbərlə yanaşı merac etdiyini bildirmişdir.

Nizami dirilik suyundan istifadə edərkən tez-tez İlyas və Xızıra müraciət edir. Xalq arasında kultları geniş yayılmış bu şəxsiyyətlərə münasibətini bildirir. Hətta dirilik suyunu İlyasla Xızırın birgə tapdığını söyləyir. O, yazır ki, dirilik suyunu Xızırla İlyas qəribə bir təsadüf nəticəsində tapırlar:

Bu yolda İlyasla Xızır yoldaşı,
Çeşməyə gedərkən dostlar yanaşdı.
Görüşdü hər iki sevimli rəhbər,
O bulaq başında açdılar süfrə.
Çeşməyə çatınca atdan endilər.
Bulaq başı verdi dad yeməklərə.
Süfrəyə çörəkdən ətir qalxardı,
Birisi əyildi su içsin deyə,
Əlindən o balıq düşdü çeşməyə,
Cumdu o füruzə rəngli bulağa,
Əl atmaq istədi üzən balığa.
Tutunca gördü ki, diridi artıq.

Uğurlu bir fala sevindi artıq.
Bildi ki, can verən bu parlaq bulaq
Aranan dirilik suyudur ancaq (46, s.351).

Görünür, Nizaminin istifadə etdiyi bu əfsanədə Xızırın Musa peyğəmbərlə yoldaşlığına işarə olunur. Çünki əfsanənin süjet xətti, daha dəqiq desək, balığın dirilməsi hadisəsi Qurani-Kərimdə göstərilən quru balığın dirilməsi səhnəsi ilə üst-üstə düşür.

Maraqlıdır ki, Nizami İlyasla Xızırın vəzifələrini də göstərir. Şair onların hər birinin ayrı-ayrı obraz olduğunu deyir:

Xızr, İlyas kam aldı həyat suyundan,
Ancaq vermədilər özgəyə nişan.
Biri kam alaraq döndü səhraya,
Biri də içərək cumdu dəryaya (44, s.351).

Nizami Gəncəvi yaradıcılığına diqqət yetirdikdə görmək olar ki, o “Xəmsə”də tez-tez sitat gətirdiyi Xızırın, onun elminin, kamilliyinin vurğunudur. Hətta hikmətamiz şeirlərində, nəsihətlərində belə onun bacarıqlarından bəhs edir. Xüsusilə oğluna nəsihət bölmələrində biz Xızra – Nizami şeirlərində Xızır daha çox Xızr kimi qeyd olunur – müdrik, bilici, batini elm sahibi kimi müraciət edildiyinin şahidi oluruq. “Yeddi gözəl” əsərində oğluna nəsihət edən Nizami yazır:

Tanı Xızr kimi özünü, gəl sən
Dirilik suyundan bəlkə içəsən
Düşünmə ki, bu su abi-heyvandır,
Can ilə ağıldır, ağılla candır.

Beytdən göründüyü kimi, oğluna nəsihət verən Nizami Məhəmmədə Xızır kimi ağıllı olmağı tövsiyə edir. Bildirir ki, Xızırın dirilik suyunu içib dirilik qazanması ona hədiyyə olaraq verilməmişdir. Xızırın öz dərrakəsi və ağlı sayəsində nəsib olmuşdur.

"Sirlər xəzinəsi" poemasında da oğluna nəsihət edən "Nəsihət və son söz" bölməsində Nizami Xızırın hər an gözə görünə bilmək, qeyb olmaq bacarığından bəhs edir.

Bütün örtülmüşlər bir də zahirdir,
Xızr adını çəkdin, Xızr hazırdı.

Nizami Gəncəvi burada Xızırın dara düşəndə onu köməyə çağıranlara yardım etməsinə, çətin anda ona sığınanların dadına çatmasına, sonra yenidən qeyb olmasına işarə edir.

Azərbaycan ədəbiyyat tarixində fəlsəfi şerimizin əsasını qoymuş İmadəddin Nəsimi poeziyasını diqqətlə izlədikdə görürük ki, öz fikir və ideyalarını təbliğ etmək üçün şair tez-tez müqəddəs kitablara, dini rəvayətlər, peyğəmbərlər və onların yerinə yetirdiyi funksiyalara müraciət etmişdir. Belə peyğəmbər obrazlarından biri də Xızırdır. Məlumdur ki, folklorumuzda Xızır peyğəmbər haqda müxtəlif rəvayətlər və əfsanələr var. Belə rəvayətlərin biri – Xızırın dirilik suyu içərək əbədiyyətə qovuşması haqqında olan rəvayəti Nəsimi öz əsərində ümumiləşdirərək belə göstərir:

Xızır kibi içdi həyat abını,
Canu təni cümləsi oldu bəqa (75, s.19).

Digər yerində:

Çün Xızır həyati əbədi istər isə gəl,
Can təndə ikən çeşmeyi-heyvan tələb eylə.

Nümunələrdən göründüyü kimi hər iki beytdə Xızırın ölümsüzlüyünə işarə edilir. Folklorşünas Nizami Xəlilov Nəsiminin əsərlərində tez-tez Xızırla bağlı rəvayətlərə toxunmasının səbəbini belə izah edir (51, s.29-30).

Onun fikrincə, misal gətirilən birinci beytdə o yalnız Xızırın dirilik suyunu içib əbədiyyətə qovuşmasına işarə edir. İkinci beytdə isə rəvayəti xatırlatmaqla bərabər, eyni zamanda insanlar qarşısında tələblər qoyur: əgər Xızır kimi ölümsüz həyat istəyirsənsə, gəl, can bədəndə ikən dirilik suyu ara. Bu isə insanın həyatdakı əməlidir. İnsan ölümsüzlüyü, əbədiliyi öz əməlləri ilə qazanmalıdır. Burada da şairin ideal insan konsepsiyası ön plana çəkilir.

Nəsiminin şeirlərində həm də Xızırın qaranlıq dünyanı tapa bilən yeganə şəxs olduğu da nəzərə çatdırılır. Şair göstərir ki, hər kəs o yolu qət edə bilməz. Məhz Xızırdır ki, öz elminin, idrakının gücü ilə buna nail olmuşdur. Hürufiliyə görə ağıl, idrak, hiss hər şeydən üstündür. İnsan öz arzusuna, istəyinə idrakının, ağlının gücü ilə çata bilər. Şair bunu öz diliylə belə ifadə edir:

Xızr həmrah ola gör, ta biləsən elmi lədün
Sana məlum ola bu qissədən əxbar nədir? (75, s.184)

Nəsimi bu beytdə göstərir ki, Xızırla yoldaş olmayan ilahi ilham yolu ilə öyrənilən batini biliklər olan lədün elmini öyrənə bilməz. O elm ki, Qurani – Kərimdə göstərilir: "biz ona (Xızıra) qeybə və batinə dair bəzi biliklər vermişik".

Yuxarıda misal çəkilən beytdə Xızırın Musa peyğəmbərlə yoldaşlığına işarə olunur. Qeyd edək ki, Nəsimi əsərlərindən misal gətirdiyimiz bəndlərdə Xızırın dini kitablarda göstərilən funksiyalarına daha çox yer verilir. Belə ki, digər

şairlər daha çox onun folklorda göstərilən aşiqlərə kömək, yol azmışlara yardım və digər funksiyalarına müvafiq müraciət edirlərsə, Nəsimi onun Qurani-Kərimdə göstərilən funksiyaları çərçivəsindən kənara çıxmır.

Şah İsmayıl Xətai "Dəhnamə"nin "Aşiqin səbanı axtarması" fəslində (şairin fikrincə, Xızırın mədədçisi sayılan) küləyə belə müraciət edir:

İsadəmmü xoşzəban nəfəssən,
Kim qalsa piyada sən fərəssən;
Ey Xızra mədədçi həm aradə,
Yetir bu fəqiri sən muradə (52, s.41).

Deməli, Xızır və onun mədədçisi külək aşiqi "murada yetirəndir". Başqa sözlə, onu yarına çatdırandır. Burada da açıq - aydın görünür ki, Xızırın dada çatan, imdada yetən, gənclərin hamisi, aşiqlərə kömək edən funksiyaları Xətayiyə bəlli idi. Qövsinin şeirlərinə müraciət edək:

Ey Xızır eşq kuyinə yarın apar bəni
Kim, bəski sərxoşam, rəhi-meyxanə bilməzəm (67, s.93).

Qövsi Divanın digər yerində də:

Yüzü yetişdi mənzilə məndən soraq alan
Ey Xızır, bən hənuz biyabanda qalmışam (59, s.114).

"Aşıq sənəti... xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını, xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir. Aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır: "...Aşıq sənəti xalqın öz yaradıcılığıdır (63, s.253). Aşıqlar həmişə xalq kütləleri içərisində yaşamış, xalqın həyat və mübarizəsi, onların yara-

dıcılığı üçün bir mənbə olmuşdur. Bu el sənətkarları əsrlər boyu xalqın kədəri ilə kədərlənmiş, sevinci ilə sevinmişdir. Azərbaycan kəndlərində heç bir toy, şadlıq məclisi aşıqsız keçməmişdir".

Məlumdur ki, xalq şerinin ən ümdə xüsusiyyətlərindən biri onun müəllifinin məlum olmamasıdır, ümumən xalqa aid edilməsidir, daha ətraflı şərh etsək, hər bir nümunəni yaradan müəllifin əsərlərinin şifahi yaşama prosesində adının unudulmasıdır. Onu da qeyd edək ki, aşıq şeri xalq ədəbiyyatı janrları içərisində ən çox müəllifi məlum olan nümunələrdir. Belə ki, hər bir aşıq şerinin sonunda onu yaradan müəllifin adı, təxəllüsü verilir. Bu cəhət aşıq poeziyasını yazılı ədəbiyyata yaxınlaşdırır. Tanınmış el aşıqları da tez-tez Xızıra müraciət edir, onun adını çəkirlər. Bəzən onlar Xızırın funksiyalarına söykənərək onu imdada çağırır, bəzən də onun əfsanə və rəvayətlərdə göstərilən məziyyətlərinə müraciət edirlər.

Molla Cümənin "Cümə və Könül" dastanında aşağıdakı nümunələrə diqqət edək.

Molla Cümə:

O nədir Nuhun gəmisin deşdi,
O nədir otların şirinin seçdi,
O nədir ki, abi-həyatdan içdi,
Bilinməz məkanı, hardadır yurdu?

Aşıq Könül:

Kəsəyəndir Nuhun gəmisin deşdi,
Arıdır otların şirinin seçdi
Xızırdır Abi-həyatdan içdi.
Bilinməz məkanı, hardadır yurdu.

Yuxarıda göstərilən nümunələrdə də Xızır aşiqlərə kömək edən, imdada çatan, qeybanə biliklərə sahib olan, dirilik suyunu içib ölümsüzlük qazanan obrazdır. Əgər belə olmasaydı, nə Xətai, nə Qövsi, nə Fizuli, nə Nizami kimi dahi və adlarını çəkmədiyimiz başqa Azərbaycan şairləri Xızır İlyasdan aşiqlərə kömək əlini uzatmasını, darda olanların dadına çatmasını diləməzdi. Eyni zamanda bu onu göstərir ki, Xızırın funksiyaları yazılı ədəbiyyata da təsirsiz ötüşməyib.

## Xızırla bağlı fərziyyələrdən həqiqətə. Folklorda peyğəmbər obrazları

Peyğəmbərlər haqqında məlumatlar dövrümüzə daha çox əfsanə, rəvayət və məsəllər kimi gəlib çatmışdır. Belə ki, Adəm peyğəmbərdən tutmuş bütün peyğəmbərlərin həyatı, onlar haqqında məlumatlar az və ya çox dərəcədə bu əfsanə və rəvayətlərdə əks olunub. Lakin qeyd etmək lazımdır ki, bütün peyğəmbərlər yaddaşlarda eyni dərəcədə qalmayıb. Folklorda da onların hamısı haqqında məlumat yoxdur. Bəhs olunanların da demək olar ki, ancaq əfsanələrdə adı çəkilir. Onlardan Adəm, Nuh, İbrahim, İsmayıl, Davud, Yusif, Xızır, Süleyman, Musa, İsa, Məhəmməd və başqa peyğəmbərlər barədə xalq arasında müxtəlif əfsanələr yaşamaqdadır. Yusifin gözəlliyi, Süleymanın müdrikliyi, İsa-Musa möcüzələri, Xızırın dirilik suyundan içməsi bədiiləşdirilərək nəsildən-nəslə ötürülmüş, məsəl və əfsanələr şəklində yaddaşlarda qalmışdır. Hətta el arasında "Süleymana qalmayan dünya", "Yusif yuxunu xeyirliyə yozsun", "Xızır kimi peyda oldu" və digər deyimlər də göstərir ki, peyğəmbərlər və onlara xas xüsusiyyət, bacarıq və məziyyətlər el arasında hələ də yaşayır.

Peyğəmbərlər içərisində Xızır peyğəmbər istisna olmaqla, folklorda nisbətən Süleyman haqqında örnəklər üstünlük təşkil edir. O, daha çox quşların dilini bilən, müdrik bir obraz kimi təqdim olunur. Süleyman peyğəmbərlə bağlı rəvayətlərdən birinə diqqət yetirək. Rəvayətdə deyilir ki, Süleyman peyğəmbər Bilqeyislə evlənmək istəyərkən qoca idi. Bilqeyis isə gözəlliyi, məğrurluğu ilə hamını valeh etmişdi. Buna görə də Süleyman peyğəmbər onu ala biləcəyinə o qədər də ümid etmirdi. Bilqeyis də Süleyman peyğəmbərin var-dövlətinə, cah-cəlalına baxmayaraq ona ərə getməyə tərəddüd edirdi. Qızın tərəddüdünü görən peyğəmbər ona çoxlu vədlər verir. Hətta hiyləyə də əl atır. Onu yaşadıqları isti yerlərdən sərin ölkələrə aparacağını vəd edir.

Süleyman peyğəmbər sərin yerlər axtarmaq üçün quşları hər tərəfə göndərir. Səhərisi gün bütün quşlar qayıdıb gəlir. Təkcə hüt-hütdən xəbər çıxmır. O, gün batandan sonra gəlib çatır. Süleyman peyğəmbərə baş əyib gecikməyinin səbəbini başa salır. Hüt-hüt deyir:

- Ey peyğəmbər, elə bir hündür yerə gedib çatdım ki, orada səhər tezdən qanadlarım dondu. Günortaya qədər gözlədim, hava isindi, qanadlarımın donu açıldı, uçub gəldim.

Belə bir sərin yerin tapılması peyğəmbəri sevindirir. O, Bilqeyisi götürüb bu uca dağa gətirir (50, s.29).

Bu rəvayətdə həm Süleyman peyğəmbərin çox varlı olmasına, həm də quşların dilini bilməsinə işarə olunur.

Süleymanın müdrikliyini göstərən "Süleyman məhkəməsi" adlı daha bir rəvayəti xatırlayaq: "Bir gün Süleyman peyğəmbərin yanına iki qadın gəlib onların arasında olan mübahisəni həll etməyi xahiş edirlər. Qadınlardan biri deyir:

- Biz bir kişinin arvadlarıyıq. Eyni vaxtda hərəmiz bir oğlan doğmuşuq. Dünən gecə bu qadın yuxulu olub öz uşağını

altına salıb boğub. Sonra olü uşağı mənim yanıma qoyub mənim uşağımı götürüb. Uşağımı ondan alıb mənə ver.

O biri qadın isə bütün deyilənlərin yalan olduğunu deyir. Süleyman onların hər ikisini dinləyib sağ qalmış uşağı gətirmələrini əmr edir. O, qılıncı uşağın başı üzərinə qaldırıb deyir:

- İndi uşağı tən bölüb hərənizə yarısını verəcəyəm. Onda məndən razı qalacaqsınız.

Uşağın əsl anası dərhal Süleymanın ayaqlarının altına yıxılır və deyir ki, onu öldürmə, onu o biri arvada verməyə razıyam.

Yalançı qadın isə:

- Mən sizin ədalətli hökmünüzdən çox razıyam – deyir.

Süleyman qadınların hərəkətlərindən uşağın əsl anasını öyrənir, yalançı qadını isə cəzalandırır" (22, s.70-71).

Süleyman peyğəmbərlə bağlı ovsunlar da xalq arasında geniş istifadə olunur. Cillə kəsmək, qorxu götürmək və sairə ilə bağlı ovsunlara nəzər yetirsək görərik ki, xalq Süleyman peyğəmbərin hökmünə inanır.

Həzrət Süleyman eşqinə,
Çin qızı mərcan hökmünə,
Bəni-adəmdən, bəni-insandan,
Cindən, şəyatindən, axar sudan,
Köklü ağacdan, dibli qayadan,
Yeddi yolun ayrıcından,
Hər kəsin çilləsinə düşmüsənsə,
Çilləni kəsdim.

Və ya

Əqrəb-əqrəb axınca,
Çaxmağını çaxınca

Əqrəb oldu bir kişi,
Bağladı qurdu-quşu.
Süleyman peyğəmbərin bıçağı,
Fatma nənənin qurşağı
Üf..Üf..Üf..

Nur ilan, dəmir ilan, at ilan, su ilan,
Ox ilan, gömülkən ilan, kəltə (qısa) marı, atdur harı,
çöl kəsən ala ilan,
Hindistani qara ilan, kor marı erkək ilan,
urqocı (dişi) ilan
Boğaz ilan, qısır ilan,
Hökmü Davud, hökmü Süleyman ilçi gəldi,
ürvən gəldi
Qüvənd (qoyun) gəldi, brev (get, rədd ol),
reberev küf çıx! (22, s.8-9)

Yeri gəlmişkən qeyd edək ki, folklorda, xalq arasında adına tez-tez rast gəlinən peyğəmbərlərdən biri də Nuh peyğəmbərdir. Nuhun gəmisi, Nuh Nəbidən qalma və sairə kimi deyimlər bu gün də yaşamaqdadır.

Nuh peyğəmbərlə bağlı olan rəvayətlərin də demək olar ki, hamısı dünyanın üzünü su alması, Nuhun gəmisi və insanların bu barədə Nuhla sorğu-sualları əks olunub. Məsələn, onlardan birində deyilir ki, Nuh peyğəmbər gəmi düzəltdirərkən bir qoca ondan soruşur:

- Yer üzünü nə zaman su alacaq?

- Gəlin qaynana ilə dalaşanda – deyə Nuh cavab verir.

Bir müddət keçəndən sonra bu qoca öz gəlinindən soruşur:

- Təndir yandımı?

- Hara yanır, o qədər üfürmüşəm ki, başım partlayır – deyə gəlin cavab verir.

Qoca onun cavabından başa düşür ki, tufan günü gəlib çatıb, yoxsa gəlin onunla belə danışmazdı. Təndirə yaxınlaşır, görür ki, dibindən su çıxır. Nuhun yanına yollanır, xahiş edir ki, onu da dabanına götürsün. Lakin istəyi baş tutmur.

Bu səpkili rəvayətlərdən görünür ki, peyğəmbərlərlə bağlı rəvayətlərdə xalqın həm də nəsihət, ibrətamiz xarakterli arzuları cəmlənir. Gəlin-qaynana, ər-arvad, böyük-kiçik münasibətlərini tənzimləmək, onlara məsləhət vermək üçün bu rəvayətlərdə daha çox "böyüklərə hörmət etmək lazımdır", "ailədə bir-birinə məhəbbət və hörmət", "mərifət", "mülayimlik" və sairə bu kimi keyfiyyətlər aşılanır (78, s.69).

Öz yeddi heyrətamiz möcüzəsi ilə məşhur olan Musa peyğəmbərlə bağlı əfsanələrin sayı da xeylidir. Onlardan biri tarixi əfsanəvi hökmdar olan Misir Fironu ilə bağlı olan "Musanın əsası" əfsanəsidir. Bu əfsanə Şərq xalqları arasında çox məşhurdur. Deyilənə görə, həmin əsa istənilən vaxt əjdahaya çevrilir və insanların gözü qarşısında canlı şeyləri udurmuş. Lakin Musa əjdahanın quyruğundan tutan kimi o yenə əsaya çevrilirmiş.

Musanı sehrbaz hesab edən Misir Fironu öz məmləkətində yaşayan bütün sehrbazları çağırıb əmr edir ki, Musanın möcüzələrinə inanan və onun ardınca gedən camaatın gözünü açmaq üçün onlar Musanın əsasına bənzər bir şey düzəltsinlər.

Sehrbazlar doğrudan da taxtadan əjdaha qayırır, onu nə iləsə yağlayırlar. Həmin taxta əjdahalar yeriməyə başlayır. Bu zaman Musa öz əsasını yerə atır. Əsa əjdahaya çevrilərək bütün taxta əjdahaları udur. Sonra Musa əjdahanın quyruğundan dartır və o yenə əsaya çevrilir.

Dini rəvayətə görə, Tanrı İsa peyğəmbərə də iki möcüzə bəxş etmişdir. Bunlardan biri odur ki, İsa peyğəmbər öz nəfəsi ilə ölüləri dirildirmiş. Digər möcüzəsi isə onun bəlağətli nitqidir. Yazılı ədəbiyyatda da şairlər onun bu xüsusiyyətindən istifadə etmişdir. Məsələn, Nəsimi gözəlin dodağından süzülən sözü və yaxud özünün şeirlərindəki qüdrəti İsa peyğəmbərin nitqinə bənzədir:

Kim ki, sevdasından oldu sayru şəhla gözlərinin
Şərbəti şirin ləbindir, İsəvi nitqin təbib.

Yaxud:
Nitqindən oldum çün diri, eynəl-yəqin, oldu bu kim,
Ləlindüdür ol İsa kim, ağzın açar, can axıdar (75, s.235).

Yusifin gözəlliyi, başına gələn müsibətlər barədə də çoxlu əhvalatlar var. Yusifin quyuya atılması, atası Yəqubun gecə-gündüz "oğul" deyib ağlaması və ağlamaqdan gözlərinin kor olması, Yusifin zülmət quyudan çıxıb Misirdə hökmdar olması və sairə haqqında olan əfsanələr də xalq arasında geniş yayılmışdır. Digər əfsanəyə görə isə onun yuxuları həmişə çin olur, yuxuda nə görürsə o həqiqətə çevrilir (35).

Azərbaycan folklorunda İsgəndər peyğəmbərin də adı hörmətlə çəkilir. Məmməd Əmin Rəsulzadə Nizaminin İsgəndərnaməsi haqqında yazarkən şairin dili ilə İsgəndəri belə təqdim edirdi: "İsgəndər dünyanın dörd tərəfini gəzmiş bir padşahdır. Zərdüşt dinindən başqa, heç bir adət və mərasimə toxunmayaraq Kəyanilərin taxtına çıxmışdır. Yunanıstanda qızıla ilk sikkə vurduran odur. Dəri (qədim fars) dilindəki hikmət kitablarını yunan dilinə o tərcümə etdirmişdir. Güzgünü icad edən də odur. Misirliləri zəngibarlılardan xilas etmişdir. Daranın taxt və tacını almışdır. Yer üzünü "hindu qaralığı" və

“rus sarılığı”ından təmizləyərək “gəlin otağı” kimi bəzəmişdir. Çinlilərə gəmiçiliyi öyrətmiş, Keyxosrova naib olmuşdur. İyirmi yaşında ikən şahlıq təbili onun adına çalınmış, iyirmi yeddi yaşında ona peyğəmbərlik verilmişdir. Onun peyğəmbər olduğu gün tarixin başlanğıcı sayılmışdır. Din sayəsində insanlara bilik, ədalətli dövlət sayəsində məmləkətlərə dinclik və səadət gətirmişdir. Dinin bir çox hikmətləri, dünyanın saysız-hesabsız tikililəri ondan qalmış nişanələrdir. Hər səfərində dünyanı qaydaya salmış bir çox mömin binalar tikdirmişdir. Dərbəndi ilk dəfə “dərbənd” edən odur. Bulqar (Itil (Volqa) çayı üzərindəki qədim Bulqer şəhəri nəzərdə tutulur.) deyib keçməyin: o da yaranışını İsgəndərə borcludur. Yəcuc – Məcuc səddi də onun nişanəsidir. Bunlardan başqa daha o qədər şeylər var ki, deməklə qurtarmaz” (83, s.129).

Qurani-Kərimdə İsgəndərin (Zülqərneynin) kimliyi bildirilməmişdir. Əbu-Hüreyre vasitəsilə, Əbu Davud, Hakim və İbn Asakirin rəvayət etdikləri iki hədisdə Həzrəti peyğəmbərin kim olduğu soruşulduqda “İsgəndərin bir peyğəmbərmi, yoxsa bir hökmdarmı olduğunu bilmirəm” - deyə cavab verildiyi nəql olunur. Təfsir kitablarında da bu cür fikirlər verilir. Bununla bərabər ilahiyyatçılar içərisində hökmdar İsgəndər Zülqərneyn ilə Qurani-Kərimdə göstərilən İsgəndərin fərqli şəxslər olduğunu bildirənlər var (126, s.693).

Nizamiyə görə, yuxarıda dediyimiz kimi İsgəndərə peyğəmbərlik verilmişdir. Allah tərəfindən bir səs ona: “Ey İsgəndər, sənə peyğəmbərlik verildi; Bütün dünyanı Allah yoluna çağıracaq, insanları təkallahlığa doğru istiqamətləndirəcəksən!” - deyir. Allahın bu vəhyi qarşısında titrəyən Isgəndər:

- Mənəmmi peyğəmbər, bəs hanı mənim möcüzəm? - deyə soruşmuş və tərəddüd göstərmişdir. O zaman ilahi səs İsgəndərə:

- Möcüzən budur ki, bütün millətlərin dilini tərcüməsiz anlayacaqsan, millətlər də sənin rumcanı, eynilə vasitəsiz başa düşəcəklər!

Bu böyük möcüzəyə qadir olan İsgəndər dünyanı yenidən dolaşmış, bu dəfə yol göstərən peyğəmbər sifətilə gəzdiyi məmləkətlərdə Təkallahlılıq dinini yaymışdır (83, s.219).

Nizaminin müraciət etdiyi "İsgəndər" əsəri İsgəndərlə bağlı əfsanə və rəvayətlərlə səsləşir. Burda göstərilən xüsusiyyətlər İsgəndərin əfsanələrdəki məziyyət və funksiyaları ilə üst-üstə düşür.

İsgəndərlə bağlı maraqlı məqamlardan biri də odur ki, bu peyğəmbər əbədi yaşamaq istəyir, ölümsüzlük qazanmağa çalışırdı. Hətta bunun üçün dirilik çeşməsini axtarmaq qərarına gəlir.

Əfsanələrdən birinin məzmununa görə İsgəndər axtara-axtara gəlib "Dirilik suyu"nu Şirvanda tapır. O sudan doldurub içmək istəyəndə bir quş qanad çalıb suyu yerə tökür. İsgəndər qəzəblənib quşu vurmaq istəyəndə qeybdən bir səs gəlir. Bu səs bir qayanın arxasından gəlirdi. İsgəndər yaxın gəlib səsə qulaq asır və eşidir: "Ey İsgəndər, bir vaxt mən də dirilik çeşməsindən içib ölməzlik qazandım. Adım "Diri baba" oldu".

Bu əfsanədə sözü gedən Diri baba güman ki, Xızır babadır. Çünki digər çoxsaylı əfsanə və rəvayətlərdə dirilik suyu içmək nəsib olan bəni-adəm kimi ancaq Xızır peyğəmbərin adı çəkilir. Onu da qeyd edək ki, indi də Şamaxıda adı çəkilən Diri baba dağı var (20, s.142).

Bu hadisə "İsgəndərin zülmətə getməsi", "İsgəndər və Xızır peyğəmbər" əfsanələrində də göstərilir. Həmin əfsanələrə görə İsgəndər dirilik suyunu tapmaq üçün zülmət dünyasına gedir və bu yolda Xızırla tanış olur. Lakin dirilik suyundan içmək İsgəndərə yox, Xızıra nəsib olur.

Ümumiyyətlə, İslam dini, peyğəmbərlər, Əzrail, Gəbrail, cənnət və cəhənnəm, o dünya haqqında çoxlu əsatirlər bu günə qədər folklorumuzda qorunub saxlanılmışdır. Bunların müəyyən bir qismi Qurani-Kərimdə göstərilənlərdir. Müəyyən səbəblər üzündən bir müddət bunları toplayıb çap etmək, haqqında fikir söyləmək qadağan edilmişdir. Belə əsatirlərdən bəzilərinin əks-sədası bizim aşıq sənətində saxlanılmışdır. Bir sıra dastanlarımızda olan dini mövzuda deyişmələr buna aydın bir misaldır. Məsələn, Molla Cümənin "Cümə və Könül" dastanından aşağıdakı nümunələrə diqqət edək:

Molla Cümə:

O kimdir ki, bəzəmişdir qəməri,
O kimdir ki, mum eylədi dəmiri,
O kimdir ki, uzun sürdü ömürü,
Bildir görüm neçə yaşda dayandı.

Aşıq Könül:

Yusif Nəbi bəzəmişdir qəməri,
Davud Nəbi mum eylədi dəmiri.
Nuh peyğəmbər uzun sürdü ömürü,
Doqquz yüz əlli yaşda dayandı.

Yeri gəlmişkən qeyd edək ki, Nizami, Nəsimi və digər söz ustadlarının bir çoxu xalq əfsanələrindən yararlanaraq öz yaradıcılıqlarında peyğəmbərlər və onların funksiyalarından bəhs etmişlər. Nəsimi yuxarıda adları çəkilən peyğəmbərlər, onların xüsusiyyətlərində poetik-fəlsəfi fikirlər olduğunu söyləmişdir.

Lakin danılmaz faktdır ki, folklorumuzda Xızır peyğəmbər qədər tez- tez müraciət edilən ikinci peyğəmbər yoxdur. Belə ki, təkcə əfsanə və rəvayətlərdə deyil, digər nümunələrdə

də Xızır peyğəmbər haqda örnəklər yer almışdır. Şifahi xalq ədəbiyyatında elə bir janr tapmaq olmaz ki, orada Xızırla bağlı örnəklərə rast gəlinməsin. İstər arxaik, istər epik, istər lirik janrlarda xalqın müraciət etdiyi peyğəmbərlər içərisində Xızır peyğəmbər birinci yeri tutur. O, özünəxas xüsusiyyətlərilə el arasındakı inam və məhəbbəti, hörməti sayəsində xalqa ən yaxın olan şifahi xalq ədəbiyyatının əsas obrazı kimi yaşayır.

## Xızırın funksiyaları

Xalqın yaddaşına hopub nəsildən-nəslə ötürülən folklor örnəkləri özündə Xıdır obrazını yaşadaraq bü günədək gətirib çıxarıb. Bu örnəkləri yaradan xalq əsl bilici kimi həmin nümunələri incələyərək saf-çürük etmiş, peyğəmbərin həyata keçirdiyi missiyaları dəqiqləşdirib süzgəcdən keçirmişdir. Bir az əvvəldə də qeyd etdiyimiz kimi, folklorun elə janrı yoxdur ki, orada Xızır peyğəmbərə aid nümunələr yaradılmasın. Epik, lirik janrlardan tutmuş arxaik janrlara qədər – fallar, andlar, inanclar və digərlərində Xızır öz ənənəvi funksiyalarını yaşadır. Təbii ki, bu funksiyaların içərisində elələri var ki, Xızırın sırf peyğəmbərliyi ilə bağlı olan funksiyalardır. Bunların ən qədimi Xızırın yaşıllıq (İlyas ilə birgə işlənərsə su məbudunu da buna əlavə etmək olar) məbudu olmasıdır. Daha geniş mənada yazın gəlişi ilə xalqın ondan istədiklərini nəzərdən keçirək. Xızırı yazın istisini, odunu, hərarətini gətirən bir obraz kimi qiymətləndirmək olar. Yazın gəlişi ilə bağlı xalqın ondan dilədiyi funksiyalar dini ədəbiyyatda o qədər dəqiq göstərilməsə də, onun od, su, torpaq, hava ilə bağlılığını hamının bilmədiyi batini elmlərə daxil etmək olar. Təbii ki, xalqın mərasim nəğmələrində ondan istilik, hərarət istəməsi (Xızır, Xızır xız gətir, Var dərədən od gətir), xalq inanclarında

onun adına buğda qoyub Xızırdan bolluq diləməsi, məxsusi olaraq onun şərəfinə Xıdır Nəbi bayramının keçirilməsi də onun həmin funksiyalarının geniş yayıldığını göstərir.

Qeyd etmək lazımdır ki, onun yazın gəlişi ilə bağlılığı motivi öz şifahi xalq yaradıcılığında Xızıra yer verən bütün xalqların folklorunda var. Bundan başqa Xızırın ən geniş yayıldığı Orta Asiya türklərindən başlamış Anadolu, Balkan, Azərbaycan türklərinə qədər bütün xalqların folklorunda özünə əsaslı yer tutmuş funksiyası xeyirxahlıq, itənlərə yol göstərmək funksiyasıdır. Bunların hər birini ayrıca bir funksiya kimi də göstərmək olar. Belə ki, xüsusilə dastan – aşıq yaradıcılığında o, daha çox itənlərə yol göstərən nurani kişi kimi göstərilir. “Aşıq Qərib” dastanında yolda qalan Qərib Xızıra güvənir, Türkmənlərin “Hurilqa və Həmra” dastanında da İrəm bağında yolunu azıb hansı səmtə gedəcəyini bilməyən Həmra:

Medetkərim Xıdır, yetiş qaşıma!
Mən şu qünün xaysısına gideyin? –

qoşması ilə Xıdırı köməyə çağırır.

Hər iki əsərin qəhrəmanının yolu azarkən Xıdırı imdada çağırmasından görünür ki, onlar artıq Xızırın həmin funksiyasını bilir, məhz Xızırı köməyə çağırır. Deməli, hələ əvvəllərdən onun itmişlərə yol göstərmək funksiyası bəlli imiş. Lakin həmin funksiyanın da bir növ dada çatmaq, xilaskarlıq məqsədi daşıdığını nəzərə alsaq, onları bir funksiya kimi - xilaskarlıq adı altında təqdim etmək olar. Onun xilaskarlıq, çətin anlarda qəhrəmanın dadına çatması təkcə dastan yaradıcılığında deyil, inamlarda, ofsunlarda, hətta fallarda belə üzə çıxır.

Düzdür, digər türk xalqlarının folkloru ilə müqayisədə Azərbaycan əfsanələrində Xızırın daha çox ölümsüzlüyü,

dirilik suyundan içməsi və sairə məsələlər əks olunur. Digər türk xalqları əfsanələrinin əksəriyyətində isə Xızırın funksiyalarına yer verilir. Azərbaycan əfsanələri üçün o qədər xarakterik olmasa da bəzi əfsanələrdə onun funksiyaları da əks olunur. Məsələn, Zaqatalada yayılan bir əfsanəyə görə biri yalan danışır. Şaha deyir ki, mən Xızır Nəbini görmüşəm. Şah ona inanmır. Deyir ki, onu mənə də göstər, yoxsa boynunu vurduracağam. Yox, əgər peyğəmbəri mənə göstərsən sənə qızıl verəcəyəm. Kasıb çox fikirləşir və fikir eyləyə-eyləyə yolla gedəndə görür bir əmmaməli uşaq gəlir. O bilir ki, Xızır uşaq cildində onun gözünə görünür. Tez şaha xəbər verir. Sonra uşaq qeybə çəkilir. Şah yenidən onu ikinci dəfə görmək istədiyini deyir. Amma kasıb kişi ona deyir ki, o yalnız bir dəfə göstərməyə söz vermişdi. Burada Xızırın həm kasıblar və kimsəsizlərin dadına çatması, həm də onun istədiyi vaxt, ayrı-ayrı cildlərdə gözə görünməsi göstərilir (Zümrüd Səmədova İbrahim qızı, 1980, Zaqatala, Qımır kəndi). Dövlətşah "Təzkirə"sinə görə də monqol ordularına Xızır yol göstərmişdir. Teymur ordusunun önündə gedərək onu döyüşdən-döyüşə haylayan və qurd kimi yalnız başçının gözünə görünən də Xızırdır (65, s.152).

Xalq arasında Xızıra, onun darda qalanlara kömək edəcəyinə inam o qədər çoxdur ki, təkcə əfsanə, rəvayətlərdə deyil, həqiqətdə də bəzi adamlar çətin anda Xızırın ona kömək edəcəyinə inanır. Hətta belə vəziyyətlə qarşılaşan bəzi insanlar Xızırın onlara kömək etdiyini də söyləyirlər. Məsələn, qoca nənələrdən birinin dediyi:

- Bir dəfə ailəmizlə birgə – həyat yoldaşım və mən - ailəvi dostlarımızla bir yerdə İrəvandan gəlirdik. Yolda maşınımız (maşını yoldaşım sürürdü) azdı. Biz isə çox sürətlə gedirdik. Bir də gördüm bir ağ at üzərində ağ paltar geyinmiş,

ağ əmmaməli bir atlı maşının qabağından keçir. Tez qışqırdım ki, tez maşını saxla, atlını vurarsan! Maşının içindəkilər dedilər ki, atlı-zad görmürlər. Mən dedim – yox ey, saxla. Gör vurmadın ki? Maşını saxlayıb hamımız düşdük. Yolda atlı nədi, heç "ins-cins" yox idi. Yolun hər iki tərəfi isə sıldırım idi. Buradan atlı keçə bilməzdi. Onda başa düşdüm ki, Xızır mənim gözümə görünüb. Sən demə bir az o yanda yol dərəyə düşürmüş. Əgər mən o atlını görüb maşını saxlatdırmasam, maşın həmin yolu yavaşımasa, biz dərədən aşıb hamımız ölməliydik. Qurban olum Xızıra, onun hesabına bu gün yaşayırıq (Fatma Nağı qızı Əliyeva, 1930, Gəncə şəhəri) (Şəkil 2).

Xızırın bu gun hələ də insanların gözünə görünməsi ilə bağlı bir çox media oqranlarında da dünyanı sarsan xəbərlər yayılmaqdadır. Elə yaxın keçmişdə Misirdəki hadisələr əsnasında kameralara düşən bir görüntü insanları təəccüblü halda qoydu. 3 Fevral, 2011-ci il Cümə axşamı günündə, Təhrir meydanındakı hadisələr zamanı Mübarək tərəfdarları ilə əleyhdarları arasındakı qarşıdurmalar davam edərkən, yaşıl rəngli ata bənzər bir siluet insanların arasından keçərək gözdən itdi. Euronews tərəfindən nəşr olunan görüntüdəki yaşıl cisimin nə olduğu bilinmir. Lakin aparılan araşdırmaların ən tutarlı şərhlərinə əsasən, bu cismin çox-çox qədimlərdən bu günə qədər iz salmış, mənbələrdə adı çəkilən Xızır Nəbi (Həzrəti Xızır Peyğəmbər(ə)) olduğu güman edilir (164).

Xızırın insanların həm quruda, həm suda (bəzi qaynaqlara görə suda insanların köməyinə çatan İlyasdır) dadına çatması ən geniş yayılmış və tanınmış funksiyasıdır. Hətta illərin sınağından keçən hikmətləri atalar sözünə çevirən xalq Xızır haqqında da atalar sözü yaratmağı unutmamışdır: "Nə dərin dəryaya gir, nə də Xızır İlyası çağır" (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı). Bu

atalar sözünə Gəncəbasar bölgəsində daha tez-tez rast gəlinir. Bundan başqa həmin bölgədə "Xıdır İlyasa ümid olub özünü selə-suya atma!" misalı da işlənir. (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı)

Anadoluda da Xızırla bağlı atalar sözləri və bir sıra müraciət formaları vardır. Bu qəbildən "Xızır yoldaşın ola", "Hər vaxtını hazır bil, hər gördüyünü Xızır bil", "Xızır kimi yetişdi", "Yetiş, Xızır Nəbi, sən imdad eylə", "Yetiş carımıza Xızır, ya Xızır", "Əli haldaşımız, Xızır yoldaşımız ola", "Qul dara düşməyincə Xızır yetişməz" və digərlərini göstərmək olar (165; 111, s.411).

Bundan sonra adını çəkəcəyimiz bir neçə funksiya isə folklorun daha çox dastan yaradıcılığı bölməsində özünə yer tapıb. Onlardan biri övladsızlara, sonsuzlara övlad verməDir. "Lətif şah", "Qurbani", "Alı xan-Pəri", "Leyli və Məcnun", "Tahir və Zöhrə" və digər dastanlarda sonralar bir-birinə aşiq olacaq qəhrəmanlardan biri, yaxud hər ikisi sonsuzluqdan əziyyət çəkən valideynlərin övladları olur. Dərviş, nurani kişi, ixtiyar valideynlərə alma verir. Onlar övlad sahibi olurlar. Ya da həmin dərviş onlara nəzir-niyaz paylamağı və ya söz verib əhd etməyi məsləhət görür. Bəzən də onların yuxusuna girir. Yuxuda gördüklərinə əməl edərlərsə, övlad sahibi ola biləcəklərini söyləyir. Azərbaycan məhəbbət dastanlarında sonsuz qocalar yuxarıda göstərilən şərtlərdən birinə və ya bir neçəsinə əməl edərlərsə, övlad sahibi olurlar. Burada məhz qocalara övlad verilməsinin özü də Xızırın möcüzələr yarada bilmək imkanından xəbər verir. Bu dastanların hamısında Xızırın adı çəkilmir. Lakin əvvəlki bölmələrdə də qeyd etdiyimiz kimi onun xilaskarlıq, buta vermə və digər funksiyaları kimi sonsuzlara övlad vermə motivində də bu işi Xızırla yanaşı dərviş, nurani qoca və digərləri yerinə yetirir. Xızır daha çox həmin

cildlərdə insanların gözünə görünür. Professor M.H.Təhmasib məhəbbət dastanlarının süjetini dörd hissəyə ayırır:

1. Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi,
2. Qəhrəmanların, yəni aşiq və məşuqənin buta almaları
3. Qarşıya çıxan maneələr və onlara qarşı mübarizə
4. Müsabiqə və qələbə

Bunlara nəzər salsaq görərik ki, həmin hissələrin bir və ya bir neçəsində Xızır peyğəmbər iştirak edir. İstər sonsuzlara övlad vermə ilə birinci hissədə, gəncliyin hamisi, ailə, sevgi məbudu olmaqla ikinci hissədə, qarşıya çıxan maneələr zamanı qəhrəmana kömək etmək, onun dadına çatmaqla üçüncü hissədə təsvir olunan Xızır demək olar ki, dastanların ənənəvi obrazlarından birinə çevrilib.

Azərbaycan dastanlarında Xızır ailə qurmaq, məhəbbət məbudu kimi özünü qorumağa müvəffəq olmuşdur. Bir çox dastanlarda Xızır gələcəyin aşiqi obrazlarına buta verir. Onları adətən yuxuda bir-biri ilə görüşdürür. Qarşılıqlı məhəbbətə sövq edir, gənclərə "eşq badəsi" içirdir. Bu baxımdan məşhur "Aşıq Qərib" dastanında Qəriblə Şahsənəmin bir-birinə aşiq olması hadisəsi diqqətçəkəndir. Atasının var-dövlətini İsfahanın qırx lotusuna uduzandan sonra Rəsul (Qərib) papaqçıya şəyird olur. Bir gün Rəsul atasının qəbri üstünə gedir və orada yatıb yuxu görür:

"Aləmi-röyada bir dərviş gördü. Bu dərviş kim olsun, Xıdır İlyas. Xıdır İlyas əlini yuxarı qaldırıb dedi:

- Ey Rəsul, barmaqlarımın arasından nə görürsən?

Rəsul dedi:

- Bir gözəl şəhər.

Xıdır İlyas dedi:

- Bu şəhərdə nə görürsən?

Rəsul dedi:

- Bir gözəl bağça. Baxçada bir incəbel qız qırx qızla gül dərir.

Xıdır İlyas dedi:

- Ey Rəsul, bil, agah ol, o gördüyün şəhər Tiflisdir, bağçada qırx incəbelli qızla gəzən xanım da Xoca Sənanın qızı Sənəmdir. Sənəmi sənə buta verirəm. Al, eşq badəsini iç.

Rəsul badəni alanda bir də gördü bağçada gördüyü qız yanındadır. Onun da əlində eşq badəsi var. Hər ikisi eşq badəsini içdi. Xıdır İlyas Sənəmin əlini Qəribin əlinə verdi və dedi: "Sənəmin adını Şahsənəm qoydum. Çünki, gözəllərin padşahıdı".

Bu dastanda Xıdır təkcə aşiqlərə buta verib onları bir-birinə aşiq etmir. Həm də əsər uzunu sanki onları müşayiət edir. Belə ki, dastanda Qərib sevgilisi Şahsənəmi başqasına zorla ərə verdiklərini eşidib Hələbdən Tiflisə qayıtmaq istəyərkən yolda atı çərləyib ölür. Birdən Xızır peyda olur. Onu öz qanadlı atına mindirib qırx günlük yolu bir göz qırpımına qət edərək Qəribi Şahsənəmin toyunadək Tiflisə çatdırır.

Eyni zamanda "Əsli və Kərəm" dastanında da borana, çovğuna düşüb yolda qalan Kərəmlə Sofini dardan qurtarır.

Bu dastanlarda Xıdır İlyasda sevib-sevilmək, ailə qurmaq, evlənmək ilahəsinin əlamətləri görünür. Mirəli Seyidovun fikrincə bu onun yeni, lakin hələ tam formalaşmamış keyfiyyəti imiş. Ya da onun əski doğma keyfiyyətidir ki, sonralar zəifləyib. Professor ona bu keyfiyyətin Öləngdən gəlmə olduğunu da söyləyir. Belə ki, onun fikrinə görə Öləngdən əl çəkmiş türkdilli xalqlar, onun keyfiyyətlərini Xızıra verib (85, s.73). M.Seyidov Xızırın aşiqlərə kömək etməsi məsələsini bir çox mifik inamlarla, insanların təbiəti, ailə qurmağı dərk etməsi ilə bağlayır. Xızır həm gəncləri aşiq edir, həm də darda olanlara kömək edir. Onun vurğun, aşiq etdiyi oğlanlar həm də aşıq

olurlar. Deməli, Xızır gəncləri həm aşiq, həm də aşıq edir. Professor belə fikirləşir ki, yazın istiliyini təmsil etdiyi üçün Xızır həm də Günəşlə bağlıdır. Başqa sözlə, Günəşin istiliyi, günəşin özü gəncliyə aşiqlik verir.

Professor M.Təhmasib yazır ki, "aşıq" "yaşıq" sözündəndir. Deməli, "yaşıq"la- "günəş"lə eyni kökdən olan aşıq öz yaranışı ilə istiliklə bağlı olmuşdur. Elə buna görə də Xızırdan – yazın istiliyini gətirəndən və yazın istisinin, odunun insaniləşmiş obrazından buta alan gənclərin demək olar ki, hamısı öncə elə bil od tutub yanırlar, onları birdən-birə isti, xıs basır. Belə dastanlardan birinə nəzər salaq: "Novruz və Qəndab" dastanının qəhrəmanı "Novruz badəni dərvişdən – (Xızırdan) alıb nuş elədi. O saat sinəsi dəmirçi kürəsi kimi yanmağa başladı. Bərkdən qışqırdı: "Yandım, mənə əlac".

Novruz diqqətlə dərvişə baxanda gördü ki, həm dərvişdən, həm də badədən bir od qalxıb asimana bülənd oldu" (23, s.176).

Belə məlum olur ki, həm Xızır, həm də onun verdiyi badə nurludur, işıqlıdır, odludur. Elə buna görə də gənc badəni içəndən sonra sinəsi od tutub yanır. Axı, nuru asimana bülənd edən Xızır da, badə də günəşlə, yaşıqla bağlıdır. Ona görə də onun badəsini içən gəncin sinəsi alışır, o dərhal ilhama gəlib aşıq olur. Buta sözünün hərfi mənasını isə Mirəli Seyidov türk dillərinin lüğəti mənalarına söykənərək "şüvül", "çubuq", "hörük", "çiçək hörüyü", "şaxələnmə", "qönçə", "badamvari naxış" və sairə mənalarla bağlayır (85, s.129; 156, s.1856). Onu da qeyd edək ki, buta içib aşıq olan gənc həm də gizli sirlərdən agah olmalıdır. Çünki mifoloji inama görə od həm də sirləri açır, onlardan agah olur.

Burda bir məsələyə də diqqət yetirək. Aşıq etmənin həm də su ilə bağlılığını əvvəlki bölmələrdə də xatırlatmışdıq. Bir

çox dastanlarda su oxumaq, şeir qoşmaq istedadı da verir demişdik. Azərbaycan "Koroğlu"sunda da Qoşabulağın suyu Koroğluya gur səs, güc verir, onu aşıq edir. "Koroğlu" dastanında Alı kişi Çənlibeldə yurd salandan sonra oğluna deyir ki, oğul, buradakı dağların birində bir qoşa bulaq var. Adına "Qoşabulaq" deyirlər. Get, onu tap. Kim yeddi ildən bir ulduzların toqquşmasından sonra bu bulağın suyundan içsə, aşıq olar. Bu, kor gözləri də sağaldar. Rövşən - hələ ona Koroğlu adı verilməmişdi – atası dediyi kimi də edir. Əsərdə həmin səhnə belə təsvir olunur: "Gördü, dağın bir tərəfində uca, sıldırım, əlçatmaz, ünyetməz bir qaya var. Qaya elə bir qayadır ki, igid istəyir üstünə çıxsın. Rövşən min bir ənvai-müsibətlə qayaya dırmaşdı... Ortalıqda qoca bir ağac altında da Qoşabulaq durna gözü kimi qaynayır. Göz yaşı kimi axıb ətrafı süd gölünə döndərir" (68, s.32). Bundan əlavə, "Şamanın azarlaması" adəti hekayətində də su şeir qoşmaq, oxumaq istedadı verir. Bizdə şamanı–qamı suya, torpağa inam yaratmışdır. Belə bir inamdan şamanın yaranması versiyası xalq yaradıcılığında özünü daha qabarıq şəkildə göstərir. "Abbas və Gülgəz" dastanında da əsərin qəhrəmanı ağacın altında yatır. 3 gecə ayılmır. Ayılandan sonra deyir ki, ona buta veriblər. Saz istəyir, aşıq olur (105, s.201-202).

Xızırın buta vermə, aşıq etmə funksiyaları təkcə Azərbaycan folklorunda deyil, digər türk xalqlarının folklorunda da özünə məxsusi bir yer tutur. Anadolu türklərinin xalq hekayələrində Xızırın bu funksiyası geniş şəkildə əks olunur. Tipik bir xalq hekayəsi olan "Dərdiyox və Zülfüsiyah" məsəlində Dərdiyoxun Zülfüsiyahın eşqinə düşməsi belə göstərilir: "Bir abdest alub iki rekat namaz kulub buna (Derdiyoka) bir qaflet geldi, yatdı, uyudu. Bir de mana (ruya)sında buna bir pir gelüb, qam yime Derdiyok, al şu

kadehi, Zülfüsiyahın aşqına iç, deyüb bir tolu kadeh sundu. Oğlan kadehi alub içdi, derunu aşq ilə doldu. Saz çalma, türkü söyleme buna min tarafullah keşfoldu...” (103, s.14). Bu pir yuxusunda gördüyü sevgilisini tapmaq üçün Buxara yollarında atı kaplan tərəfindən parçalanan Dərdiyoxa kömək edir, ona yol göstərir. Qeyd edək ki, “Aşıq Qərib və Şahsənəm” dastanında eynilə bu səhnəyə rast gəlirik. Lakin bu dastanda sırf Xızırın adı çəkilir. Dastanda Aşıq Qəribin Xızır tərəfindən aşıq edilməsi “Aşıq Qərib”in türk versiyasında belə təsvir edilir: “Aşık Qarib uykuya vardıkda, Hızır Aleyhissalam rüyasında gelüb Tiflisde Şah Senem Tolısını nevcivana nuş ve iki derdmendi birbirine aşık idüb bir altun kadeh oğlana, bir de kıza virüb, biriniz Aşık Qarib, biriniz Şah Senemdir - deyüb gözden nihan oldu” (109, s.6-7). Derdiyox kimi sevgilisinin yolunda dağa-daşa düşən Qərib də Şahsənəmin toy xəbərini eşidib Tiflisdən Hələb şəhərinə gedərkən atı çərləyib ölür. Xızırı imdada çağırır. Xızır orda peyda olur: “bakdı ki, bir kıratlı mızrağını sirkelek gelür. Qarib havf idüb bu adem benü helak ider. Ya Rebbi sen sakla! Dirken gelüb burada ne gezersen? Deyince Qarib refikimi yitürdüm, yolumu şaşurdum, suyu geçemedüm, didikde atlı, sen nirelisen? Didi. Qarib Erzurumluyum deyince vir elini bana didikde ...elinden tutdu, terkiye alub yum gözini deyüb badehi aç didikde gördi ki Erzurumdur. Atlı selamet ola deyüb qaib oldu” (109, s.47-48).

Dastanın Azərbaycan variantında isə bir başa yolunu azan Qəribi bir göz qırpımında sevgilisinə yetirən Xızır peyğəmbərdir. Daha dəqiq desək, dastanın Azərbaycan variantında da onun adı çəkilir. “Aşıq Qərib” dastanında qəhrəmana aşıqlıq verilməsinə baxaq. Qəribin atası ölür. O, gəlib atasının qəbri üstündə o qədər ağlayır ki, qəbrin üstündə uzanılı qalır və onu yuxu tutur, ağzı köpüklənir. Ayılanda aşıq

olur, saz çalır, şeir qoşur (21, s.34). "Qurbani" dastanında da gənc Qurbani çölə cütə, əkin əkməyə gedir. Öküzlər xam olduğundan cütə getmirlər. Qurbani onları buraxır, özü isə mağaraya yatmağa gedir. Atası gəlib onu orada tapır, lakin oyada bilmir. Qurbanini birinin yardımı ilə evə aparır. 3 gündən sonra o ayılır, saz istəyir, butası haqda şeir deyir (23, s.127-128). Qurbani tanınmış haqq aşığı olur. Bu dastanda isə görürük ki, Qurbani mağarada, torpağın üstündə aşıq olur, Aşıq Qərib qəbrin üstünə yıxılıb aşıq olur. Deməli, bu dastanlarda da "torpağın aşıq etməsi" fikri bir daha vurğulanır. Ümumiyyətlə, türk xalqında, o cümlədən Azərbaycan xalqında Yerə – Torpağa doğma münasibət onun müqəddəsliyi, uduqluğu ilə bağlıdır. Hətta bu günədək torpağa, vətənə "Ana torpaq", "Ana vətən" kimi müraciət olunması da bu müqəddəs münasibətin nəticəsidir. "Torpaqdan pay olmaz" və sairə kimi atalar sözlərinin yaranması da bununla bağlıdır. Yuxarıda diqqət yetirdiyimiz dastanlardan görünür ki, haqq aşığı, şaman ya su kənarında, ya da torpağa yıxılıb aşıq olur. Yazın gəlişi – 4 ünsürün açıqlanmasına diqqət yetirsək, görərik ki, burada buta verənin Xızır olması ilə yanaşı onun aşıq olduğu yerlərin – su və torpağın da Xızırla bağlılığı var.

Əski yüzilliklərin abidəsi "Kitabi Dədə Qorqud" dastanında da Xızır İlyasın gəncliyin hamisi olduğu pərdəli şəkildə də olsa, özünü büruzə verir. Belə ki, dastanda Buğac yaralanarkən məhz Xızırın Buğacın köməyinə çatması, dağ çiçəyi və ana südünü dərman deməklə onu ölümdən qurtarması, ehtimal ki, Xızırın həm də gəncliyin hamisi olması ilə əlaqədardır.

Ad qoyma və ölüləri diriltmə isə Xızırın funksiyaları içərisində daha az rast gəlinəndir. Belə ki, orta əsrlər və ondan sonrakı dövrlərdəki nümunələrdə demək olar ki, bu funk-

siyalara rast gəlinmir. Az da olsa bu, Orta Asiya türklərinin şifahi yaradıcılığında əks olunur. Məsələn; "Akxan və Altun Taysı" misalında adqoyma mərasimində anidən bir ixtiyar peyda olur və uşağa ad qoyduqdan sonra qeyb olur. Özbəklərin "Xannamə"sində də özbək xanı olan Çingiz xan doğulduğu zaman ona bu adı verənin Xızır olduğu göstərilir (119, s.316-417).

Bu motivi Orta Asiyanın bir çox məşhur dastanlarında da görmək olar. Özbəklərin "Alpamış" dastanında da Alpamış doğulduğu vaxt Xızır onun babasının yanına gəlib uşağın adını Molla Hakim, ləqəbini Alpamış qoyur. Baysarının qızı doğulanda da ona Molla Barçın adını verir. Türkmən "Koroğlu"sunda Rövşənə "Koroğlu" adını verən Xızırdır (65, s.153).

Məşhur Altay–türk dastanlarından olan "Manas"da da qəhrəman doğularkən Xızır peyda olur, doğulmuş uşağa dua edir (119, s.507; 105, s.104-105). Göründüyü kimi bu funksiya Orta Asiyada geniş yayılmışdır. Nədənsə Xızırın adqoyma funksiyası Azərbaycan folkloru üçün o qədər də doğma deyil. Lakin Zaqatala rayonunda yayılan bir əfsanəni yada salmaq istərdik ki, bu əfsanədə Xızırın Azərbaycan folklorunda az rast gəlinən adqoyma funksiyası qeyd olunur. Həmin əfsanəyə görə bir kişinin uşağı olmur. Onlar bir bilicinin (Bəzi nümunələrdə həmin bilicinin Xızır olduğu deyilir) yanına gedib ondan imdad diləyirlər. Nurani kişi bildirir ki, onların əkiz oğlu olacaq. Amma uşaq olandan sonra mənim yanıma gətirin. Onların adını mən qoyacağam. Birinin adı Nəbi, o birinin adı İsmayıl olsun. Vaxt gəlir, vədə tamam olur, kişinin əkiz övladı dünyaya gəlir. Onlar elə sevinirlər ki, uşaqları bilicinin yanına aparmaq yadlarından çıxır. Elə ki, Nəbi adlanacaq uşaq 5 yaşına çatır, pilləkəndən yıxılıb ölür. İllər keçir, o biri oğlan 15 yaşına çatır.

Bir gün bir səbətdən üzüm götürüb yemək üçün əlini səbətə atanda ilan çalıb onu öldürür (Zümrüd Səmədova İbrahim qızı, 1980, Zaqatala, Qımır kəndi).

Azərbaycan dastanlarında bəzən adqoyma funksiyasına Xızırın dərviş cildində peyda olmasıyla rast gəlinir. Məsələn, "Lətif şah" dastanında göstərilir ki, Dərdli şaha övlad verən dərviş mən gəlməyənədək oğlana ad qoymayın deyir. Dərviş qeyb olduqdan 9 ay sonra şahın bir oğlu olur:

"…Uşağın 10 yaşı var. Amma hələ adsızdır. Bu sarayda narahatlıq doğurur. Odur ki, Dərdli şah arvadının təkidi ilə adqoyma mərasimi təşkil edir. Mərasimin qalmaqallı yerində yaşıl əbalı, nurani, ağsaqqal dərviş içəri girib salam verdi, ayaq üstə şahzadənin adını Lətif şah qoyuram- deyib yox oldu."

Şahın yeganə oğluna ad qoyan yaşıl əbalı, ağsaqqal dərviş (Xızır) sonrakı epizodların da bir neçəsində iştirak edir (66, s.131).

Azərbaycan dastanlarında adqoyma funksiyası daha çox Dədə Qorqudla bağlıdır (85, s.178-179). Demək olar ki, Dədə Qorqud boyları haqda yazan tədqiqatçıların əksəriyyəti qeyd etmişlər ki, o, oğuzlarda uşağa, yeniyetməyə ad qoyandır (57, s.9). "Kitabi Dədə Qorqud" boylarının bəzi tədqiqatçılarının qeyd etdiyi kimi, Azərbaycan xalqı arasında belə bir rəvayət varmış ki, Qorqud nəinki uşaqlara, hətta kainatda olan bütün əşyalara ad qoyub. Ancaq müdrik Dədə Qorqudun qoyduğu adlardan dördü səhv imiş. Bunu Qorqud özü etiraf edibmiş:

Gəlinə ayıran demədim mən Dədə Qorqud,
Ayrana doyuran demədim mən Dədə Qorqud,
İynəyə tikən demədim mən Dədə Qorqud,
Tikana sökən demədim mən Dədə Qorqud.

Dədə Qorqudun ad qoymasını Dədə Qorqud boylarında, daha dəqiq desək, Buğacın boyunda dəqiq görürük: "Oğuz bəyləri gəlib oğlanın üstünə yığnaq oldular. Təhsin dedilər. Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun. Biləsincə alıb babasına varsın. Babasından oğlana bəylik istəsin, taxt alıb versin – dedilər.

Çağırdılar Dədəm Qorqud gələr oldu.

...

Bayandır xanın meydanında bu oğlan cəng etmişdir. Bir buğa öldürmüş. Sənin oğlunun adı Buğac(xan) olsun. Adını mən verim, yaşını Allah versin – dedi".

Qeyd edək ki, Dədə Qorqudun ad qoyması haqqındakı rəvayəti Əbül Qazi Xivəli də XVII əsrdə qeydə almışdır (130, s.780).

Ölüləri diriltmə motive də Azərbaycan folklorunda o qədər də geniş yayılmayıb. Lakin bir sıra dastanlarda Xızırın bu funksiyasına rast gəlirik. Məsələn, Dədə Qorqud dastanında Xızırın ana südü, dağ çiçəyi ilə Buğacı ölümdən qurtarması buna misal ola bilər. Türk xalqlarının ortaq dastanı olan "Arzu və Qənbər" dastanında bu məsələ öz əksini tapmışdır. Qənbər Arzunun qaynatası tərəfindən öldürülür. Lakin Xızır ona yenidən həyat verir.

XI əsrdə Danişməndli dövlətinin qurucusu Battal Qazidən bəhs edən "Battalnamə" dastanında da Battal Qazi müsəlmanlara islamı qəbul etməyi təklif edəndə onlar ancaq Battal Qazi ölüləri dirildərsə, müsəlmanlığı qəbul edəcəklərini bildirirlər. Əlacsız qalan Battal Qazi onlardan möhlət istəyib dərdini dayısına danışır. Öyrənir ki, dərdinə ancaq İlyas əlac edə bilər. O, "Dəniz ortasında bir adada" yaşayan İlyasa pənah aparır. Nur üzlü, ağ saqqallı bir ixtiyar cildində İlyas onun qar-

şısına çıxıb bir dua öyrədir. Və Qazi bu dua sayəsində ölüləri dirildib, kafirlərə müsəlmanlığı qəbul etdirir (126, s.188).

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan folklorunda Xızırın ölüləri diriltməsi funksiyası demək olar ki, geniş istifadə olunmur. Ancaq ölüm ayağında peyda olub qəhrəmanı ölümdən qurtarması Azərbaycan Xızırına xas olan xüsusiyyətlərdəndir.

Qazaxlar arasında yayılmış bir inanca görə hansı evə girirsənsə gir, evdə adam var, ya yox, fəqri yoxdur, evə girəndə salam verməк gərəkdir – evin yuxarı başında Xızır oturmuş ola bilər. O isə sayğı görəndə xeyir-bərəkət göndərir. (Azərbaycan türkləri arasında da buna bənzər inanc var, lakin burda Xızırın yerini ev əyəsi tutur). Qazaxlardakı digər inanca görə insan oğlu bütün həyatı boyu 3 dəfə Xızırla qarşılaşarmış, amma onu asan-asan tanıya bilməzmiş. Yox əgər tanısaymış, onda ömrü boyu xoşbəxt yaşayar, taleyi də hər hər vaxt üzünə gülərmiş.

Xalq Şairlərinin xəyali röyalarına girən xəyali varlıqlar arasında Saşlı Dərviş adlı bir qadın var ki, övliyadır. Bu qadınla bağlı rəvayət edilənlərin sonunda onun Xızır olduğu söylənilir ki, bu motiv də öz köklərini bolluq-bərəkət hamisi olan Ulu(Yer) Ana mifoloji obrazına bağlanır. Yer ruhunun şərəfinə keçirilən mərasimlərdə şamanın qadın geyimi geyməsi, ümumiyyətlə, şamanın bolluq, artım ideyası ilə bağlılığı və digər faktlar da bu motivin simvolikasına tam aydınlıq gətirə bilər.

Bundan əlavə, el arasında belə bir inam yaşamaqdadır ki, bərəkətli və tez tükənməyən pul və ya başqa seylərə "Xızırın əli dəyib" deyilir. Bu da onun bolluq hamisi olduqunu bildirir (65, s.152).

Yuxarıda deyilənləri ümumiləşdirərək onun funksiyalarını aşağıdakı kimi göstərmək olar:

- yazın gəlişi ilə bağlı yerinə yetirdiyi funksiyalar
- xilaskarlıq, itənlərə yol göstərmə
- buta vermə
- aşiq, aşıq etmək
- sonsuzlara övlad vermək
- gəncliyin hamisi, başqa sözlə, gənclik, ailə, məhəbbət məbudu
- adqoyma
- ölüləri diriltmə
- bərəkət, bolluq hamisi

Xızırla bağlı dərin tədqiqatlar aparan Əhməd Yaşar Ocaq isə Xızırın funksiyalarını iki yerə bölür:

1. Tasavvufi (mistik) telakillərdə Hızırın funksiyaları
2. Xalq inanclarına görə Hızırın funksiyaları

Birinci bölmə də özü özlüyündə beş yerə bölünür:

a) Mistik yolla kilavuzluq və mürşidlik
b) Bəzi şəxsləri velayet mərtəbəsinə endirmə
c) Tasavvufi gerçəkləri və sirləri öyrətmə
d) Gerçəyin meydana çıxmasına yardımçı olma
e) Fəlakətli və güc durumlarda imdada yetişmə

Eyni zamanda ikinci bölmə də dörd yerə bölünür:

a) Zor durumlarda və fəlakətlərdə yardımçılık
b) Yaxşıları mükafatlandırıb pisləri cəzalandırma
c) Bərəkət və bolluğa qovuşdurma
d) Savaşlara qatılma

Yuxarıda deyilənlərə nəzər saldıqda görürük ki, Azərbaycan folklorunda Xızırın funksiyaları daha çoxdur. Düzdür, digər xalqların folklorundakı Xızırın funksiyalarında da Azərbaycan Xızırının funksiyaları ilə üst-üstə düşəni çoxdur. Lakin onları daha çox bir ad altında xilaskar, dada çatan, yardımçı bir obraz kimi qiymətləndirmək olar.

## Səmavi kitablarda Xızırın dini semantikası

Xızır peyğəmbərin ilkin adının Belya, İlya, İlyas olduğu bir çox kitablarda göstərilir. Məsələn, Ömer Faruk Hilminin "Hızır Aleyhisselam" əsərində Xızır peyğəmbərin həyatı, gəncliyi, kimliyi, doğumu, evlənməsi, peyğəmbərliyi ayrı-ayrı bölmələr şəklində verilib. Yazılana görə Nəmrudun məliklərindən olan Melkanın tək qorxduğu adam Nəmrud idi. Bir gün Melkan Nəmruddan bir əmr alır: "Bu gündən bütün evləri gəzin. Doğulan bütün oğlan uşaqlarını öldürün". Bu fikri bəyənməsə də, Melkan onun dediyini yerinə yetirməli idi. Həmin vaxt Melkanın xanımı Elha da hamilə idi. Bir müddət keçir. Elha ərinin yanına gəlib qorxa-qorxa doğum sancılarının başladığını deyir. Melkan yeganə çıxış yolunun şəhər kənarına çıxıb uşağı orada dunyaya gətirmək olduğunu deyir. Elha tək-tənha yola düşür. Bu anda onun xəyalına uca Allah gəlir və ona: "Ey məni və qarnımdakı körpəni yaradan Uca Rəbbim! Sənə sığındım!" - deyərək kömək diləyir. Beləliklə, o öz övladını, Xızır Əleyhissalamı mağarada dünyaya gətirir (143, s.22). Kitabda Xızırla bağlı ayrı-ayrı bölmələrdə onun ilk adının Belya olduğu göstərilir. Məsələn, "Evlənmə" bölməsində göstərilir:

"Xızır Əleyhissalam evin tək erkək oğluydu.

Babasına hamı:

- Sənin Belyadan başqa oğlun yoxdur. Belyanı evləndir ki, mülkünə sahib çıxacaq mirasçıların olsun.

Melkan bu fikri bəyəndi.

...Ömrünü ibadətə həsr etmiş və Cənab Allahdan başqa heç bir şey düşünməyən Xızır Əleyhissalam isə bütün düşüncələrdən uzaq bir həyat tərzi keçirirdi. Xızır Əleyhissalamın indiki hədəfləri içərisində evlənmək yox idi" (120, s.51).

Lakin Xızırla İlyasın ayrı-ayrı şəxslər olduğunu diqqətə çatdıran digər mənbələr kimi Ömer Faruk Hilmi də “Xızırla İlyas peyğəmbərin görüşməsi” adı altında ayrıca bölmə verir. Yazılana görə İlyas peyğəmbər ölümünün yaxınlaşdığını hiss edir və ağlayır. Allah onun nə üçün ağladığını soruşduqda İlyas peyğəmbər belə cavab verir ki, mənim ağlamağım nə ölüm acısından, nə də cəhənnəm qorxusundandır. Mən ona görə ağlayıram ki, mən öləndən sonra insanlar Sənə mənsiz dua edəcək, oruc tutub, namaz qılacaqlar.

Allah ona deyir:

- Şanıma əmin edirəm ki, məni zikr edən heç kim qalmayana qədər sənin əcəlini gecikdirəcəyəm.

İlyas Əleyhissalama peyğəmbərlik verildi. Və o, gözdən qeyb oldu. Xızır Əleyhissalam ilə dost oldu (120, s.113).

Dəfələrlə qeyd etdiyimiz kimi, Qurandan əvvəlki Səmavi kitablarda Xızırın adına rast gəlmirik. Həmin kitablarda ancaq İlyasdan söhbət gedir. Bibliyada İlyas və onun həyatı ilə bağlı bir neçə əhvalatlar verilir. Bibliyanın istər Əhdi-Ətiq, istərsə də Əhdi-Cədid hissəsində İlyasdan bəhs edilir. Belə ki, Allahın kainatı yaratması, insanın günaha batması, Allahın seçdiyi Israil xalqının tarixi, peyğəmbərlər və peyğəmbərlikdən bəhs edən Əhdi-Ətiqdə İlyas bir neçə məziyyətə malik peyğəmbər kimi təsvir olunur. Birincisini İlyasın Azərbaycan folklorunda mövcud olan su məbudu olması ilə bağlamaq olar. “İlyas peyğəmbər” adlanan rəvayətdə deyilir:

“Illər keçdi. Hökmdarlar dəyişdi və İsrailə Ahav hökmdarlıq etməyə başladı. Ahav özünə qədərki Israil hökmranları arasında ən günahlısı idi. Onun İzevel adlı bütpərəst arvadı vardı. Arvadı Ahavı dilə tutdu ki, o büt Baala itaət etsin, onun üçün məbəd tikdirsin. Bununla yanaşı İzevel əsl Allaha sədaqətliləri məhv etməyə çalışdı.

O zamanlar İsraildə Allahın sədaqətli peyğəmbəri İlyas yaşayırdı. O, hamını həqiqi Allaha itaət etməyə çağırırdı.

Ahav və Izevel İlyasa nifrət edir və onu təqib edirdilər. Çünki o çox adamın qəlbində günahlarından Allaha dönmək arzusunu oyadırdı. Həmin vaxtda Israil xalqı Rəbbin yolundan dönmüş və bütlərə ibadət etməyə başlamışdı. Buna görə də Allah, İlyas peyğəmbərin sözünə əsasən xalqı cəzalandırdı. Üç il yarım ərzində Israil torpağında yağış olmadı. Qorxunc quraqlıq oldu. Rəbb İlyasa buyurdu ki, xəlvət bir yerdə bir çayın yanında Ahavda gizlənsin. Allah quzğunlara əmr etdi ki, hər səhər və axşam peyğəmbərə çörək və ət gətirsinlər. Çayın suyundan isə peyğəmbər susuzluğunu yatırırdı" (92, s.192).

Onun ardınca gələn "Dul qadının oğlunun dirilməsi" əhvalatında da göstərilir ki, bir müddət sonra İlyasın su içdiyi çay quruyur. Onda Allah ona Sidom yaxınlığındakı Sarefat şəhərinə getməyi və orda bir dul qadının evinə düşməyi buyurur. İlyas həmin evə gəlib qadından su və çörək istədikdə o, sonuncu bir ovuc unundan və tuluqdakı azacıq yağdan başqa heç nəyi olmadığını deyir. Kasıb qadın evində bir oğlu ilə yaşayırmış. Belə olan halda İlyas qadına: "qorxma, torpağa yağış verən günə qədər küpdəki un tükənməz, tuluqdakı yağ əskilməz". Peyğəmbər İlyas dul qadının evində yerləşdi. Və Rəbb möcüzə yaratdı; onlar hər gün çörək bişirsələr də İlyasın əvvəlcədən söylədiyi kimi nə yağ, nə də un azalmadı.

Görünür, Azərbaycan folklorunda İlyasın suyun məbudu kimi götürülməsi elə bu rəvayətlə bağlıdır. Burada nə su, nə də un qurtarır - yazılır. Deməli, İlyasın - Xızırın ayağı ruzuludur. Güman ki, mərasim nəğmələrində xalqın Xızır İlyasdan istilik, bol məhsul istəməsi, onun şərəfinə nəğmələr qoşması, Novruz mərasimində keçirilən torpaq, su, yel çərşənbələrində peyğəmbərə qoşulan nəğmələr peyğəmbərin bu xüsusiyyətlərindən irəli

gəlir. Yenə Bibliyada olan digər bir bölməyə nəzər salaq. “İlyas və Baalın peyğəmbərləri” əhvalatında göstərilir: “Bir gün Rəbb İlyasa buyurur ki, hökmdar Ahavın yanına getsin və Baal ilə Arştoret adlı bütlərin peyğəmbərlərini, eləcə də bütün xalqı Karmel dağına yığsın. Hökmdar Ahav hamını dağa yığanda İlyas onlara bu sözlərlə müraciət etdi: “Daha nə zamanadək belə iki tərəf arasında dalğalanacaqsınız? Əgər Rəbb Allahdırsa, onun ardınca gedin. Yox, əgər Baal Allahdırsa, ona tabe olun”. Heç kəs ona cavab vermədi. Onda İlyas xalqa dedi: “Rəbbin peyğəmbərlərindən ancaq mən qalmışam. Baal peyğəmbərləri isə 450 adamdır. Qoy bizə 2 öküz versinlər. Onlar özlərinə bir öküz ayırıb, onu kəssinlər və odunun üstünə qoysunlar. Lakin od qalamasınlar. Mən də ikinci öküzü hazırlayıb odunun üstünə qoyacağam, lakin qalamayacağam. Siz öz tanrınızın, mən də mənim Allahım Rəbbin adını çəkəcəyəm. Odla cavab verən Tanrı əsil Allahdır”.

Xalqın hamısı “Bu yaxşı fikirdir!” deyə cavab verdi.

Baalın peyğəmbərləri onlara verilən öküzü odunun üstünə qoyub qışqırmağa başladılar: “Ey Baal, bizi eşit!” Beləcə onlar bütün günü ağıllarını itirənə kimi qışqırdılar. Lakin heç bir cavab gəlmədi.

Bu zaman İlyas bütün xalqa dedi: “Yanıma gəlin!” Hamı ona yaxınlaşanda o, 12 daş götürdü. Və onlardan qurbangah tikdi. Oraya odun yığıb öküzü kəsdi və odunun üstünə qoydu. Sonra o əmr etdi ki, qurbangaha hər dəfə 4 vedrə olmaqla 3 dəfə su töksünlər. Qurbangahın ətrafında qazılmış xəndək su ilə dolsun. Sonra İlyas dua etməyə başladı: “İbrahimin, İshaqın və İsrailin Allahı və Rəbbi! Bu gün dərk etsinlər ki, sən Israildə yeganə Allahsan. Mən sənin qulunam. Hər şeyi sənin sözünə əsasən etmişəm. Mənə cavab ver, ya Rəbb, cavab ver mənə! Qoy bu xalq dərk etsin ki, sən, ya Rəbb, Allahsan və sən on-

ların qəlbini yenə özünə döndərirsən”. Rəbb öz peyğəmbərinin duasını eşitdi və göydən od töküb qurbanlığı, odunu, hətta ətrafdakı daşları yandırdı. Bunu görcək hamı üzü üstə düşüb dedilər: “Rəbb – Allahdır, Rəbb - Allahdır!”

Rəbb beləcə hamıya göstərdi ki, o yeganə həqiqi Allahdır, büt Baalın peyğəmbərləri isə yalançı çıxdılar” (92, s.196).

Deməli, İlyasın od əmələ gətirmə xüsusiyyəti də var. Bu folklorumuzda Xızır İlyasın odla, Od çərşənbəsi ilə bağlılığı ilə üst-üstə düşür, Od çərşənbəsində ocaq qalamaq, od üstündən atlayıb ağırlıq və xəstəliklərin ötən ildə qalmasını diləmək mərasimləri ilə səsləşir.

Bibliyada Xızırın adlarından biri olan İlyasın odla bağlılığını göstərən bu rəvayət Azərbaycanda yayılan Tufandağı əfsanəsi ilə də tam səsləşir. Qubadan toplanan əfsanəyə görə Xızır Tufandağda buzları qırıb ocaq qalayır. Odun kənarında qızınır. Həmin vaxt Xızırın anası və bacısı oğlunun dağda soyuqdan və aclıqdan ölməməsi üçün ona ərzaq gətirirlər. Birdən dağda Xızırın buzdan ocaq qaladığını görüb elə təəccüblənirlər ki, çaşıb qalırlır. İçərisində düyü olan qab başlarından yerə düşür. Duyu yerə səpələnir. Və o dəqiqə də Xızırın anası və bacısı daşa dönürlər (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı).

Bu əfsanədə 2 məsələ diqqəti cəlb edir. Hər bir əfsanədə, rəvayətdə, atalar sözündə, demək olar ki, bütün yaratdığı nümunələrdə xalq hikməti ilə, ibrətamiz sözləri ilə insanları maarifləndirməyi yaddan çıxarmır. Əfsanədə də başında gətirdiyi sinidən düyünü yerə tökdüyü üçün qadınların daşa dönməsi əhvalatı bu dediklərimizə sübutdur. Bu inam bu gün də xalq arasında yaşamaqdadır. Həmişə, hər bir evdə nənələr, analar düyünün bir dənəsini də yerə tökməməyi məsləhət

görür. Çünki, düyü elə bir nemətdir ki, onu yerə tökmək olmaz: "Daşa dönərsən!"

Əfsanədə bu fikir çox qabarıq şəkildə diqqətə çatdırılır. Burada bizə maraqlı olan digər məsələ isə Xızırla bağlıdır. Ilk baxışdan o qədər də diqqəti cəlb etməyən bu parça Xızırın əsas funksiyaları ilə üst-üstə düşür. Xızır buzda ocaq qalayır. Yuxarıda da deyildiyi kimi Xızır istədiyi vaxt daşları alovlandıra, hətta adətən odu söndürmək funksiyasını daşıyan suda, buzda belə ocaq qalaya bilir.

Bundan başqa folklorda Xızırın funksiyalarından danışarkən onun ölüləri diriltmə bacarığının olmasından da bəhs etmişdik. Düzdür, bu funksiya Azərbaycan folkloruna doğma deyil. Lakin digər türk xalqlarında bu funksiyadan geniş olmasa da istifadə olunub. Yenə Bibliyada "Dul qadının oğlunun dirilməsi" bölməsindən misal gətirək. Burada göstərilir ki, İlyasın evində qaldığı dul qadının oğlu xəstələnib ölür. Yaslı ana fikirləşir ki, Allah onu keçmiş günahları üçün cəzalandırıb. Göz yaşları ilə o, ölü uşağını götürüb peyğəmbərin yanına gəlir. İlyas ona deyir: "oğlunu mənə ver". O, uşağın ölüsünü dul qadından alıb öz otağına aparır. Onu öz yatağına uzadıb Rəbbə dua edərək deyir: "Rəbb, Allahım mənim! Məgər evində yaşadığım bu dul qadına da oğlunu öldürərək müsibət gətirəcəksən?" Sonra o 3 dəfə uşağın üstünə uzanıb Allaha dedi: "Rəbb, Allahım mənim! Qoy bu yeniyetmənin canı özünə qayıtsın". Rəbb sədaqətli peyğəmbərinin səsini eşitdi və dul qadının oğlunu diriltdi. İlyas uşağı anasına gətirib dedi: "Bax, sənin oğlun sağdır!" Sevinən qadın peyğəmbərə: "İndi mən bildim ki, sən Allah adamısan və Rəbbin kəlamı həqiqətən sənin ağzından çıxır" - deyə təşəkkür etdi (92, s.194).

İsa Məsihin doğulması və həyatı, onun təlimi, günahkar insanların xilası naminə ölməsi və dirilməsi, ilk məsihçilərin

həyatı haqqında danışılan Əhdi-Cədiddə də İlyas xilaskar bir peyğəmbər kimi göstərilir. Hətta İsa çarmıxa çəkilərkən də onu İlyasın xilas etdiyi söylənilir.

"İncil"in 27-ci fəslində yazılır ki, İsa son anda "Allahım! Allahım! Sən məni nə üçün tərk etdin?!" - deyə qışqırdıqda orada duranların bəziləri bunu eşitdilər və "Bu adam İlyası çağırır" - dedilər. Başqaları isə dedilər: "Qoy görək İlyas onu xilas etməyə gələcəkmi?" (92, s.611).

Burada söylənilənlərdən haqqında söhbət açdığımız Xızır peyğəmbərin Xızırdan əvvəl İlyas adı ilə tanındığı aydın olur. Və eyni xüsusiyyətlərə malik olan İlyas və Xızırın eyni bir şəxs olduğuna şübhə qalmır. Lakin onların adının sonradan dəyişmə səbəbi isə qaranlıq olaraq qalır. Burada ancaq bir ehtimal irəli sürülə bilər. İlyas peyğəmbərin su məbudu olması, bəzi məsəllərdə göstərildiyi kimi əlini vurduğu quru ağacın çiçəklənməsi və quru torpaqların yaşıllığa çevrilməsi kimi möcüzələr onun yaşıllıq, yaşıl, yaşıllaşdıran kimi mənalar verən yeni bir adının, daha doğrusu, ləqəbinin meydana çıxmasına səbəb olmuşdur. Elə buna görə də Qurani–Kərimdə peyğəmbər ərəb dilinə tərcümədə yaşıl, yaşıllıq mənasını verən Xızır kimi təqdim edilir.

## Qurani-Kərimdə Xızır

Folklor nümunələrində Xızır daha çox mifik obraz kimi təqdim olunsa da, müqəddəs kitablarda, o cümlədən Qurani-Kərimdə Xızır bir peyğəmbər və tarixi şəxsiyyət kimi göstərilir. Qurani-Kərimin 18-ci "əl-Kəhf" ("Mağara") (60) surəsinin 65-ci ayəsində Xızır belə təqdim olunur: "(Musa və Yuşə orada) öz dərgahımızdan mərhəmət (peyğəmbərlik və vəhy), yaxud ilham və kəramət əta etdiyimiz və öz tərəfimizdən elm

(qeybə dair bəzi biliklər) öyrətdiyimiz bəndələrimizdən birini (Xızırı) tapdılar".

Qurani-Kərimin 18-ci Əl-Kəhf surəsi 110 ayədən ibarətdir. 28 ayənin Mədinədə nazil olduğunu söyləyən bəzi fikirlər istisna olmaqla surənin Məkkədə tamamlandığı ehtimal olunur. Bu surəni digər surələrdən ayıran əsas özəllik ondan ibarətdir ki, yüzilliklər boyunca bütün müsəlmanlar tərəfindən çox diqqət çəkən üç hadisənin hekayəsinin təsviri verilir. Hər üç hadisə istər şifahi xalq ədəbiyyatında, istər müsəlman mistisizmində geniş şəkildə istifadə olunmuşdur. Işarə olunan həmin üç hadisə aşağıdakılardır:

a) Əshəvi-Kəhf adıyla tanınan kişilərin başından keçənlər (9-25-ci ayələr)

b) Əsas mövzunu təşkil edən Həzrəti Musa və Xızır yoldaşlığı (60-82-ci ayələr)

c) Zülqərneyn vəYəcuc hadisəsi (83-98-ci ayələr)

Bu üç hadisə üzündən Əl-Kəhf surəsi Yasin surəsi qədər uzun olmasa da, namazdan kənarda ən çox oxunan surədir. Xüsusilə Aqar ölkələrində hər cümə xütbədə əvvəl mütləq bu surənin oxunduğunu göstərən məlumatlar var (126, s.43-44).

Quranın "Əl-Kəhf" (Mağara) surəsinin bir neçə ayəsi Musa peyğəmbərlə Xızırın yoldaşlığına həsr olunub. Bu ayələrdə Xızırın bir çox məziyyətləri, dirilik suyu, Xızırının həmin sudan içib əbədilik qazanması və digər məsələlər üzə çıxır. Burada yazılanlara görə Musa peyğəmbər Xızırla görüşmək fikrinə düşür. O, öz ixtiyarında olan və gənc dostu Yuşə İbn-Nuna deyir ki, mən Xızırla görüşmək üçün iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolaşmayınca geri qayıtmaq fikrində deyiləm. Əvvəlki bölmələrdə də qeyd olunduğu kimi onlar Xızırı, yemək üçün götürdukləri balığın dirildiyi iki dənizin qovuşduğu yerdə tapırlar. Yuşə balığın

dirilməsi haqqında Musaya xəbər verəndə Musa peyğəmbər deyir: “Elə istədiyimiz, axtardığımız da budur”. Onlar cəld həmin ləpirlərin izinə düşüb həmin yolla geri - iki dənizin qovuşduğu yerə qayıtdılar və burada Xızırı tapdılar.

Bundan sonrakı ayələrdə Musa ilə Xızırın yoldaşlığı açılır. Göstərilir ki, Musa peyğəmbər Xızır peyğəmbərdən xahiş edir ki, öyrədildiyi doğru yolu göstərən elmi ona da öyrətsin. Xızır ona belə cavab verir: “Sən mənimlə bir yerdə olsan, görəcəklərinə əsla dözə bilməzsən. Onlara səbrin çatmaz. Çünki mən batini elmlə iş görürəm. Sənin bildiyin isə ancaq zahiri elmdir. Sən peyğəmbər olduğun üçün mən zahirən qadağan olunmuş bir iş gördükdə ona etiraz edib əleyhimə çıxacaqsan”. Musa isə cavabında “İnşallah, səbrli olduğumu görəcəksiniz” - deyir. Burada Xızır ondan heç nə soruşmayacağı və səbəbi ona izah etməyəcəyi təqdirdə onunla yoldaş olmağa razılıq verir. Bundan sonrakı yoldaşlıq hadisəsini olduğu kimi təqdim edirik:

“71. Bundan sonra onlar durub yola düşdülər. Gəmiyə mindikləri zaman (Xızır) onu deşdi (gəminin bir-iki taxtasını sındırıb çıxartdı). Musa dedi: “Sən gəmidə olanları suya qərq etmək üçünmü gəmini deşdin? Doğrusu olduqca məzəmmətə layiq bir iş gördün!”

72. (Xızır) belə cavab verdi: “Sənə demədimmi ki, mənimlə bir yerdə olanda (görəcəyim işlərə) əsla dözə bilməzsən?”

73. Musa dedi: “Unutduğum bir şeyə görə məni danlama və məni öz işimdə (sənə tabe olmaqda) çətinliyə salma!”

74. Yenə getdilər və nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda (Xızır) dərhal onu öldürdü. Musa dedi: “(heç bir günah iş tutmayan, buna görə də qisasa layiq olmayan) pak, məsum bir canamı qəsd etdin? Doğrudan da çox pis iş gördün?”

75. (Xızır) yenə belə cavab verdi: "Sənə demədimmi ki, mənimlə bir yerdə olanda (edəcəyim əməllərə) əsla dözə bilməzsən?"

76. Musa dedi: "Əgər bundan sonra səndən bir şey barəsində xəbər alsam, bir daha mənimlə yoldaşlıq eləmə (Hərəkətlərinə etiraz etdiyim, səni qınadığım üçün). Sən artıq mənim tərəfimdən üzrlüsən (məni atıb getməyə haqqın vardır).

77. Sonra yenə yola düzəlib getdilər. Axırda bir məmləkət əhlinə yetişib onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq etmək (Musaya və Xızıra yemək vermək) istəmədi. Onlar orada yıxılmaq (uçulmaq) üzrə olan bir divar gördülər. (Xızır) onu düzəltdi. Musa dedi: "əgər istəsəydin, sözsüz ki, bunun müqabilində bir muzd (çörək pulu) alardın".

78. (Xızır) dedi: "Bu, artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır. (Zahirən naməqbul olduğunu gördüyün üçün) dözə bilmədiyin şeylərin daxili mənasını (batinini, mahiyyətini) sənə xəbər verəcəyəm.

79. Belə ki, gəmi dənizdə çalışıb vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki həmin adamların arasında (yaxud qabağında) hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi.

80. Oğlana gəldikdə onun ata-anası mömin kimsələr idi (Mən onun alnına baxıb gördüm ki, həddi-buluğa yetişəndə kafir olacaq), buna görə də biz (onun böyüyəndə) ata-anasını da (öz arxasınca) azğınlığa və küfrə sürüklənməsindən qorxduq.

81. Və Rəbbin onun əvəzində onlara daha təmiz və (ata-anasına qarşı) daha mərhəmətli olan başqa bir övlad verməsini istədik.

82. Divara gəldikdə isə o şəhərdə olan iki yetim oğlanın idi. Altında onlara çatası bir xəzinə vardı. Onların atası əməli saleh bir adam idi. Rəbbim onların həddi-buluğa çatmalarını və

Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi. (Ya Musa!) Mən bunları öz-özümüzdən istəmədim (Yalnız Allahın əmrini yerinə yetirdim). Sənin səbr edib dözə bilmədiyin şeylərin daxili (batini) mənası budur" (60, s.270-273).

Azərbaycan folklorundakı Xızır obrazının yerinə yetirdiyi funksiyalara nəzər yetirsək görərik ki, onların əksəriyyəti Qurani-Kərimdə Xızır peyğəmbərin məziyyətləri ilə üst-üstə düşür. İstər onun əbədi həyat yaşayan yeganə şəxsiyyət olması, batini elmlərə sahib olması, insanların gələcək taleyini, eyni zamanda keçmişini bilməsi, hətta müəyyən hadisələrin sonrakı inkişafına təsir etmək qabiliyyətinə malik olması Qurani-Kərimdə açıq-aşkar görünür.

# NƏTİCƏ

Nəticə olaraq qeyd etmək olar ki, Xızır əfsanəvi qəhrəmanlığı ilə həm folklor, həm sufi, həm də xalq inanc və telakilərində geniş yer tutur. İslam qaynaqlarında Xızır haqqında geniş tədqiqatların aparılması folklorşunaslıqdakı Xızır obrazına da mütləq təsirini göstərir. Belə ki, bəzi İslam alimləri Xızırın peyğəmbər, vəli və ya mələk olduğu məsələsində dəyişik görüşlər irəli sürmüşlər.

Onun Nəbi olduğunu söyləyənlər Allah tərəfindən rəhmət və elm verilmış olmasını, gördüyü işləri öz-özünə etmədiyini, vəhy ilə yönləndirilməsini, sahib olduğu bilgilər dolayısıyla Musadan üstün bir mövqedə tanıdılmasını dəlil olaraq göstərirlər. Xızırın vəli olduğunu qəbul edənlər (sufi ərbabı) isə bilginin doğrudan da Allahdan gələn bir ilham ola biləcəyini söyləyirlər. Bu mənada qoruyucu (hami) ruh olan Xızır türk etnik-mədəni ənənəsində “övliya”, “ərən” anlayışı ilə ifadə olunan mifoloji varlıqların ölçülərinə daha uyğun gəlir - deyən tədqiqatçılar türk tanrıcılığında peyğəmbər anlayışı olmadığı fikrindədirlər. Onlar Xızır/Xıdırın peyğəmbər statuslu olduğunu düşünmək, əslində tanrıçılıq görüşləri ilə bir ziddiyyət yaradır fikrinə əsaslanırlar (65, s.153). Onların fikrincə ölübdirilmə ideyası ilə bağlılığı da Xızır obrazının tanrıçılıq görüşləri işığında araşdırıla bilməsini mümkün edir. Məhz bu ideyaya bağlılığına əsasən araşdırıcılar Xızırın dünyanı dolaşaraq darda qalanların dadına yetməyindən başlamış yerdə qalan bütün funksiyalarının Yaradan əbədi Tanrının öz varlığından qaynaqlandığı qənaətindədirlər (65, s.154; 111, s. 411).

Hər 500 ildən bir onun cisminin, bədəninin başdan-başa təzələnməsi, tez-tez səma məclislərinə qoşularaq vəch halına

gəlməsi kimi fikirlərə üstünlük verənlər də bu yönün övliyalıq yönü olduğunu düşünənlərdir (111, s.152).

Xızırın bir mələk olduğu iddiası isə çox tərəfdar tapmamışdır. Onun peyğəmbər olmadığı fikrində olanlar, daim həyatda olduğu və ölməzliyi fikri ilə razılaşmayanlar əsasən Qurani Kərimdə əl-Ənbiya surəsinin 34-cu ayəsində (60, s.302) "Biz səndən öncə hec bir insana ölməzlik vermədik" fikrini əsas gətirirlər. Bu mənbələrdə Qurani-Kərimdə Xızır adı çəkilmir deyilir, Musanın görüşdüyü "bəndə"nin Xızır olduğu iddiasının isə onun ölməzliyi və peyğəmbərliyi ilə əlaqəsi olmadığı bildirilir (111, s.152).

İslam qaynaqlarındakı doğruluğu hələki mübahisəli olan rəvayətlərdə Xızırın şəxsiyyəti haqda müxtəlif fikirlər var. Bu fikirlər içərisində üstünlük təşkil edəni Xızırın ta qiyamətə qədər yaşayacağı fikridir. Bəzi ələvi-bəktaşı şairlərinin şeirlərində Xızırın adı Əli ilə bir yerdə çəkilir və bir sıra Qızılbaş rəvayətlərində Xızır rolunun Həzrət Əliyə verildiyi açıq görünür. Bəzi ələvilərə görə isə Əlinin adlarından biri Xızırdır və bu adla da dünyada yaşayır. Pir Sultana isnad olunan bir seirdə: "Min bir adı vardır, bir adı Xızır" deyilir (111, s. 152). Xızır inancı zamanla Mehdi inanciyla da bağlanılmış, İbnül-Arabi, qiyamət yaxınlaşıb Mehdi zühur edincə Xızırın ona şahidlik edəcəyini irəli sürmüşdür (111, s. 410). Şərhçi əs-Səhləbi deyir: Xızır peyğəmbərdir və bütün mənbələr göstərir ki, o sağdır və insanların gözünə görünür. Həmçinin deyirlər ki, Xızır ancaq qiyamət günü, Quran göyə qaldırıldığı zaman öləcək (163).

Bəzi hədisçilərlə tarixçilərin qeyd etdiyinə görə Xızırın Dəccalı yalanlaması (Dəccal sözünün mənası yalan söyləmək, bir şeyi-bir seyə qarışdırmaq, gizləmək və örtmək anlamına gəlir. Qiyamət saatlarının böyük əlamətlərindən biri də özünün

Rəbb olduğunu iddia edən Dəccal adlı birinin meydana çıxmasıdır. Ona bu ad haqqı örtdüyü və çox yalan söylədiyi üçün verilmişdir) (162) üçün ömrünün uzadıldığı (İnn Hacer, əl-İsabə, 1, 431), Dəccalın qarşısına çıxacaq kişinin Xızır olacağı (Nəvəvi, XVIII, 72, ), Həzrəti peyğəmbər dönəmində həyatda olduğu və peyğəmbərin elçisi olaraq Enes ilə görüşdüyü (Beyhaki, V, 423), Rəsulullah vəfat etdiyi zaman gəlib Əhli-beytə başsağlığı verdiyi (İbn-Kəbir,1,14) (bəzi mənbələrə görə şiəlikdə xüsusi yeri olan Xızır Həzrəti Əlinin ölümünə görə Əhli Beytə başsalığı diləmiş, Nəzrəti Hüsüyn şəhid olan zaman ardınca mərsiyə oxumuşdur) (65, s. 151), Cəbrayıl, Mikayıl və İsrafil ilə hər il Ərəfatda görüşdükləri xəbər verilmişdir (164; 111, s 407).

İstər kəlam, təfsir və hədis alimlərinin çoxu, istərsə folklor tədqiqatılarının əksəriyyəti Xızırın Nəbi olduğunu düşünənlərdir (111, s.407; 164). Onun ölməzliyi fikri ilə razılaşmayanlar və bunu Qurani Kərimin əl-Ənbiya surəsinin 34-cu ayəsi (60, s. 302) ilə əlaqələndirənlər isə bir məsələni diqqətdən qaçırırlar. Doğrudur, Qurani Kərimdə Xızırın ölməz olduğu birbaşa göstərilmir. Amma Musa və onun dostunun axtardıqlarını (Xızırı) balığın dirildiyi yerdə tapacaqlarını düşünmələri, dolayısıyla Xızırın balığın dirildiyi yerlə bağlılığı açıq şəkildə Xızırın ölməzlik qazanmasını ifadə edir. Bəzi dini mənbələrdə də deyilir ki, Məhəmməd peyğəmbərə verilən 40 sualın 29-cusu Xızır İlyasla bağlıdır: "Ya Məhəmməd xəbər ver o peyğəmbərlərdən ki, yerdə və göydə diridirlər". Sualına Rəsuli Əkrəm buyurmuşdur: "... Yerdə olanlar isə Xızır və İlyasdır" (62, s.52; 66, s.131;167). Amma onu vəli, mələk, nəbi adlandırmalarından asılı olmayaraq bütün alimlər yekdildilər ki, Xızr (Xıdr) həmişəyaşardır və aramızdadır (163).

Xızır Azərbaycan folklorunda bir neçə adla tanınır ki, monoqrafiya boyu bu adlar ayrı-ayrı yerlərdə dəfələrlə işlənmiş, onların funksiyaları, folklor nümunələrindəki iştirakı təkrar-təkrar vurğulanmışdır. Bu adların təsnifatını bir daha xatırladaraq deməк istərdik ki, professor S.Paşayev Xızırı üç formada – Xıdır Nəbi, Xıdır İlyas və Xıdır Zində (79, s.128), M.Seyidov isə Xıdır Nəbi, Xıdır İlyas və Xıdır Elləz kimi təsnifləşdirir. Xızırın bu cür müxtəlif variantlılığı həm də regional xarakter daşıyır. Məsələn, Xıdır Zində ilə bağlı örnəklərə daha çox Siyəzən, Dəvəçi, Quba, Xaçmaz bölgələrində, Xıdır Elləzlə bağlı nümunələrə isə Qazax, Ağstafa, Daşkəsən, Gədəbəy bölgələrində rast gəlinir. Xıdır İlyas və Xıdır Nəbi isə daha geniş yayılmışdır.

Aparılan araşdırmaya istinad edərək bəzi yerlərdə bir qədər təkrara yol verəcək olsaq da Xızırın variantlarının izahına diqqət yetirək və daha dəqiq ifadə edək:

Xıdır – Xızırın ərəb variantıdır.

Xızır – peyğəmbərin "Qurani-Kərim»dən gələn adıdır (Kitabda bu ad birbaşa yazılmasa da haqqında danışılan "bəndə"nin Xızır olduğu bütün dini və elmi mənbələrdə təsdiqlənir).

Xıdır İlyas, başqa sözlə yalnız İlyas – "Qurani-Kərim"-dən əvvəl yazılmış səmavi kitablarda Xızırın əvvəlki adıdır. Ad Tövratdan gəlmədir. Ehtimal etmək olar ki, İlyasın Xızır ləqəbi ilə adlandırılmasına səbəb onun yaşıllıq məbudu olmasıdır. Belə ki, Xızır ərəbcədən tərcümədə yaşıl, yaşıllıq deməkdir.

Xızır Nəbi - Nəbi sözünün mənasının peyğəmbər olduğunu nəzərə alsaq, Xızır Nəbi sadəcə Xızır peyğəmbər deməkdir.

Xıdır Elləz və ya sadəcə Elləz – Elləz İlyas sözünün ləhcə və dialektə görə başqa formada səsləndirilməsidir. Indi

də bir çox kənd yerlərində İlyas adında olan şəxslər Elləz kimi çağırılır.

Xıdır Zində – Zində ərəbcədən tərcümədə "diri" deməkdir. Burada isə Xızır peyğəmbərin ölümsüzlüyünə, dirilik suyu içib əbədi həyat qazanmasına və həmişə diri, sağ qalmasına işarə olunur.

Bütün bu variantlara daha dərindən yanaşılması və araşdırılması bir daha göstərir ki, bu adların hamısı bir şəxsə aiddir. Sadəcə öz folklorunda Xızıra yer verən xalqların şifahi dilində onun müxtəlif variantlarının işlənməsi regionun dialektindən və tarixi dövrlərdən asılı olaraq dəyişikliklərə məruz qalmışdır.

Xızırın ilkin adının İlyas olduğu bir çox mənbələrdə göstərilməkdədir. Osman Mirzə şəxs adlarının mənasından bəhs edən "Adlarımız" kitabında İlyas sözünün mənasını belə açır: "Parisin baş meydanı Yelisey çölü adlanır. İstəsəniz ona İlyas çölü də deyə bilərsiniz. Çünki İlyas və Yelisey İlyanın variantlarıdır. Mənası "ilahi qüvvə"dir. Şərq aləmində onun məcazi mənası "dada çatan"dır. Çünki ərəb rəvayətlərində də İlyas peyğəmbərdir, suda fəlakətə uğrayanlara kömək edir. İslam hədislərində İlyasın bir adı Xızırdır. Lakin bəzən Xızırla İlyasa fərq qoyulur. İlyas suda, Xızır isə quruda imdada yetir" (68, s.171).

"Qurani–Kərim"dən məlum olur ki, Xızır Allah-Təala tərəfindən peyğəmbərlik və qeybə dair bəzi biliklər verilmiş, dirilik suyundan içmək qismət olan yeganə şəxsdir. Güman ki, Xızırla bağlı əfsanə və rəvayətlər buradan qaynaqlanmışdır. Deməli, İlyas və Xızır eyni şəxsiyyətdir. Lakin xalqın sonrakı təsəvvürlərində bu adlar birləşərək bir ad olmuşdur.

İşin nəticəsi olaraq demək olar ki, Azərbaycan foklorunda Xızır bütün janrlara nüfuz etmişdir. Onları aşağıdakı ardıcıllıqla vermək olar:

1. Mərasim nəğmələri
2. Dastan
3. Aşıq şeri
4. Fal
5 Ovsun
6. İnanc
7. Alqış
8. Dua
9. And
10. Əfsanə və sairə.

Ümumiləşdirərək onu demək olar ki, Xızırla bağlı məşhur elm adamları, alim və tədqiqatçılar sanballı elmi materiallar hazırlayıb ortaya qoymuşlar. Bu monoqrafiyada isə Xızırın ayrı-ayrı janrlar üzrə araşdırılması, Azərbaycan folklorunda ümumiləşmiş bir obraz kimi tədqiqi və onun şifahi xalq ədəbiyyatında yayılan funksiyaları araşdırılmışdır. Lakin onu da qeyd edək ki, Xızır elə bir obrazdır ki, hətta onun ayrı-ayrı funksiyaları, janrları üzrə belə ayrıca tədqiqat işləri aparmaq olar.

## Ədəbiyyat siyahısı

1. Abbasov İ. Əsli və Kərəm dastanının izi ilə //Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. K.4. - B.: Elm, 1973. - s.31-54.
2. Abdulla B. "Kitabi-Dədə Qorqud"da ağ rəngin semantikası //Folklor və etnoqrafiya. Beynəlxalq elmi jurnal. - B.; 2004. - №1. - s.38-54.
3. Abdulla B. Mərasim folkloru//Azərbaycan ədəbiyyatı tarixi: 6 Cilddə, I cild.-Bakı, Elm, 2004.- s.98-103.
4. Abdullayev B. Azərbaycan folklorunun qədim janrlarından //Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. K.6.- B.: Elm, 1981. - s.90-135.
5. Abdullayev B. İlkin söz sənəti //Göyər səmənim, göyər. - B.Gənclik, 1993.- s.3-8.
6. Acalov A. Azərbaycan dastanlarının mifoloji semantikası (ölüb-dirilmə motivi) //Azərbaycan SSR EA-nın Xəbərləri.- 1984. - №3. - s.17-22.
7. Ağalar M., Mehdiyev I. Novruz töhfəsi.- B.: Gənclik, 1989. - 112s.
8. Alqışlar //Mərasimlər, adətlər, alqışlar.- B.: Gənclik, 1993. - s.134-163.
9. Araslı H. XII-XIII əsr Azərbaycan ədəbiyyat tarixi.-B.; 1956.
10. Azərbaycan dastanları. I cild. Tərtib edəni: Ə.Axundov, M.H.Təhmasib-B.: Azərbaycan SSR EA Nəşriyyatı,1965. 380s.
11. Azərbaycan dastanları. II cild. Tərtib edəni: Ə.Axundov, M.H.Təhmasib.-B.: Azərbaycan SSR EA Nəşriyyatı, 1966. 476s.
12. Azərbaycan dastanları. III cild. Tərtib edəni: Ə.Axundov. - B.: Azərbaycan SSR EA Nəşriyyatı, 1967. - 340s.

13. Azərbaycan dastanları. IV cild. Tərtib edəni: M.H.Təhmasib. - B.: Azərbaycan SSR EA Nəşriyyatı, 1969. - 508s.
14. Azərbaycan dastanları. V cild /Redaktor: N.Seyidov. - B.: Azərbaycan SSR EA Nəşriyyatı, 1972. - 447s.
15. Azərbaycan el ədəbiyyatı. I hissə /Toplayanı: H.Əlizadə/. - B.; 1929.
16. Azərbaycan ədəbiyyatı tarixi. I cild. - B.; 1960.
17. Azərbaycan folkloru antologiyası. K.1. - B.: Elm, 1968. – 289s.
18. Azərbaycan folkloru antologiyası. K.2.-B.: Elm, 1968.259s.
19. Azərbaycan məhəbbət dastanları. Tərtib edəni: M.H.Təhmasib və başqaları. - B.: Elm, 1979. – 501s.
20. Azərbaycan mifoloji mətnləri. - B.: Elm, 1988. - 194s.
21. Azərbaycan nağılları. 5 Cilddə.- B.; 1960-1964.
22. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 C-də. I cild. - B.; 1982. – 600s.
23. Azərbaycan xalq dastanları. I K. - B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1961. – 356s.
24. Azərbaycan xalq dastanları. II K. - B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1961. – 304s.
25. Azərbaycan xalq dastanları. Tərtib edəni: Ə.Axundov. - B.: Yazıçı, 1983. – 251s.
26. Azərbacan xalq dastanları. Tərtib edəni: A.Vəfalı. - B.: Gənclik, 1988. – 580s.
27. Babayeva S. "Kitabi Dədə Qorqud" dastanında Xızır obrazı və onunla bağlı süjetin spesfik cəhətləri //Elmi araşdırmalar 1-2, V buraxılış.- B.; 2003.- s.16-21.
28. Bertels S. İsgəndərnamə //N. Gəncəvi. İsgəndərnamə. - B.; 1963. –s.3-8.

29. Beşbarmaq dağı əfsanəsi “Xıdır Zində Baba” (mətn) // Sirli Azərbaycan.- 2008.- 10 iyul.- s.6
30. Bəxt xətti falı //Novruz. – B.: Yazıçı,1992. - s.103.
31. Bilqamıs dastanı /Tərcümə: I.Vəliyev. - B.; 1985.- 102s.
32. Cəfərzadə Ə. Xıdır Nəbi bayramı //Foklorşünaslıq məsələləri elmi məcmuəsi.- B.: ADU, 1991. - s.8-12.
33. Cəmşidov Ş. Kitabi Dədə-Qorqud. - B.: Elm, 1977. - 175s.
34. Dastanlar və nağıllar /Toplayanı H.Əlizadə. - B.; 1937.
35. Dünya uşaq ədəbiyyatı kitabxanası. El çələngi. - B.: Gənclik, 1983. – 388s.
36. El düzgüləri, elat söyləmələri.- B.; 1993. – 176s.
37. Elxan, Elçin Muxtar. Yeddi çərşənbə, yeddi bayram.- B.; 2009.- 138s. .
38. Elxan, Elçin Muxtar Xan Xıdır (qədim mərasimin bərpası)// Mədəniyyət.- 2007.-16 fevral.- s.6.
39. Etiqad və mərasimlər //Novruz. - B.: Yazıçı, 1990. – 128s.
40. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni: Ə.Mirəhmədov. - B.; 1988. – 268s.
41. Əfəndiyev P. Şifahi xalq ədəbiyyatı. - B.; 1992. - 477s.
42. Əfsanələr. - B.: Gənclik, 1986. – 174s.
43. Ərəb-fars sözləri lüğəti. - B.: EA nəşriyyatı, 1966. – 1025s.
44. Gəncəvi N. İsgəndərnamə (Şərəfnamə). - B.; 1954. – 426s.
45. Gəncəvi N. İsgəndərnamə. - B.; 1963. – 440s.
46. Gəncəvi N. İqbalnamə. - B.; 1967. – 279s.
47. Göyər, səmənim, göyər. - B.: Gənclik, 1983. – 184s.
48. Heyət C. Azərbaycan şifahi xalq ədəbiyyatı. - B.: Azərnəşr, 1990. - 160s.
49. Həkimov M. Azərbaycan şifahi xalq ədəbiyyatından xüsusi kurs. - B.; 1975.
50. Həzrət Süleymanla Bilqeyis //Azərbaycan klassik kitabxanası: 20 cilddə. C.1. - B.: Elm, 1982. - s.509.

51. Xəlilov N. Dini əfsanə və rəvayətlərin Nəsimi şeirlərinə təsiri //Folklorşünaslıq məsələləri. IV buraxılış. - B.; 1999. – s.28-36.
52. Xətai. Ş.İ. Dəhnamə. Tərtib edəni: H.Araslı. - B.; 1959. - 182s.
53. Xıdır Nəbi mərasimi //Mərasimlər, adətlər, alqışlar. - B.: Gənclik, 1993. – s.168.
54. Ibrahimov I. Atalar sözü və məsəllər //Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. - B.;1961. – s.10-18.
55. İncil. - Stokholm: Bibliya Tərcümə İnstitutu, 1991. - 612s.
56. Kitabi-Dədə Qorqud. Tərtib edəni: H.Araslı. - B.; 1962. – 171s.
57. Kitabi-Dədə Qorqud. Tərtib edəni: F.Zeynallı, S.Əlizadə. - B.; Yazıçı, 1988. – 265s.
58. Koroğlu /Toplayanı: M.H.Təhmasib. - B.; 1949. – 482s.
59. Qövsi. Divan. /Əlyazması. Gürcüstan Dövlət muzeyində.
60. Qurani-Kərim: Tərcümə Z.Bünyadov, V.Məmmədəliyev. - B.: Azərnəşr, 1992. - 711s.
61. Quliyeva R. Azərbaycan məhəbbət dastanlarının bədii özünəməxsusluğu (dissertasiya işi). - B.; 1993. – 122s.
62. Məhəmməd peyğəmbər. 40 sual 40 cavab. Kəlamlar. Tərtib edib çapa hazırlayanı S. Kərimli.-B.: Qanun, 2012.- 117s.
63. Məmmədov B. Seçilmiş məqalə və məruzələri. - B.; 1968.
64. Məmmədov C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya.- B.: Mütərcim, 2007.-272s.
65. Məmmədov C. Türk mifoloji sözlüyü.- B.: Elm, 2003.- 418s.
66. Məmmədov Ş. Azərbaycan folkloru.-B.: Ziya-Nurlan, 2008.- 325s.
67. Mir Cəlal və Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. - B.: Maarif, 1972. – 280s.

68. Mirzəyev O. Adlarımız. - B.; 1993. - 272s.
69. Namazov Q. İlyaz bayramı. 3 peyğəmbər. - B.: Çaşıoğlu, 2012.- 90 s.
70. Namazov Q. Şerimizdə baharın vəsfi. - Bakı. - Respublika. - 2005. - s.3.
71. Nemət P. Azərbaycandakı pirlər. - B.; 1992. – 104s.
72. Nəbiyev A. Toplayıcının şəxsi arxivi. - qovluq 5/2, əlyazma №21
73. Nəbiyev A. Ilaxır çərşənbələr. - B.; 1992. - 62s.
74. Nəbiyev A. Mərasimlər, adətlər, inanclar //Mərasimlər, adətlər, alqışlar. - B.: Gənclik, 1993. – s.6-12.
75. Nəsimi I. Seçilmiş əsərləri. Tərtib edəni: Ə.Səfərli. - B.: Maarif, 1985. – 440s.
76. Nərimanov N. Əsli və Kərəm. - B.: Yeni Iqbal qəzeti. - 1916. - 21 aprel.
77. Novruz. - B.: Yazıçı, 1992. - 127s.
78. Nuh peyğəmbər rəvayəti //Azərbaycan klassik kitabxanası: 20 cilddə. C.1. - B.: Elm, 1982. – s.69.
79. Paşayev S. Nizami və xalq əfsanələri. - B.; 1983. – 128s.
80. Paşayev S. Yanardağ əfsanələri.- B.: Gənclik, 1978.- 158s.
81. Paşayev S. Yaşayan əfsanələr.- B.: Gənclik, 1973.- 66s.
82. Paşayev S. Yurdumuzun əfsanələri.- B.: Gənclik, 1976.- 44s.
83. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. - B.: Azərnəşr, 1991.- 232s.
84. Seyidov M. "Alı kişi və Koroğlu obrazlarının prototipləri haqqında" //Azərbaycan toplusu. - 1978. - №3. - s.184-207.
85. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. - B.; 1983. - 326s.
86. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. - B.: Yazıçı, 1983. - 496s.

87. Seyidov M. Göy, ağ, qara rənglərin əski inamlarla əlaqəsi //Azərbaycan EA Xəbərləri /Dil, ədəbiyyat və incəsənət seriyası. - 1978. - № 2. - s.20-38.
88. Seyidov M. Qam şaman və onun qaynaqlarına ümumi baxış. - B.: Gənclik, 1994. – 232s.
89. Seyidov M. Yaz gəlir //Novruz töhfələri. - B.: Gənclik, 1989. – s.5-8.
90. Təhmasib M.H. VII əsrə qədər Azərbaycan şifahi xalq ədəbiyyatı //Azərbaycan ədəbiyyatı tarixi. I cild. - B.; 1960.
91. Təhmasib M.H. Azərbaycan xalq dastanları /Orta əsrlər/. - B.: Elm, 1972. – 399s.
92. Uşaq bibliyası. - Stokholm: Bibliya Tərcümə Institutu, 1995. - 542s.
93. Vəliyev V. Azərbaycan folkloru. - B.: Maarif, 1985. - 414s.
94. Vurğun S. Bulaq əfsanəsi //Vurğun S. III cild. - B.: Elm, 1989. – s.180-182.

**Türk dilində**

95. Ahundov E. Azerbaycan halk yazılı örnekleri /Tercüme edeni: Semih Tezcan. - Ankara, 1978.
96. Azis Hidahi. Manastr Türklerinin bazi Hıdırellez adetleri. T.K.,Sayı: 68.- Haziran. - 1968.
97. Boratav P.N. Köroğlu destanı. – Istanbul; 1931.
98. Çelebi Elvan-Menakibu'l-Kudsiyye fi Menasibi'l Ünsiyye. - Konya Mevlana Muzesi Kütüphanesi, 4739
99. Çelebi Evliya. Seyahatname: 10 cilt. - Istanbul; 1314-1935.
100. Çelebi Katip. Keşf el – Zünin. II-cilt, nşr. ş Yaltkaya. – R.Bilge. - Istanbul; 1971.
101. Çelebi Katip. Mizanül Hak fi Ihtiyari'l Ehakk, nşr. O. Saik Gökyay. - Istanbul, 1972.

102. Çelebi Muhyi'd-Din Divan'i Şeyh Muhyi'd-Din Çelebi (Hızırname). - Istanbul Üniversitesi Kütüpanesi; ty.nr. 9495.
103. Derdiyok ilə Hikayeti Zülfisiyah Kissası. - Istanbul; 1266.
104. Diyarbəkri Hüseyn b. Muhammed. Tarihu'l-Hamis. 1 cilt.- Kahire; 1302.
105. Elçin Şükri. Halk Edebiyatına Giriş. - Ankara. - 1980.
106. Fuad Arım, Muallim Refik Kış, Hayatı ve Eserleri. - Ankara; 1968.
107. Fuad Korqulu Ermağani. Çağatayın Saadet "Qaraçı halq ədəbiyyatında ovçu Bineger". - Istanbul, 1953.
108. Hasan Özbaş. Yazdatta Eğrice (Hıdrellez) hazırlığı. TFA, sayı:170, Eylül, 1963. - s.15
109. Hikaye-i Aşık Garip Istanbul (tarihsiz, taşbasma).- s. 47-48.
110. Ibn Kesir, El-Bidaye ven-Hikaye, nşr. G.I.Tornberq, I cilt. Leiden, 1867.
111. İslam Ansiklopedisi.- 17-ci cild// Türkiye Diyanet Vakfi// İSAM Türkiyü Diyanet Vakfi İslam Araştıtmaları Merkezi. - İstanbul, 1998.- 553s.
112. Levend Agah Sirri. Divan Edebiyyatı: Kelimeler, Remizler, Mazmunlar, Istanbul, 1980. - 36s.
113. Levend Agah Sırrı. Türk edebiyatı tarixi, Giriş. - Ankara, 1973.
114. Makdisi: El-Bed've't – Tarih, C.1, Huart (nşr), III Cilt, Paris, 1970.
115. Murad Uraz. Hıdrellez ve Hızır ile İlyas. - TFA sayı 346, mayıs 1978. - s.8314.
116. Nevevi Evu Zekerriyye. El-Münhac fi Şerli'i Müslim b, el-Haccac, IV cilt, Kahire, 1283

117. Nimetullah Hafız. Kosovada Hidrellez adetleri. - II Milletlerarası Türk Folklor Kongresi Bildirileri, II. IV cild. - Ankara, 1982.
118. Osman Bayatlı. Berqamada efsaneler, adetler, Istanbul, 1941. - s.52.
119. Ögel B. Türk mitolojisi. - Ankara, 1989.
120. Ömer Faruk Hilmi. Hızır Aleyhisselam. - Şanlıurfa; Imam Şekkaki Vakfı Yayınları, 2000. - 302s.
121. Ruhi Sadi. “Balıkesirde Hidrellez merasimi” HBH. Sayı;11. Eynül 1930, s.181.
122. Rumi Ebu’l–Hayr-i. Saltukname. - Topkapı Müzesi (Hazine) Kütuphanesi kr.1612; türk. - s.186
123. Sami Ş. Qamusi Türki, derseadet, 1317
124. Savi Haşiyeali’d – Celaleyn, III cilt, Kahire (tarihsiz)
125. Teberi, Ibn-Çerir. Mizanül Hak fi Camiu’l – Beyan, XV cilt, Kahire, (tarihsiz)
126. Yaşar Ahmed OCAK. Islam Türk Inanclarında Hızır, yahut Hızır-İlyas kultu.- Ankara, 1985. - 229s.
127. Yılmaz Abdulrehman. Tahtacılarda Gelenekler. - Ankara; 1949. - s.25
128. Yurtsever Mehmet V. “Hıdırellez-Tepreş”, Emel, sayı:77, Temmuz-Ağustos, 1973.

## Türkmən dilində

129. Kononov A.N. Rodoslavnaə törkmen.- M.-L.; 1958. (türkməncə) Gpos narodov SSSR. Turkmen soyqi dessanları. /Qlavnaə redaküiə vostoçnoy literaturı/ AN SSSR Institut Mirovoy Literaturı im.- M.: M.Qorkoqo. AN Turkmenskoy SSR Izd: Nauka, 1971.
130. Şasenem-Qarıp. - Aşqabat: “Turkmenistan” neşriyatı, 1979.

## Özbək dilində

131. Rustamxon. Uzbek dostoni.- M.: izd. “Nauka”, 1972.
132. Toxir va Zuxra. Dostonlar.- Taşkent: Qafur Qulom Nomidaqi Adabiet va Sanğat Naşrieti, 1974.

## Krım-tatar dilində

133. Destanlar. /Toplaqjan ve tertip etken Dc. Bekirov/.- Taşkent: Edebiyyat ve sanğat neşr., 1980.

## Digər dillərdə

134. Dyroff Carl. Wer ist Chadhir //Zeitshrift Assyridadie, VII. - 1892. - s.319-327.
135. Friedlaender Israel. Die Shadhirlegende und der Alexand-cerroman, Leipzig, Berlin, 1913.
136. Harva Uno. Les Reprezentation Religieuses des peuples Altaiques, Paris, 1950.
137. Masse Henri. Croyances et Coitimes Persanes. Paris, 1938.
138. Walker Varren S. “An ancient god in Modern Türkey: Some aspects of the cult of Hızır”. With A. Edip Uysal, JAF, 86, 1973.
139. Wensinsk A.J. “İdris”, EI[1]
140. Wensinsk A.J. “İlyas”, EI[2]
141. Wensinsk A.J. “al--Khadır”, EI[1-2]
142. Wollers K. “Chider” Archiv Fur Religion wis, XII, 1909

## Rus dilində

143. Аншба А. Вопросы поэтики абхазского нартского эпоса / Автореф. канд. дисс./. - М.; 1966.
144. Башкирский народный эпос. - М.; 1977 - с.147-148.
145. Бегалиев С. Вопросы поэтики эпоса “Манас” /Автореф. канд. дисс./. - Фрунзе, 1967.
146. Бертелс У.Е. Роман об Александре и его главные версии на Востоке. - М.; 1948.
147. Гутов А.М. Поэтика адыкского-нартского эпоса. /Автореф. канд. дисс./. - М.; 1975.
148. Джалилов Г.А. Узбекский народный сказочный эпос: генезис и поэтика /Автoрф. докт. дисс./.-Тбилиси, 1980.
149. Эпос народов СССР. Туркмен сойги дессанлары /Главная редакция восточной литературы/ АН СССР Жирмунский В.М., Зарифов Х.Т. Узбекский героический эпос. - М.; 1947.
150. Каррыев В.А. Эпические сказание о Кер-оглыу тюркоязычные народов. - М.; 1968. – 259с.
151. Кер-оглы Х.Г. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. -М.:“Наука”, 1983.–336с.
152. Кинкадзе З.Г. Эпос о Гилгамис /Автореф. канд. дисс./ Тбилиси, 1965.
153. Мелткоф. Ле Проблеме Кызылбаш Институт Мировой Литературы им.- М.: Горького. АН Туркменской ССР Изд: Наука, 1971.
154. Надршина Ф.А. Афористические жанры Башкирского фольклора. /Афтореф. канд. дисс./. - Уфа, 1971.
155. Образцы народной литературы якутов. Собранные И.А.Худяковым.- Часть 1. П.изд. Рос. Акад. Науки. 1918. - 258с.

156. Радлов В.В. Опыт словарья тюркских наречий. Т.IV, часть 2, С.Пб, 1911. - с.176.
157. Сапарбаев А. Метафоры в эпосе “Манас” /Автореф. докт. дисс./.- Фрунзе, 1975.
158. Сеидов М. Хызыр - продукт Тюркского мифологичес-кого мышления //Аз ССР ЕА Хябярляри.-1980. - № 4. – с.10-37.
159. Сидихменов В.И. Китай. - М.: Наука, 1974.
160. Якубова С. Азербайджанские народные сказание “Ашыг Гариб”. - Б.: АМ Азербайджанской ССР, 1968.
161. Юнг К.Г. Либидо, его метаморфозы и символы.- Санк-Петербург: Восточно-Европейский Институт психо-анализа, 1994.- 414 с.

## İnternet sayt materialları:

162. Müslim 2927/90 http://www.hadisler.com/yazdir.asp?id=3590
163. Şeyx Zeynulla ibn Həbibulla Rəsuli ən-Nəqçbəndi, 1908/ www.islam.ru/lib/douknow/hisra
164. Yusuf Karadavi. Perevel: Ya Rasulov. sufii. narod. ru/ su-fis_about_Hidri.htme/
http://lux.az/islam/24487-misird-grnn-yal-rngli-varlq-xzr-nbi-hzrti-xzr-peymbr.html,
165.http://kayzen.az/tag/X%C4%B1z%C4%B1r%20pey%C4%9F%C9%99mb%C9%99r/
166. http://legend.az/25818-shokxizir-peygember-misirde-gorundu-video.html
167.http://www.megaforum.com/dini-sorular-ve-merak-ettikleriniz/438271-peygamberimizin-dilinden-40-sual-40-cevap.html

## Əlavə
## Xızır haqqında toplanmış folklor nümunələri

1. Xızırı görmək istəyən qadın 40 gün səhər tezdən hamının yatdığı bir vaxtda evinin qarşısını suluyuf-süpürür. 20 gün qapısının önündə iki rükət Haçət namazı qılır. 40-cı gün düz günəş doğarkən bayıra çıxsa bir çoban və ya ixtiyar cildində Xızırı görər. Həmin şəxs ondan nə istədiyini soruşar. Qadının dediyi arzu az vaxtda yerinə yetər (Abdullayev Ağca, 1926, Daşkəsən rayonu, Qabaqtəpə kəndi).

2. Xıdır Nəbi gejəsi bir otağın 3 küncündə şam yandırılır. Bir küncünə isə bir qabda buğda qoyulur. Səhər gəlif görürlər ki, buğdanın üstündə bir at nalı işarəsi var. Sən demə, Xızır gejəsi peyğəmbər gəlif öz buğda payını götürüf. Nal işarəsi onun qanadlı atının izidir (Abdullayev Yaqub, 1924, Daşkəsən rayonu, Qabaqtəpə kəndi).

3. İndi çox buna məhəl qoyan yoxdu. Amma biz uşaq olanda Xıdır nəğməsi oxuya-oxuya qapıları döyər, Xıdır adına pay yığardılar. Hər qapıda "Xıdır payı" qoyardılar. Kimi bir badyan süd, kimi bir torba un... Həmin şeyləri gejə bir yerə yığıf saxlıyardılar. Səhər onlardan böyük kömbələr düzəldərdilər və əlavə olaraq bir də qovut bişirərdilər. O, gejənin adı "Xıdır gejəsi"dir. Deyilənə görə, çox mübarək gejədir (Abdullayev Yaqub, 1924, Daşkəsən rayonu, Qabaqtəpə kəndi).

4. Çərşənbə günü gecə stolun üzərinə ağ bir süfrə salınıb üstünə un, buğda və ya qovut qoyulur. Bu, Xızırın payıdır. Həmin evdə bin-bərəkətin olması üçün gecə Xıdır peyğəmbər

üçün pay qoyular ki, gecə evləri gəzəndə gəlib öz payını aparsın (Babayev Əli İbrahim oğlu, 1939, Gəncə şəhəri).

5. Elə anadan olandan İsgəndərin düz başının ortasında iki buynuzu var imiş. Elə buna görə də o həmişə buynuzunu gizlətmək üçün başından papağını çıxarmazmış. Saçını qırxdırmaq zamanı gələndə isə hər dəfə ayrı bir dəllək gətizdirər, hər dəfə də yeni dəlləyin onun sirrini, yəni ikibuynuzlu olmasını heç kəsə xəbər verməməsi üçün öldürtdürərmiş. Vaxt keçir, bir zaman ayılırlar ki, daha məmləkətdə dəllək qalmayıb. Güc-bəla ilə bir naşı dəllək tapırlar, İsgəndərin saç-saqqalını düzətsin. Dəllək işini sona çatdırandan sonra İsgəndər onu da öldürtmək istəyir. Vəzir-vəkil yığışıb Isgəndərə deyir ki, bu dəlləyə rəhm etsin. Yoxsa daha dəllək tapa bilməyəcəklər. İsgəndər çox fikirləşir, götür-qoy edir, görür həqiqətən də bu dəllək də ölsə, daha onun saç-saqqalını təraş edən olmayacaq. Dəlləyə bərk-bərk tapşırır ki, burada gördüyünü heç kəsə deməsin, yoxsa boynu vurulacaq. Dəllək də söz verir ki, bu sirri heç kəsə deməyəcək.

Günlər keçir, sirr dəlləyi rahat buraxmır, kiməsə demək istəyir. Amma həm də İsgəndərin zülmünə bələd olduğundan onun cəzasından qorxur. Axırda dözə bilməyib insan izi dəyməyən bir düzənliyə çıxır, orda quyu qazıb ağzını quyuya tutub var gücü ilə üç dəfə qışqırır: “İsgəndərin buynuzu var, ey, buynuzu”.

Bu sözləri deyəndən sonra bir qədər rahatlaşır və evinə qayıdır. Bir müddət keçir. Həmin yerdə qamışlıq əmələ gəlir. Bir dəfə təsadüfən öz sürülərini otaran bir çoban bu yerdən keçərkən bir qarğı qoparır və evinə gətirir. Qarğıdan tütək düzəldib çalmağa başlayanda bütün məmləkətə səs yayılır: “İsgəndərin buynuzu var, ey, buynuzu” - deyə tütəkdən səs

çıxmağa başlayır. Bu sözləri eşidib İsgəndərin adamları çobanı tutub saraya aparırlar. Ondan soruşurlar ki, bunu haradan eşidib. O da and-aman edərək hadisəni danışır. Bütün məsələ üzə çıxır. Beləliklə də İsgəndərin sirri bütün aləmə bəyan olur (Babayev Əli Ibrahim oğlu, 1939, Gəncə).

6. Axır çərşənbə günü Xızır peyğəmbər su üstünə gəlir və ondan sonra sular şırıltı ilə axmağa başlayır (o vaxtadək çaylarda şırıltı olmur). Həmin gecə kim su üstünə gedib niyyət etsə, "Ya Xıdır İlyas, sən məni arzuma çatdır" - desə arzuları yerinə yetər. Və həmin gün hamı çaydan su gətirər ki, evində bol ruzi-bərəkət olsun. Hamı hələ gün doğmamış su üstünə gedər, təzə suda əl-üzünü yuyar, su üstündən atlayar və bir-birinin üstünə su çiləyər. "Təzə su", "əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu" dərdlərin dərmanıdır (Ülviyyə Cənnətova, 1983, Qəbələ rayonu, Vəndam kəndi).

7. Axır çərşənbədə gecə hündür bir yerə bir yumurta, qara və qırmızı rəngli qələmlər qoyulur. Səhər həmin yumurtanın üzərində xətt olur. Deyilənə görə, həmin xətti Xızır çəkir. Əgər xətt qırmızı rəngdədirsə, deməli, adına yumurta qoyulmuş şəxs xoşbəxt olacaqdır. Yox, əgər qara rəngdədirsə, əksinə… (Fatma Nağı qızı Əlieva, 1930, Gəncə şəhəri).

8. Bir dəfə ailəmizlə birgə – həyat yoldaşım və mən - ailəvi dostlarımızla bir yerdə İrəvandan gəlirdik. Yolda maşınımız (maşını yoldaşım sürürdü) azdı. Biz isə çox sürətlə gedirdik. Bir də gördüm bir ağ at üzərində ağ paltar geyinmiş, ağ əmmaməli bir atlı maşının qabağından keçir. Tez qışqırdım ki, tez maşını saxla. Atlını vurarsan. Maşının içindəkilər dedilər ki, atlı-zad görmürlər. Mən dedim – yox ey, saxla. Gör

vurmadın ki? Maşını saxlayıb hamımız düşdük. Yolda atlı nədi, heç "ins-cins" yox idi. Yolun hər iki tərəfi isə sıldırım idi. Buradan atlı keçə bilməzdi. Onda başa düşdüm ki, Xızır mənim gözümə görünüb. Sən demə bir az o yanda yol dərəyə düşürmüş. Əgər mən o atlını görüb maşını saxlatdırmasam, maşın həmin yolu yavaşımasa, biz dərədən aşıb hamımız ölməliydik. Qurban olum Xızıra, onun hesabına bu gün yaşayırıq (Fatma Nağı qızı Əliyeva, 1930, Gəncə).

9. Xıdır gecəsi axşam qızlar çoxlu kökə yeyib su içməzlər. Gecə yuxuda hansı küçədən, hansı həyətdən su içsələr, demək qismətləri ordadır (İmamverdiyeva Həqiqət Muxtar qızı, 1942, Daşkəsən rayonu Qabaqtəpə kəndi).

10. Novruzun axırıncı çərşənbəsi Yel çərşənbəsidir. Yel çərşənbəsi günü Xızır yel qanadlı atı ilə obaya çıxır. Camaat isə meşədən ailə üzvlərinin sayı qədər qələm boyda palıd çubuğu dərib başına pambıq dolayırlar, gecə içərisində buğda olan bir sinini otağa qoyub çubuğu yandırırlar. Səhərə qədər o otağa heç kəs keçməməlidir. Səhər duranda görürlər ki, buğdanın üzərində nal izi var. Deyilənə görə, həmin gecə Xıdır Elləs bütün evləri gəzib öz payını götürür (İmamverdiyeva Həqiqət Muxtar qızı, 1942, Daşkəsən rayonu Qabaqtəpə kəndi).

11. Bayram vaxtı gəlinlərə Xıdır xonçası aparırıq, uşaqlar bir torba götürüb qapı-qapı gəzir, Xızır payı yığırlar. Naxçıvanda indi də bu adət qalmaqdadır. Belə ki, nişanlı qızlara Novruz bayramı qabağı oğlan evi nübarlıq mer-meyvə, şirniyyat aparar. Buna "Xıdır payı" deyərlər (Isgərdərov Aftandil, 1978, Naxçıvan).

12. Quba-Xaçmaz bölgəsində belə bir inam var ki, çətin anlarda insanın gözünə barmaqları arasında pərdə olan bir əl görünürsə, o mütləq dardan qurtaracaq. Barmaqlarının arasında pərdə olan əl Xıdır Zində babanın əlidir (Cansiyə Hüseynbala qızı, 1912-ci il, Quba rayonu).

13. Xızır quru bir budağa əl vurarsa, quru torpağa ayaq basarsa yaşıllaşar (Seyid Əşrəf Həsənov, 1944, Siyəzən)

14. Biz tərəflərdə Xıdır gecəsi yumurtanı damın başına deyil, təndirin gilfəsinə, yəni hava çıxan yerinə qoyurlar (Kinəfəs Məmmədova, 1927, Lerik).

15. "Nə dərin dəryaya gir, nə də Xızır İlyası çağır" (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı)

16. "Xıdır İlyasa ümid olub özünü selə-suya atma!" misalı da işlənir. (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı).

17. Xızır Tufandağda buzları qırıb ocaq qalayır. Odun kənarında qızınır. Həmin vaxt Xızırın anası və bacısı oğlunun dağda soyuqdan və aclıqdan ölməməsi üçün ona ərzaq gətirirlər. Birdən dağda Xızırın buzdan ocaq qaladığını görüb elə təəccüblənirlər ki, çaşıb qalırlır. İçərisində düyü olan qab başlarından yerə düşür. Duyu yerə səpələnir. Və o dəqiqə də Xızırın anası və bacısı daşa dönürlər. (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı)

18. Xızırgil 5 qardaşdırlar. Hamısının da adı Azərbaycanla bağlıdır. Xızır İlyas Xəzər dənizindədir, Xıdır Zində Beşbarmaq dağında, Xızır Xızı dağlarında, Diri baba Şamaxıda, Xızır Nəbi isə Şirvandadır. (Sədnik Xəlil oğlu Paşayev, 1929, Gəncə, folklorşünas, folklor toplayıcısı)

19. Qocaların, ağsaqqalların dediyinə görə Zaqatala yaxınlığında Qımız İlqundu deyilən bir çöl var. Əfsanədə deyilənə görə 2 nəfər barama üçün yarpaq toplamaqdan ötrü bu çölə gedir və orada dər (xar tut) ağacının yarpaqlarını dərib arabaya yığır ki, aparsın. Bir də görürlər ki, araba birdən-birə od tutub yanır. Əlləri hər yerdən üzülən kişilər başlayırlar Allaha yalvarmağa, Xızırı köməyə çağırmağa. Birdən gözlərinə bir kişi görünür. Həmin kişi barmağı ilə onları hədələyir. Və elə o dəqiqə də yanğın dayanır. Və yanan otlar yamyaşıl olur (Zümrüd İbrahim qızı Səmədova, 1980, Zaqatala, Qımır kəndi).

20. Biri yalan danışır. Şaha deyir ki, mən Xızır Nəbini görmüşəm. Şah ona inanmır. Deyir ki, onu göstər, yoxsa boynunu vurduracağam. Yox, əgər peyğəmbəri mənə göstərsən sənə qızıl verəcəyəm. Kasıb çox fikirləşir və fikir eliyə-eliyə yolla gedəndə görür bir əmmaməli uşaq gəlir. O bilir ki, Xızır uşaq cildində onun gözünə görünür. Tez şaha xəbər verir. Sonra uşaq qeybə çəkilir. Şah yenidən onu ikinci dəfə görmək istədiyini deyir. Amma kasıb kişi ona deyir ki, o yalnız bir dəfə göstərməyə söz vermişdi. Burada Xızırın həm kasıblar və kimsəsizlərin dadına çatması, həm də onun istədiyi vaxt, ayrı-ayrı cildlərdə gözə görünməsi göstərilir (Zümrüd İbrahim qızı Səmədova, 1980, Zaqatala, Qımır kəndi).

21. Bir kişinin uşağı olmur. O arvadı ilə birlikdə Xızırın yanına gedib ondan imdad diləyir. Nurani kişi bildirir ki, onların əkiz oğlu olacaq. Amma uşaq olandan sonra mənim yanıma gətirin. Onların adını mən qoyacağam. Birinin adı Nəbi, o birinin adı İsmayıl olsun. Vaxt gəlir, vədə tamam olur, kişinin əkiz övladı dünyaya gəlir. Onlar elə sevinirlər ki, uşaqları bilicinin yanına aparmaq yadlarından çıxır. Elə ki, Nəbi adlanacaq uşaq 5 yaşına çatır, pilləkəndən yıxılıb ölür. İllər keçir, o biri oğlan 15 yaşına çatır. Bir gün bir səbətdən üzüm götürüb yemək üçün əlini səbətə atanda ilan çalıb onu öldürür (Zümrüd İbrahim qızı Səmədova, 1980, Zaqatala, Qımır kəndi).



**Şəkil 1.** *İmamverdiyeva Həqiqət Muxtar qızı (1942), Daşkəsən rayon, Qabaqtəpə kəndi*



**Şəkil 2.** *Nağıyeva Fatma(1930), Gəncə şəhəri*



**Şəkil 3.** *Babayev Əli İbrahim oğlu (1939), Gəncə şəhəri*



**Şəkil 4.** *Beşbarmaq dağı, Xıdır Zində ziyarətgahı*



**Şəkil 5.***Beşbarmaq dağı, Xıdır Zinqdə ziyarətgahı*



**Şəkil 6.** *Xıdır Zində ziyarətgahında arzu tuturlar*



**Şəkil 7.** *Xıdır Zində məscidi*



**Şəkil 8.** *Xıdır Zindənin doğum günü qeyd olunur*



***Şəkil 9.*** *Xıdır Zindənin doğum günü qeyd olunur.*



**Şəkil 10.** *Xıdır Zində babanı*



**Şəkil 11.** *2 dənizin qovuşduğu yerdə 2 qayanın arası –*



**Şəkil 12.** *2 dənizin qovuşduğu yerdə –Xıdır Zində   dağı*



**Şəkil 13.** *Məşədi Məhərrəm Məhərrəmov (1950), Siyəzən rayonu, Xıdır Zində ziyarətgahının mücörüsü*



**Şəkil 14.** *Allahverdiyeva Ağca (1926), Daşkəsən rayon, Qabaqtəpə  kəndi*



**Şəkil 15.** *Yaqub Allahverdiyev (1924), Daşkəsən rayon, Qabaqtəpə kəndi*

## Mündəricat

Səh.
Xızır haqqında dəyərli araşdırma…………………….. 3
Giriş………………………………………………… 6
Xızırın türk mifoloji sistemindəki rolu…………………. 9
Ərəb mifologiyasında Xızır…………………………….. 24
Xızır obrazı digər türkdilli xalqların folklorunda……….. 27
Azərbaycan şifahi xalq ədəbiyyatında Xızırın regional və tarixi özünəməxsusluğu. Xızırın Novruz mərasimləri ilə bağlılığı……………………………………………. 34
Əfsanələrdə Xızırın təsviri……………………………… 62
Dastan və nağıllarda Xızır………………………………. 71
Arxaik janrlarda xalqın Xızıra inamı…………………… 81
Folklorda Xızırın təsnifləşdirilməsinə dair…………….... 87
Xızırla bağlı folklor örnəklərinin yazılı ədəbiyyata təsiri. 96
Xızırla bağlı fərziyyələrdən həqiqətə. Folklorda peyğəmbər obrazları…………………………………….. 104
Xızırın funksiyaları……………………………………... 113
Səmavi kitablarda Xızırın dini semantikası…………….. 129
Qurani-Kərimdə Xızır…………………………………… 136
Nəticə……………………………………………………. 140
Ədəbiyyat siyahısı………………………………………. 146
Əlavə. Xızır haqqında toplanmış folklor nümunələri…... 157

BABAYEVA XALIDƏ ƏLI qızı
Filologiya elmləri üzrə fəlsəfə doktoru

# AZƏRBAYCAN FOLKLORUNDA XIZIR NƏBİ (İLYAS) OBRAZI

*türk folkloru kontekstində*

MONOQRAFİYA